## DİRİLƏR

***Mirzə Cəlil, sənə min rəhmət!***

*Üç pərdəli, on şəkilli komediya*

### İŞTİRAK EDƏNLƏR

Şeyx Nəsrullah (sonra Nəsrullah bəy)
Şeyx Əhməd (sonra Əhməd bəy)
Kəblə Muxtar – dövlətli tacir
Firuzə xanım – onun arvadı
Alagöz – onların qızı
Əlibaba – onların oğlu
Rəcəb – nökər
Rəşid Məğrur – Firuzə xanımın qardaşı, qəzetçi
Mirzə Əliabbas – hesabdar
İmamqulu – qoçu
Hacı – tacir
Məşədi – tacir
Mirzə Cəlil
Hüseyn – rejissor
Ağa – artist
Əyyub əmi – mətbəə işçisi, "Molla Nəsrəddin"in Bakı nümayəndəsi
Xosrov – mürəttib
Roza – çapçı qız
Jandarma kapitanı
Casus
Məmur
I oğlan, II oğlan – məcmuə satan uşaqlar



## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Bakıda kiçik bir mətbəə. Bir tərəfdə şrift kassaları, o biri tərəfdə stol, stullar. Küncə çoxlu qəzet yığılıb. Xosrov nə isə yığır. Roza içəri girir.

Xosrov. Vurdun?

Roza. Vurdum. Yığıb qurtarmamısan?

Xosrov. İndicə qurtarıram.

Roza. Tez ol, Əyyub əmi harada olsa gəlib çıxar. O gəlincə amerikankada çap eləyək.

Xosrov. Ona çatmarıq. Axşam gəlib mən özüm çap eləyərəm.

Roza. Axşamlar tək gəzməyə yaman can atırsan, ha...

Xosrov. Roza, özün bilirsən ki, sənin kəsilib atılan dırnağını dünyanın bütün gözəllərinə dəyişmərəm.

Roza. Lap "Hop-hop"un sözlərini təkrar eləyirsən. Yadındadır, mənə oxuyurdun: Sonya, ey dilbəri-pakizə əda! Sənə bu Nağdı bəyin canı fəda!

Xosrov. Deməli, məni Nağdı bəyə oxşadırsan?

Roza. Bəs mən Sonya kimi qızam ki, o cür dil tökürdün?

Xosrov. Bilmirəm səni necə inandırım. And içmək də olmur. Sən mənim Məhəmmədimə inanmırsan, mən sənin İsana.

Roza. And içmək ki, lazım oldu, deməli həqiqi sevgi yoxdur.

Xosrov. Mümkün olsaydı, ürəyimi çıxardıb ovcumda sənə göstərərdim, görərdin necə çırpınır.

Roza. Çıxartma, elə-belə qulaq asaram. Tıp, tıp... elə rahat işləyir ki...

Xosrov. Sənin eşitdiyin mənim ürəyimin səsi deyil, ayaq səsləridir.

Roza. Doğru deyirsən. Əyyub əmi gəlir, əlindəki kağızı gizlət, ayrı iş götür.

Xosrov kağızı gizlədir. Əyyub əmi tələsik içəri girir.

Əyyub əmi. Roza, tez, samovar!

Roza. Nə olub, Əyyub əmi?

Əyyub əmi. Mirzə Cəlil artistlərlə bura gələcək. Xosrov, nə yığırsan?

X o s r o v. "Həqiqət"in baş məqaləsini.

Ə y y u b ə m i. Səhərdən qurtarmamısan? Qız, nə donub qalmısan, tez eləsənə. Samovar qoy, demirəm?

R o z a. Əyyub əmi, samovar qaynayıb, dəmləmişəm.

Ə y y u b ə m i. Yalan demə.

R o z a. Həzrət Abbas haqqı.

Ə y y u b ə m i. Ay sağ ol. Bircə səni məscidə apara bilsəydim, el qaydası ilə toyunuzu eləyərdim, şüğülzümmə olmazdım.

X o s r o v. Mirzə Cəlil bilsə ki, "Molla Nəsrəddin"in müvəkkili rus qızlarını müsəlman məscidinə dəvət eləyir, yaxşı bir şəkil çəkərdi.

Ə y y u b ə m i. "Molla Nəsrəddin" gərək birinci sizin şəklinizi çəksin. Mən gedən kimi sən ayrı iş görməyə başlayırsan, Roza da ilim-ilim itir. Hara getmişdin, kafir qızı?

R o z a. Teleqram vurmağa.

Ə y y u b ə m i. Kimə?

R o z a. Pərvizə.

Ə y y u b ə m i. Nə olub ki, teleqram vurursan?

R o z a. Onun sevdiyi qızı ərə verirlər, biz də tel vurduq ki, tez özünü yetirsin.

Ə y y u b ə m i. Sənin zarafatınla həqiqətini mən bu yaşa çatmışam, başa düşə bilmirəm.

X o s r o v. Zarafat deyil, Əyyub əmi, doğrudan elədir.

Ə y y u b ə m i. Siz istəyirsiniz ki, Pərvizi yenə təzədən tutsunlar?

R o z a. Niyə tuturlar ki? Xəlvət gələcək, heç kəsin xəbəri olmayacaq.

Ə y y u b ə m i. Pərviz mənə qardaşoğlu olmadı, bəla oldu. Yenə, təzədən, düşəcəyəm işə. Tel vuranda mənimlə məsləhət eləsəydiniz olmazdı?

Qapı döyülür.

X o s r o v. Yəqin, qonaqlardır.

R o z a. Çay hazırlayaq. Gəl, Xosrov!

Çıxırlar. Əyyub əmi qapını açır. M i r z ə C ə l i l, H ü s e y n və A ğ a içəri girirlər.

Ə y y u b ə m i. Buyurun, buyurun! Qədəminiz mübarək, Molla əmi!

M i r z ə C ə l i l (*Hüseynə və Ağaya*). Bu, bizim Əyyub əmidir, həm "Molla Nəsrəddin"in Bakı müvəkkili, həm də mətbəənin ustası. Əyyub, yəqin rejissorumuz Hüseyni, cavan komikimiz Ağanı tanıyırsan?



Ə y y u b ə m i. Həyatda – xeyr, səhnədə – bəli. (*Görüşürlər*)

M i r z ə C ə l i l. Əyyub, "Molla Nəsrəddin"in axırıncı nömrəsindən iki nüsxə tap, qonaqlarımıza bəxşiş vermək istəyirəm.

Ə y y u b ə m i. Qalmayıb, Mirzə, Bakıya çox az göndərirsiniz, uşaqlar küçəyə çıxan kimi, göydə qapırlar.

H ü s e y n. Axırıncı nömrəni biz ikimiz də oxumuşuq, Mirzə, nigaran qalmayın.

Ə y y u b ə m i. Bakıda elə ziyalı yoxdur ki, məcmuə gələn günü almasın. Bəzən saatlarla poçtun qabağında gözləyirlər.

A ğ a. "Zənbur" da yavaş-yavaş vızıldayıb uçmağa başlayır ha, Mirzə, amma hələ çox körpədir. Bir-iki boynuyoğunu dişlədi, dərilərı qalın olduğundan dişləri batmadı.

M i r z ə C ə l i l. Boynuyoğunlara heç nə təsir eləməz. Biz məcmuəmizi fağır-füğəra üçün nəşr eləyirik. Qoy, dostla düşməni tanısınlar, gözləri açılsın, ölü kimi uzanıb qalmasınlar.

Ə y y u b ə m i. Şeytan xəbər gətirib ki, siz bir "Ölülər" yazmısınız, düzdürmü, Mirzə?

M i r z ə C ə l i l. Bir elə xata əlimizdən çıxıb.

H ü s e y n. Əgər senzura məmaniət göstərməsə, o "xatanı" səhnəmizdə oynayacağıq.

A ğ a. Biz həmin "Ölülər" haqqında danışmaq üçün Mirzəyə zəhmət vermişik. Hüseyn, başlasana!

H ü s e y n. Mən "Ölülər"i sizdən aldığımız əl xəttində bir neçə dəfə oxumuşam. Ürəyim həm zavallı millətimizin avamlığına, nadanlığına təəssüf, həm də sizin qüdrətli qələminizə fəxarət hissi ilə dolub.

M i r z ə C ə l i l. O sözlər artıqdır, Hüseyn, hər kəs əlindən gələni eləyir ki, bu bədbəxt xalqı bir ağ günə çıxartsın.

A ğ a. Necə məgər, Molla Nəsrəddin əmi, bizim tərzi-həyatımız xoşunuza gəlmir? Yer üzündə bir millət yoxdur ki, müsəlman adı gələndə tir-tir titrəməsin. Heç bir padşah bizim müsəlman padşahları ilə dava eləyə bilməz.

Ə y y u b ə m i. Sabir yaxşı deyir ki, harada müsəlman görürəm, qorxuram.

A ğ a.

Bi səbəb qorxmayıram, vəchi var
Neyləyim, axır bu yox olmuşların
Fikrini qan-qan görürəm, qorxuram.

(*Qəhqəhə ilə gülür*) Biz gərək yaralarımızı gülə-gülə sağaldaq. Yazın, Mirzə, sizdən yazmaq, bizdən oynamaq. Ancaq, komediya tamaşaçıların ürəyinin tellərini dilləndirə bilər.

H ü s e y n. Yox, Ağa, sənin gülüş haqqında dediyin sözlər məni qənaətbəxş eləmədi. Sən medalyonun yalnız bu üzünə baxırsan. Bəs o biri üzü? Sən hissi, ruhu, düşüncəsi kütləşmiş, ölmüş adamlar haqqında danışırsan. O adamlara gülmək lazımdır, sözüm yoxdur. Ancaq, bəs, ölmək istəməyənləri, pula, şöhrətə, ada öz millətini satmayanları niyə yaddan çıxardırsan? Sürgünlərdə, dustaqxanalarda çürüyüb, ac qalıb, bel əyməyənlər, mənliyini itirməyənlər haqqında da yazmaq, həm də gülə-gülə yox, göz yaşları içərisində yazmaq lazımdır.

A ğ a. Sən faciə axtarırsan, Hüseyn, bizim söhbətimiz komediyadan, gülməkdən gedir.

H ü s e y n. Yumor, satira yaxşı şeydir, komediya lazımdır, ancaq insanları yalnız güldürməklə kifayətlənmək olmaz. Ağlatmaq və düşündürmək də lazımdır.

Ə y y u b ə m i. Ağladıqca kişi biqeyrət olur, necə ki, ağladı İran oldu.

M i r z ə C ə l i l. Sən onu bil ki, Molla əmi ağlaya-ağlaya güldürür. Hər bir təzə əsər mənim bədənimdə təzə bir xəstəliyin əmələ gəlməsi ilə nəticələnir. Mirzə Ələkbər Sabirin yaradıcılığı satiradır, həyatı faciə. Günlərlə özü, ailəsi ac qalır, əli silahlı, qoluzorlu adamların yumruqları həmişə onun başının üstündən asılıb. Ancaq gör o, bir addım geriyə çəkilirmi? Ağlamaq, sızlamaq, nalə çəkmək əvəzinə öz düşmənlərinin üzünə baxıb qəhqəhələrlə gülür. Bu qəhrəmanlıq deyilmi? Bizim xalqımız bu şairin timsalıdır. Üzü gülür, ürəyi ağlayır. Ümidini itirmə, əziz rejissor, bunları da yazan tapılacaq.

H ü s e y n. Bəlkə də tapılacaq, amma yazmağa qoyacaqlarmı? Zəmanə satiranı da, faciəni də zəncirləmişdir.

Xosrov və Roza çay gətirirlər.

A ğ a. Mətləbdən kənara çıxdıq, Hüseyn, "Ölülər"in üstünə gəl.

M i r z ə C ə l i l. O barədə mənim "Astoriya" mehmanxanasındakı mənzilimdə ətraflı danışarıq. İndisə gərək üzrxahlıq eləyək, bu cavanların işlərinə mane olduq.

Ə y y u b ə m i. Xeyr, Mirzə, onlar bugünkü işlərini qurtarıblar.

X o s r o v (Əyyub əmiyə). Tanış elə bizi, tanış elə.



Ə y y u b ə m i. Xahiş eləyirəm, bizim cavanlarla yaxından tanış olun. Bu, bizim mürəttibimiz Xosrovdur.

X o s r o v. Bağışlayın, əlim qətranlıdır.

M i r z ə C ə l i l. Eybi yoxdur. Dünyaya işıq saçan bu cür qətranlı əllərdir.

Görüşürlər.

Ə y y u b ə m i. Bu da ki, çapçı qızımız Roza xanım.

A ğ a. Elə doğrudan da gülə oxşayır...

Ə y y u b ə m i. Ehtiyatlı olun, azərbaycanca bizdən yaxşı danışır.

M i r z ə C ə l i l. Tanış olaq... Roza... Atanızın adı?

Ə y y u b ə m i. Aleksandr.

M i r z ə C ə l i l. Deməli, Roza Aleksandrovna?

R o z a. Xeyr, mənim adımın azərbaycancası belə olur, Gül İsgəndər qızı. (*Hamı gülür*)

A ğ a. Hə, bax, buna varam. (*Hüseynə*) Nə səhnəlikdir.

H ü s e y n. Roza xanım, səhnəmiz sizi gözləyir.

R o z a. Qorxuram, mümkün olmaya.

H ü s e y n. Nə üçün? Səhnə mübarizi olmaq istəmirsiniz?

R o z a. Biz həyat mübariziyik. O mübarizədə mən kiçik bir rol oynayıram, onu başa çatdıra bilsəm, böyük işdir.

A ğ a. Nə dilavər qızdır!

H ü s e y n. Yaman iti dili var.

R o z a. Siz səhnədən özgənin sözlərini deyirsiniz. Molla əmi kimi yazıçılar yazır, siz onu camaata çatdırırsınız. Biz isə camaat ilə danışmaq üçün özümüz söz düzəltməyə məcburuq. Həyat dilimizi itiləyib.

H ü s e y n. Bəs rejissorunuz kimdir?

R o z a (*Xosrovu göstərir*). Bunun kimi oğlanlar.

H ü s e y n. Biz qışqır-bağır salmasaq, öyrədə bilmirik. Amma bunun heç səsi çıxmır.

X o s r o v. Biz səssiz rejissoruq. Bir işarəmizlə ya faciə oynanır, ya da ki, komediya.

M i r z ə C ə l i l. Hə, aldınız cavabınızı?

Ə y y u b ə m i. Siz bunlara dil çatdıra bilməzsiniz. İndiki cavanlar çox diribaşdırlar.

X o s r o v. İcazə verin gedək, Əyyub əmi, mən axşam gəlib işləyəcəyəm.

Əyyub əmi. Dayanın, mən də gedirəm. Mirzə, siz söhbətinizi eləyin, mən bu saat qayıdıram.

Əyyub əmi, Xosrov və Roza gedirlər.

Mirzə Cəlil. Nələr görürəm! Mübarizədən danışan cavan qız, bir işarəsi ilə həyatda faciə, komediya yaradan fəhlə...

Hüseyn. Bunlara daha "ölülər" demək olmaz, Mirzə, bunlar "dirilər"dir.

Mirzə Cəlil. Düzdür. Şeyx Nəsrullah, Şeyx Əhməd kimilər bunlarla bacara bilməzlər.

Hüseyn. "Ölülər"dəki hadisələr on doqquzuncu əsrin axırlarında, uzaq şəhərlərdən birində vaqe olur, ancaq iyirminci əsrin əvvəllərində onlar Bakı kimi şəhərə gəlsələr...

Mirzə Cəlil. Mən gözümün qabağına gətirirəm...

İşıqlar sönür.

## İKİNCİ ŞƏKİL

Dağların arası. Uzaqdan Araz çayı və İran sərhəddi görünür. Səhnə arxasında at ayaqlarının səsi. Bu səs gah yaxınlaşır, gah da uzaqlaşır. Şeyx Əhməd qorxa-qorxa kolun arxasından çıxır.

Şeyx Əhməd (*ora-bura baxır, sonra səsləyir*). Şeyxəna! Şeyxəna!..

Şeyx Nəsrullah sürünə-sürünə gəlir.

Şeyx Nəsrullah. Yavaş danış, şeyxəna nədir, öz adımı çağıra bilmirsən?

Şeyx Əhməd. Qorxma, uzaqlaşdılar, yəqin sərhəddə tərəf getdilər.

Şeyx Nəsrullah. Xudaya, şükür kəramətinə. İlanın ağzından qurtulduq. Daha o tərəflərə gedə bilmərik. İran sərhəddi bizimçün bağlandı.

Şeyx Əhməd. İnsan gərək arzularının dərəcəsini bilsin, şitini çıxartmasın, acgözlük eləməsin.

Şeyx Nəsrullah. Əstəğfürullah rəbbi və ətövbi-ileh.



Şeyx Əhməd. İncimə, Nəsrullah, sözün düzündən adam incimməz. Qürbət yerdə arvad alarlar ey, sözüm yoxdur, birini, uzaqbaşı ikisini. Daha şəhərin bütün cavan qızlarını murdarlamaq olmaz ki...

Şeyx Nəsrullah. Sus, kəmsavad, qanmadığın mətləblərə burnunu soxma. Mən hər gecə böyük savaba nail olurdum. Ruhanilər...

Şeyx Əhməd (*onun sözünü kəsir*). Ruhanilər yox, lotular bu cür iş görərlər.

Şeyx Nəsrullah. Ehtiyatlı ol, Əhməd, Allah mənim əlimlə sənə cəza verə bilər. Bir nifrin eləyərəm ki, yerlə yeksan olarsan.

Şeyx Əhməd. Yalan danışma, lotu!

Şeyx Nəsrullah. Sən özün tayifeyi-əlvata mənsubsan.

Şeyx Əhməd. Oyunbaz, bambılı!

Şeyx Nəsrullah. Kəlbi-mənfur, şeytani-layələm!

Şeyx Əhməd. Mən şeytanamsa, sən iblissən.

Səhnə arxasından yenə at ayaqlarının səsi eşidilir.

Şeyx Nəsrullah. Çığırma, yavaşdan söy.

Şeyx Əhməd. Çığıracağam!

Şeyx Nəsrullah. Sus, bədbəxt, gizlən!

Gizlənirlər. Atlılar səhnə arxasından keçib gedirlər.

Şeyx Əhməd (*başını qaldırır*). Getdilər?

Şeyx Nəsrullah. Rəddi-bədəl oldular. Bir az sakitləşdin, Allahın səbirsiz bəndəsi? Bu saat bizə söyüşmək yox, öpüşmək vacibdir. Bədbəxtlik zamanı insanlar gərək əl-ələ tutsunlar, can deyib, can eşitsinlər. Sakit ol, tədbir tökək. Mən otaylıyam, sən butaylısan. Bu yerlərə bələdsən. De görüm, üzü bu yana, hara gedə bilərik?

Şeyx Əhməd. Üzü bu yana, biz çox yerə gedə bilərik. Dünyanın çox hissəsi bu tərəfdədir.

Şeyx Nəsrullah. Tanıdığın yerləri de.

Şeyx Əhməd. Birinci, Tiflis.

Şeyx Nəsrullah. Necə yerdir?

Şeyx Əhməd. Cənnət o şəhərin yanında heç nəmənədir. Orada mən şah kimi dolanırdım. İşim çox yaxşı gedirdi. Birdən bir əli qurumuşun biri məcmuə çıxartmağa başladı, adı "Molla Nəsrəddin".

Şeyx Nəsrullah. Lənətullah.

Əyyub əmi. Dayanın, mən də gedirəm. Mirzə, siz söhbətinizi eləyin, mən bu saat qayıdıram.

Əyyub əmi, Xosrov və Roza gedirlər.

Mirzə Cəlil. Nələr görürəm! Mübarizədən danışan cavan qız, bir işarəsi ilə həyatda faciə, komediya yaradan fəhlə...

Hüseyn. Bunlara daha "ölülər" demək olmaz, Mirzə, bunlar "dirilər"dir.

Mirzə Cəlil. Düzdür. Şeyx Nəsrullah, Şeyx Əhməd kimilər bunlarla bacara bilməzlər.

Hüseyn. "Ölülər"dəki hadisələr on doqquzuncu əsrin axırlarında, uzaq şəhərlərdən birində vaqe olur, ancaq iyirminci əsrin əvvəllərində onlar Bakı kimi şəhərə gəlsələr...

Mirzə Cəlil. Mən gözümün qabağına gətirirəm...

İşıqlar sönür.

## İKİNCİ ŞƏKİL

Dağların arası. Uzaqdan Araz çayı və İran sərhəddi görünür. Səhnə arxasında at ayaqlarının səsi. Bu səs gah yaxınlaşır, gah da uzaqlaşır. Şeyx Əhməd qorxa-qorxa kolun arxasından çıxır.

Şeyx Əhməd (*ora-bura baxır, sonra səsləyir*). Şeyxəna! Şeyxəna!..

Şeyx Nəsrullah sürünə-sürünə gəlir.

Şeyx Nəsrullah. Yavaş danış, şeyxəna nədir, öz adımı çağıra bilmirsən?

Şeyx Əhməd. Qorxma, uzaqlaşdılar, yəqin sərhəddə tərəf getdilər.

Şeyx Nəsrullah. Xudaya, şükür kəramətinə. İlanın ağzından qurtulduq. Daha o tərəflərə gedə bilmərik. İran sərhəddi bizimçün bağlandı.

Şeyx Əhməd. İnsan gərək arzularının dərəcəsini bilsin, şitini çıxartmasın, acgözlük eləməsin.

Şeyx Nəsrullah. Əstəğfürullah rəbbi və ətövbi-ileh.



Şeyx Əhməd. İncimə, Nəsrullah, sözün düzündən adam incimməz. Qürbət yerdə arvad alarlar ey, sözüm yoxdur, birini, uzaqbaşı ikisini. Daha şəhərin bütün cavan qızlarını murdarlamaq olmaz ki...

Şeyx Nəsrullah. Sus, kəmsavad, qanmadığın mətləblərə burnunu soxma. Mən hər gecə böyük savaba nail olurdum. Ruhanilər...

Şeyx Əhməd (*onun sözünü kəsir*). Ruhanilər yox, lotular bu cür iş görərlər.

Şeyx Nəsrullah. Ehtiyatlı ol, Əhməd, Allah mənim əlimlə sənə cəza verə bilər. Bir nifrin eləyərəm ki, yerlə yeksan olarsan.

Şeyx Əhməd. Yalan danışma, lotu!

Şeyx Nəsrullah. Sən özün tayifeyi-əlvata mənsubsan.

Şeyx Əhməd. Oyunbaz, bambılı!

Şeyx Nəsrullah. Kəlbi-mənfur, şeytani-layələm!

Şeyx Əhməd. Mən şeytanamsa, sən iblissən.

Səhnə arxasından yenə at ayaqlarının səsi eşidilir.

Şeyx Nəsrullah. Çığırma, yavaşdan söy.

Şeyx Əhməd. Çığıracağam!

Şeyx Nəsrullah. Sus, bədbəxt, gizlən!

Gizlənirlər. Atlılar səhnə arxasından keçib gedirlər.

Şeyx Əhməd (*başını qaldırır*). Getdilər?

Şeyx Nəsrullah. Rəddi-bədəl oldular. Bir az sakitləşdin, Allahın səbirsiz bəndəsi? Bu saat bizə söyüşmək yox, öpüşmək vacibdir. Bədbəxtlik zamanı insanlar gərək əl-ələ tutsunlar, can deyib, can eşitsinlər. Sakit ol, tədbir tökək. Mən otaylıyam, sən butaylısan. Bu yerlərə bələdsən. De görüm, üzü bu yana, hara gedə bilərik?

Şeyx Əhməd. Üzü bu yana, biz çox yerə gedə bilərik. Dünyanın çox hissəsi bu tərəfdədir.

Şeyx Nəsrullah. Tanıdığın yerləri de.

Şeyx Əhməd. Birinci, Tiflis.

Şeyx Nəsrullah. Necə yerdir?

Şeyx Əhməd. Cənnət o şəhərin yanında heç nəmənədir. Orada mən şah kimi dolanırdım. İşim çox yaxşı gedirdi. Birdən bir əli qurumuşun biri məcmuə çıxartmağa başladı, adı "Molla Nəsrəddin".

Şeyx Nəsrullah. Lənətullah.

Ş e y x Ə h m ə d. Gördüm ki, bu "Molla Nəsrəddin" dünyanı qarışdırdı, daha baş girləmək mümkün deyil, qaçdım Eşqabada.

Ş e y x N ə s r u l l a h. Yaxşı yerə oxşayır. Adı mənim məcazıma uyğundur.

Ş e y x Ə h m ə d. Elə təkcə adı var. Cəhənnəm o şəhərin yanında heç nəmənədir.

Ş e y x N ə s r u l l a h. Xub, sən o cəhənnəmdə neyləyirdin?

Ş e y x Ə h m ə d. Kimin məhkəmədə pul davası vardısa, mənə müraciət eləyirdi, haqq işə manata otuz qəpik, nahaq işə manata altmış qəpik alıb yalandan şahid dururdum. Saxta qəbz düzəldirdim, imzaları elə təqlid eləyirdim ki, Allahın köməkliyi ilə, heç kəs düzü əyridən seçə bilmirdi.

Ş e y x N ə s r u l l a h. Xudavənda, kərəminə şükür, sənə şəkk gətirən kafirdir.

Ş e y x Ə h m ə d. Saxta çek düzəldib satırdım. Bu işdə böyük məharətim var idi.

Ş e y x N ə s r u l l a h. Maşallah, maşallah... Bacarırsan?

Ş e y x Ə h m ə d. Təmiz işləyirəm. Hansı dildə istəsən baxıb oxşadıram.

Ş e y x N ə s r u l l a h. Axmaq adam, bəs, nə oldu ki, bu cür gözəl sənətdən əl çəkdin?

Ş e y x Ə h m ə d. Araya arvad girdi. Bir arvadım var idi, şeytanın, işvəkarın birisi. Bir gün əsnayi-məhəbbətdə sirrimi ona açdım, o da qonşulara danışdı, məsələdən hökumət xəbərdar oldu.

Ş e y x N ə s r u l l a h. Böyük səhv eləmisən. "Əbvabül-canan" kitabında deyilir: "Dəccalın xürucu o vaxt olacaq ki, kişilər arvadlarla məşvərət eləyələr", çünki arvadlar naqisül-əqldirlər.

Ş e y x Ə h m ə d. Bəli, məni tutdular. On il Sibir kəsdilər. Yolda qaçdım. Əfqanıstan sərhəddindən keçib, gəldim İrana. Orada da sənə rast gəldim. Mabədi özünə məlumdur.

Ş e y x N ə s r u l l a h. A kişi, əlində ki, bu cür gözəl sənətin var, nə durmusan, o çekdən yaz, gedək bankdan pul alaq.

Ş e y x Ə h m ə d. Yox, şeyxəna, bu sənincün ölü diriltmək deyil, çox çətin işdir. Gərək xüsusi çek kağızı, xüsusi mürəkkəb olsun. Gərəkdir möhür düzəldəsən. Həngaməsi böyükdür. Belə işləri adam çox olan şəhərdə görmək olar.

Ş e y x N ə s r u l l a h. Gedək elə şəhərlərdən birinə.



Ş e y x Ə h m ə d. Bakı necədir?

Ş e y x N ə s r u l l a h. Orada da Kəbleyi, Hacı var?

Ş e y x Ə h m ə d. Nə qədər istəsən.

Ş e y x N ə s r u l l a h. O yazıqların ölüləri qəbiristanlıqda qalıb, bəlkə onları diriltməkdən başlayaq.

Ş e y x Ə h m ə d. Bu fırıldaq Bakıda baş tutmaz, dadaş, bakılılar bizim özümüzü yüz dəfə öldürüb dirildərlər.

Ş e y x N ə s r u l l a h. Yaxşı, bəs bu çek əhvalatı orada keçər?

Ş e y x Ə h m ə d. Keçər. Amma ortada bir neçə şərt var.

Ş e y x N ə s r u l l a h. İki dost arasında nə şərt, nə şürt?

Ş e y x Ə h m ə d. Doğrusunu deyim, Nəsrullah, əgər o yerlərdə də başlasan evlənməyə, sənin lə bir addım da atmaram.

Ş e y x N ə s r u l l a h. Şeyx Əhməd, Allahı yaddan çıxartmaq olmaz. O deyir ki, vəzzövcəna minəlhurileyn, axı, yazıqdırlar, onları da bir alan lazımdır, ya yox?

Ş e y x Ə h m ə d. Hə, onda bizimki tutmadı. Sən get o taya, mən də bu taya. Ayrılaq.

Ş e y x N ə s r u l l a h. Zor eləyirsən, Əhməd, zor eləyirsən. Mənim kimi bir çiçək düşübdür əlinə, əzişdirib tökürsən. Hara gedirsən? Dayan, getmə, razıyam. Nə qədər ki, sənin ləyəm, arvad barədə oruc tutaram. De görüm, daha nə şərtin var?

Ş e y x Ə h m ə d. Bizim bu səfərimizə böyük hazırlıq lazımdır. Bakıya əliboş getmək olmaz. Nə qədər pulun var?

Ş e y x N ə s r u l l a h. Pul? Məndə pul haradandır?

Ş e y x Ə h m ə d. Çıxart, çıxart, tök ortaya.

Ş e y x N ə s r u l l a h. Əziz canına and içirəm ki, məndə bir abbası da yoxdur.

Ş e y x Ə h m ə d. Qoy özüm baxım.

Ş e y x N ə s r u l l a h. Yaxın gəlmə, Allahın məlun bəndəsi!

Ş e y x Ə h m ə d. Məlun özünsən, çıxart pulları, müftəxor!

Ş e y x N ə s r u l l a h. Çəkil kənara, haramzadə!

Xirtdəkləşirlər. Şeyx Nəsrullahın cibindən yerə qızıllar tökülür. İkisi də qızılların üstünə sərilir.

Ş e y x Ə h m ə d. Qızıldır, səsindən tanıdım, qurban olduğum, ibadət elədiyim qızıldır.

Ş e y x N ə s r u l l a h. Bura ver, hamısını bura ver, cibinə dürtmə.

Ş e y x Ə h m ə d. Sənə qurban olum, ay qızıl, dünyada hamı qırılaydı, bir sən qalaydın, bir də mən.

Ş e y x N ə s r u l l a h. Mənə bax, Şeyx Əhməd, qızılı görən kimi bütün dünya yadından çıxmasın. Tök yerə, sayaq görək, nəyimiz var?

Ş e y x Ə h m ə d. Məni aldatmazsan ki?

Ş e y x N ə s r u l l a h. Böyük ol, Əhməd, qəpik-quruş davası eləmə. Biz qartalıq, sərçə deyilik.

Ş e y x Ə h m ə d. Aldatsan, başını cücə boğazı kimi üzərəm.

Ş e y x N ə s r u l l a h. Bu başımın sənə təəllüqü var.

Pulları sayırlar.

Ş e y x Ə h m ə d. Otuz səkkiz qızıl. Daha yoxdur ki? Ciblərinə yaxşı bax.

Ş e y x N ə s r u l l a h. Bax, bu mən, bu da ciblərim. Bir çet qalıbsa gözüm bu dünyanı görməsin. Bəlkə bir az da səndə var?

Ş e y x Ə h m ə d. Əziz canın üçün, Nəsrullahın meyidini görüm ki, yoxdur.

Ş e y x N ə s r u l l a h. Bu cibindəki nədir belə?

Ş e y x Ə h m ə d. Təsbehdir.

Ş e y x N ə s r u l l a h. Təsbehdən o cür səs çıxmaz.

Ş e y x Ə h m ə d. Çıxar, niyə çıxmır?

Ş e y x N ə s r u l l a h. Üstünü örtmə, qoy baxım.

Ş e y x Ə h m ə d. Əlini vurma, qıdığım tutur.

Ş e y x N ə s r u l l a h. Nə olar, gül, gülmək cana xeyirdir. (*Xırt-dəkləşirlər. Nəsrullah Əhmədin cibindən qızıl çıxarır*) Şeyx Əhməd, sən nə qədər vicdansız adamsan. Hələ meyidimə and içirdin ki, pulun yoxdur. Bu cür yoldaşlıq olmaz. Mən nəyim vardısa qoydum ortalığa, sən də qoy.

Ş e y x Ə h m ə d. Götürdün də. Daha yoxdur, balalarım ölsün.

Ş e y x N ə s r u l l a h. Bu oldu qırx səkkiz qızıl. Bəsimizdir?

Ş e y x Ə h m ə d. Bəsdir, ver, mən saxlayım.

Ş e y x N ə s r u l l a h. Yox, mən ehtiyatlıyam, arxayın ol, hamısını işə sərf eləyəcəyik. Hə, düş qabağa, Bakının yolunu göstər.

Ş e y x Ə h m ə d. Xeyr, əvvəl yollanırıq Həştərxana. Xarici görkəmimizi dəyişib, Bakının əhvalına uzaqdan bələd olandan sonra varid olarıq o pul və dövlət şəhərinə.

Ş e y x N ə s r u l l a h. Bismillah! Yolçu yolda gərək.

Yola düşürlər. Səhnə qaranlıqlaşır.



## ÜÇÜNCÜ ŞƏKİL

Bakı. Dəniz kənarı. Körpünün yanı. Həştərxan gəmisini qarşılamaq üçün gələnlər ora-bura gəzinirlər, üç oğlan, əllərində "Molla Nəsrəddin" səhnəyə çıxır.

I o ğ l a n. "Molla Nəsrəddin"! Təzə nömrə "Hop-hop"un şeri! Mozalanın felyetonu!

II o ğ l a n. "Molla Nəsrəddin"! Zəngəzurda çörək tapılmır! Camaat acdır!

I o ğ l a n. Adə, çörək tapılmır, paxlava yesinlər, şəkərbura yesinlər! Ha, ha, ha...

"Molla Nəsrəddin", "Molla Nəsrəddin" deyə çığıra-çığıra gedirlər. H a c ı ilə M ə ş ə d i səhnəyə gəlirlər.

H a c ı. Məşədi! Yallah, yallah. Hava alırsan?

M ə ş ə d i. Hava almağa vaxt hardandır, ay Hacı, Həştərxandan bir tacir gəlir, onu qarşılayıram. Budur, tel almışam, iki yüz pud ipək istəyir. Əziz canın üçün, başımı itirmişəm.

H a c ı. Pənah bərxuda. O tacirin familiyası nədir?

M ə ş ə d i. Familiyası Otaylinski, Nəsrullah bəy Otaylinski...

H a c ı. Qəribə işdir. Əhməd bəy Butaylinski adlı bir tacir də mənə bir gəmi quru meyvə sifariş eləyib, Sibirə göndərmək üçün.

M ə ş ə d i. Buradan Sibirə gəmi gedir?

H a c ı. Getməsə istəməz ki? Məşədi, mənə elə gəlir ki, bunlar şərikdirlər.

M ə ş ə d i. Mən də elə güman eləyirəm, amma Hacı, puldan bir kəlmə söz yoxdur. Heç olmasa, qabaqcadan göndərəydilər.

H a c ı. İndi xaricdə ticarət təzə üsulladır. Məşədi, olmaya-olmaya, pul sözü işlədəsən, gülərlər.

M ə ş ə d i. Pulsuz iki yüz pud ipəyi verim aparsınlar ki, nə var, nə var, gülərlər?

H a c ı. Əsl tacirin əli pula dəyməz. Məşədi, o sənə çek verir, sən də ona mal verirsən. Bildin? Bu saat alveri o cür eləyirlər. Məxmər stullarda otururlar. Qabaqlarında da qəhvə, əvvəlcə anekdot danışırlar.

M ə ş ə d i. O nədir?

H a c ı. Gülməli sözlər. Danışırlar, gülürlər, danışırlar, gülürlər, arada da qiymətdən söhbət gedir.

M ə ş ə d i. Ay-hay, olan-qalanımı gülə-gülə verim getsin? Bəlkə o danışanda heç mənim gülməyim tutmadı?!

Roza səhnədən keçib gedir. Hacının gözü ondadır. Məşədi görmür.

H a c ı. Məşədi, bir ora bax, min pud ipəyə dəyər.

M ə ş ə d i. Hara deyirsən?

H a c ı. Ora, ora... nə görürsən?

M ə ş ə d i. Şalban görürəm.

H a c ı. Əşi, bu tərəfə bax ey, bu tərəfə.

M ə ş ə d i. Gördüm, gördüm, əhsən bunu belə yaradana, əhsən!

H a c ı. Döndü, üzünü yana çevirdi. A kişi, yaxşı-yaxşı bax da.

M ə ş ə d i. Mənim gözüm uzağı yaxşı seçmir. Bir az yaxına getsək, qiyamət qopmaz ki?..

H a c ı. Getməsək, qiyamət qopar!

Gedirlər. Xosrov ilə Əyyub əmi içəri girirlər.

Ə y y u b ə m i. Ay rəhmətliyin oğlu, bu teleqramı vuranda fikirləşmədin ki, Pərviz bu şəhərə ayaq basa bilməz?

X o s r o v. Gərək bu iş gizlin olsun. Əlbəttə, o, aşkar gələ bilməz. Amma gəlməyə də bilməz.

Ə y y u b ə m i. Niyə gəlməyə bilmir?

X o s r o v. Qız əldən çıxır.

Ə y y u b ə m i. Dünyada axırıncı qızı ərə verirlər, daha kökü kəsilir?

X o s r o v. Siz də belə danışanda daha mən nə deyim? Sevir ey, Pərviz o qızı çox sevir. Qız da Pərvizi sevir. Bu onu, o bunu... Ah, uf... Həmişə də hicran...

Ə y y u b ə m i. Kimdir o qız?

X o s r o v. Deməyə ixtiyarım yoxdur.

Ə y y u b ə m i. Niyə, bu da gizlin işdir? İclas eləyirsiniz, harada, nə barədə, sus, sirrdir. Əyyub əmiyə demək olmaz. Vərəqə çap eləyib camaata yayırsınız, bu vərəqələri kim yazıb, kim çap eləyib, kim divarlara yapışdırıb, yenə sirrdir. Əyyub əmiyə demək heç olmaz. Amma sonra nə olur? Tutulanda qaçırsınız birbaş Əyyub əminin üstünə, ay haray, kömək elə, qardaşın oğlunu tutublar. Bəli, Əyyub əmi düşür qapı-qapı, o vəkil sənin, bu vəkil mənim. İndi qızın da kim olduğunu demək olmaz, hə?..

R o z a içəri girir.

X o s r o v. Niyə demək olmur? Bilirsiniz kimdir?



Ə y y u b ə m i. Yox, bilmirəm. Bilsəm soruşmaram ki?

R o z a. Çıx ağacın başına, hamıya car çək. (*Onlara yaxınlaşır*)

Ə y y u b ə m i. Ağız, kafir qızı, salam-zad da vermirsən.

R o z a. A... bu gün səhər görüşmüşük də...

Ə y y u b ə m i. Hər görüşəndə gərək salam verəsən.

R o z a. Salaməleyküm, Əyyub əmi!

Ə y y u b ə m i. Əleykəssalam. Deməli, qızın kim olduğunu mənə demək olmaz.

R o z a. Niyə olmur? Deyirəm, yavaş danışsın, bərkdən çığırmasın.

Ə y y u b ə m i (*Xosrova*). Hə, pıçılda qulağıma.

X o s r o v. Kəblə Muxtarın qızı Alagöz.

Ə y y u b ə m i. Ay-hay... Danışanda mübarizədən-zaddan dəm vurursunuz, aşiq olanda gedib tacir qızına aşiq olursunuz.

R o z a. Əyyub əmi, Alagöz meşşan deyil, ağıllı qızdır, qabaqcıl fikirlidir.

Ə y y u b ə m i. O da sizin bu işlərinizdə iştirak eləyir?

X o s r o v. Yox, biz Alagözün üzünü də görməmişik. Pərvizin dilindən deyirik, çox aşiqdir ey, lap əldən gedir.

Ə y y u b ə m i. Yaxşı, bəs Pərviz gəlib neyləyəcək?

X o s r o v. Rəsmi elçi gedəcəyik.

R o z a. Qız da bir az göz yaşına güc verər, bəlkə ata-anasını mərhəmətə gətirə bildi.

Ə y y u b ə m i. Ah, cavanlıq, cavanlıq! (*Bu vaxt jandarma kapitanı səhnədən keçib gedir*) Aha, jandarma da buradadır ki.

X o s r o v. Ayrılmaq lazımdır.

Ə y y u b ə m i. Dağılın hərəniz bir tərəfə. (*Yavaşdan*) Diqqət eləyin, görün, kim var, kim yoxdur, bu qurd niyə buralarda hərlənir?.. Gedin, mən də bu tərəflərdə olacağam.

Roza ilə Xosrov gedirlər. Əyyub əmi də onların dalınca getmək istədikdə Mirzə Əliabbasla qarşılaşır.

M i r z ə Ə l i a b b a s. Aha, Əyyub, necəsən, ey qəzetsatanların ən şərəflisi?

Ə y y u b ə m i. Sən necəsən, ey hesabdarların ən balacası! Burada neyləyirsən?

M i r z ə Ə l i a b b a s. Həştərxandan gəmi gəlir, ağamla mən onu qarşılayırıq.

Əyyub əmi. Hə, deyirəm niyə Həştərxan pişiyi kimi gözlərin par-par parıldayır. Yəqin o münasibətlə vuracaqsan, hə?

Mirzə Əliabbas. Səhvin var, Əyyub, sən gördüyün ağacları kürəkliyə kəsiblər. Bu alçaq zəmanə Əliabbası soxub qoz qabığına, bir şüşə şərab üçün körpə uşaqlar kimi ağlamalı olmuşam. Neçə gündür dilimə dəyməyib. Ümidim yalnız bu gün axşamadır.

Əyyub əmi. Axşam kimin qapısında olacaqsan?

Mirzə Əliabbas. Öz qapımızda. Axşam Kəbleyinin qızının nişanıdır.

Əyyub əmi. Ay Əliabbas, Əliabbas, sənin tayların, səninlə bir yerdə qurtarmış ziyalılar banklarda böyük mütəxəssis kimi işləyirlər, amma sən qotur bir Kəbleyinin hesabdarısan.

Mirzə Əliabbas. O sən dediyin ziyalılar dövlətli balalarıdır. Öz atalarının hesabına oxuyublar, mənə isə Kəblə Muxtar təqaüd verib oxutdurub. Əvəzində mən ona iki il xidmət eləməliyəm. Az məvaciblə, nökər kimi. Aldığım pul yeməyimi, paltarımı görmür.

Əyyub əmi. Belə de!..

Mirzə Əliabbas. Bəs necə, dövlətli hesabına oxumaq da bir kişilik deyil, adam heçə çevrilir.

Əyyub əmi. İçkiyə o qədər güc vermə, Əliabbas, sonra tamam heç olarsan.

Mirzə Əliabbas. Mənim eşqim, ümidim, təsəllim yalnız içkidir, onu əlimdən alsalar bir dəqiqə yaşaya bilmərəm. Ora bax, ora, Əyyub, bu aciz qulun ağası təşrif gətirir.

Əyyub əmi. Mən gedim.

Mirzə Əliabbas. Getmə, dayan, tanış ol, ağzın dada gəlsin.

Əyyub əmi. Yox, Kəbleyi dadına baxmağa iştahım yoxdur.

Gedir. Kəblə Muxtar ilə Rəcəb gəlirlər.

Kəblə Muxtar. Mirzə Əliabbas, buradasan?

Mirzə Əliabbas. Əmr elədiyiniz kimi, Kəbleyi!

Kəblə Muxtar (*Rəcəbə*). A gədə, bu pula (*cibindən pul çıxarır*) böyük, bir dəstə gül al. Yox, bir dəstə yox, iki dəstə. Qonağımız ikidir. (*Rəcəb getmək istəyir*) Adə, o saat qaçma, gör nə deyirəm. Gözlə aldatmasınlar səni, hamısı qızılgül olsun, qırmızı, bir də sarı... Necədir, Mirzə Əliabbas?!

Mirzə Əliabbas. Sarı-nifrət nişanəsidir. Qırmızı da... Kəbleyi, özün bilirsən ki, qırmızılar bu saat nə həngamə çıxarırlar.



Kəblə Muxtar. Düzdür, sarı da yaramaz, qırmızı da. Ağ gül... Tez, ağ gül al, gətir.

Mirzə Əliabbas. Ağ gül gənc qızlara məxsusdur, onu ya toyda təqdim eləyərlər, ya da ki, yasda. Bu cür tacirləri ağ gül ilə qarşılamazlar.

Kəblə Muxtar. Sən bütün rəngləri heçə çıxartdın, bəs neyləyək?

Rəcəb. Bu tində kağız güllər satırlar, rəngbərəng...

Kəblə Muxtar (*Mirzə Əliabbasa*). Necədir?

Mirzə Əliabbas. Vəhşiliyin ən dəhşətli şəkli.

Kəblə Muxtar. Sənin mədəniyyətin məni lap xirtdəyə yığdı. (*Rəcəbə*) Pulları bura ver. Dədə-babamız qonaq qabağına gül ilə çıxmayıb ki? (*Pulları Rəcəbdən alır*)

Mirzə Əliabbas. İnciyərlər.

Kəblə Muxtar. İnciyərlər, əncir ağacına çıxarlar. Axşam quzu kababını verərəm dəmlərinə, yadlarından çıxar.

Mirzə Əliabbas (*sevincək*). Quzu kababı? Xanımın nişanına onları da dəvət edəcəksiniz?

Kəblə Muxtar. Əlbəttə, çoxlarının paxıllıqdan gözləri çıxacaq, (*Rəcəbə*) adə, get dayan lap o qabaqda, gəmi görünəndə xəbər ver. (*Rəcəb gedir*) Hə, Mirzə Əliabbas, de görüm nə fikirləşirsən?

Mirzə Əliabbas. Fikrim odur ki, o cür möhtərəm şəxsiyyətlər olan məclisdə gərək ən bahalı şərablar olsun.

Kəblə Muxtar. Onu demirəm ey, baş işlət görək, bu gələnlər kim olar?

Mirzə Əliabbas. Kim olacaq? Ticarət dünyasının iki böyük tülküsü.

Kəblə Muxtar. Ey, çörəyimi yeyib mənə təpik atma, ağzının sözünü bil.

Mirzə Əliabbas. Sizi nəzərdə tutmuram, Kəbleyi, siz düzlüyün, vicdanın, namusun canlı heykəlisiniz.

Kəblə Muxtar. Bərəkallah, yaxşı danışdın, xoşuma gəldin. Pal-paltarın niyə bu gündədir? Bu kostyumu cəmisi bir aydır sənə vermişəm, gör nə kökə düşüb, ləkə-ləkədir.

Mirzə Əliabbas. Mənim bu kostyumum canlı muzeydir, Kəbleyi. Bu böyük ləkəyə bax, Hacının qonaqlığında konyak töküblər, bu ləkəni upravanın banketində...

Kəblə Muxtar. Evə gedən kimi atarsan zibil yeşiyinə, mənim qəhvəyi kostyumumu geyərsən. Qonaqlardan ayıbdır.

Mirzə Əliabbas. Təşəkkür, yerdən göyə qədər.

Kəblə Muxtar. Bəri gəl, bu teleqramı bir də oxu... Sonra adlarını çaşbaş salaram.

Mirzə Əliabbas (*teleqramı oxuduqdan sonra*). Biri Nəsrullah bəy Otaylinski, o biri Əhməd bəy Butaylinski...

Kəblə Muxtar. Adları bizim adlardır. Ancaq familiyaları birtəhərdir.

Mirzə Əliabbas. Mənə elə gəlir ki, bunlar ya acardırlar, ya tatar... Bəlkə də bir qolları Asetiya müsəlmanları tərəfə uzanır.

Kəblə Muxtar. Kimdirlərsə mənimçün fərqi yoxdur. Ticarətdə millət yoxdur, pul var. Puldan da yəqin kalandırlar. Birbaşa mənim üstümə teleqram vurublar. Milyoner olmasaydılar bu qələti eləyə bilməzdilər.

Mirzə Əliabbas. Əlbəttə, eləyə bilməzdilər. Pulu olmayan kasıbın Kəblə Muxtar ilə nə işi var? Pul çox yaxşı şeydir, Kəbleyi.

Kəblə Muxtar. Onu sən də başa düşmüsən?

Mirzə Əliabbas. Onu dünyada yalnız mən bilirəm, Arximed istinad nöqtəsi axtarır ki, dünyanı çevirsin. İstinad nöqtəsi puldur. Ver mənə, bütün kainatı baş-ayaq eləyim.

Kəblə Muxtar. Sən yalnız dünyanın şərab dükanlarını baş-ayaq eləyə bilərsən.

Mirzə Əliabbas. Şərab haqqında hörmətsiz danışmayın. Dünya nədir? Əzəmətli bir şərab çəlləyi.

Əlibaba içəri girir.

Kəblə Muxtar. Haradasan, a bivec?..

Əlibaba. Əleykəssalam. Kəbleyi, müsəlman müsəlmana əvvəlcə salam verər.

Kəblə Muxtar. Sənin kimi müsəlmanın başına kül olsun.

Əlibaba. Mirzə Əliabbas, necəsən, əziz canın üçün səni bu atamdan çox istəyirəm.

Mirzə Əliabbas. Ürəkdən ürəyə yol var!

Kəblə Muxtar. Tfu sənə, sözümə cavab da vermir. Səndən soruşuram, haradasan?

Əlibaba. Qədeş, bilirsən ki, klubdayam.

Kəblə Muxtar. Ay səni klubda basdırım.



Əlibaba. Qədeş, yaxşı dedin. Lap ölüb, qalmalı yerdir.

Kəblə Muxtar. Ha, ha, ha... A köpək oğlu, söz üçün cibinə girmirsən ha!

Əlibaba. Mal yiyəsinə oxşamasa haramdır.

Kəblə Muxtar. Gəl, gəl gedək qonaqları qarşılamağa. Allah mənə sənin kimi oğul verincə bir qatır versəydi, daha mərifətli olardı. Düz deyirəm, Mirzə Əliabbas?

Mirzə Əliabbas. Necə diliniz gəlir, a Kəbleyi?

Əlibaba. İstədiyindən elə deyir. Bura bax, Mirzə Əliabbas, üzünü o yana çevir, qədeşə bir kəlmə söz deyəcəyəm.

Kəblə Muxtar. Yenə nə kələyin var, ay haramzadə?!

Əlibaba. Bəri gəl! (*Onu bir tərəfə çəkir*) Bura bax, saqqal, bir az pul burax.

Kəblə Muxtar. Rədd ol buradan, mən də deyirəm bəxtəvər olmuşam, oğlum ağıllı bir söz deyəcək.

Əlibaba. Puldan ağıllı bir söz mənim fikrimə gəlmir.

Kəblə Muxtar. O avara dayına oxşadığın gün dağılaydı. Caladım qanımı it qanına.

Əlibaba. A, a... Məməyə deyəcəyəm. Sən onu itə oxşadırsan.

Kəblə Muxtar. Sus, ata ilə oğul arasında min söz olar. Gedib orada-burada danışmazlar.

Əlibaba. Neyləyim ey... Bir qəpik pul istəyən kimi cibini yumub, ağzını açırsan.

Kəblə Muxtar. Pul sabah... Bu gün bir qəpik də olmaz. Axşam bacının nişan məclisidir. Sən gərək evdə olasan. Bildin? Di gəl, gedək, körpüyə.

Əlibaba. Yeri, gəlirəm. (*Kəblə Muxtar gedir*) Sən öl, bu cür yapışqan kişi görməmişəm.

Mirzə Əliabbas. Valideyniniz haqqında bu cür danışmağınız yaxşı deyil.

Əlibaba. Neyləyim, ay Mirzə Əliabbas, bu qədər yaşamaq olar ki, o yaşayır? Mən nə qədər gözləyim ki, əlim dövlətə çatsın?!

Mirzə Əliabbas. Bu dünyada daimi heç bir şey yoxdur.

Əlibaba. Tamamilə haqlısan, bu dünyada daimi heç bir şey yoxdur. Dünən gecə sən birdən-birə ömrünü bizə bağışladın.

Mirzə Əliabbas. Necə, yuxuda görmüsən ki, mən ölmüşəm?

Ə l i b a b a. Yuxuda yox, həqiqətdə sən öldün.

M i r z ə Ə l i a b b a s. Bu sözlərin fəlsəfi mənasını başa düşmürəm.

Ə l i b a b a. Bu gün başa düşərsən, canım üçün, Mirzə Əliabbas, səni qucaqlamaq, hönkür-hönkür ağlamaq istəyirəm. Səndən necə ayrılacağam, bilmirəm, xəcalətimdən muncuq-muncuq tər tökürəm.

Əliabbası qucaqlayır. İ m a m q u l u içəri girir.

İ m a m q u l u. Neyləyirsən?

Ə l i b a b a. Bu cür qızıl kimi bir şəxsdən ayrılıram.

İ m a m q u l u. A kişi, bir fırlan görüm.

M i r z ə Ə l i a b b a s. Neyləyim?

İ m a m q u l u. Bundan sonra bir sözü məndən iki dəfə soruşma, fırlan!

Əliabbas bir dəfə yerində dönür.

Ə l i b a b a. Quş kimidir, maşallah...

İ m a m q u l u. Ağırdır, bir az arıqlasa yaxşıdır. Adam öldürmək bacarırsan?

M i r z ə Ə l i a b b a s. Yox, ömrümdə heç kəsi öldürməmişəm.

İ m a m q u l u. Bu lap keydir ki. Eybi yoxdur, öyrədərəm. (*Əlibabaya*) Çox təcrübəsizdir.

Ə l i b a b a. Yaxşı xətti var...

İ m a m q u l u. Nəyimə lazımdır, dəftərxana açmıram ki? (*Əliabbasa*) A kişi, düş qabağıma, bir yeri, baxım.

M i r z ə Ə l i a b b a s. Mən heç nə başa düşmürəm.

Ə l i b a b a. Neyləyim, başa salmağa vaxt qalmadı, tələsik oldu.

İ m a m q u l u. Hə, yeri görək. Ayağını iri-iri at, əlini belinə qoy.

Çıxırlar. J a n d a r m kapitanı ilə c a s u s içəri girirlər.

K a p i t a n. On üç nömrəli.

C a s u s. Bəli, cənab kapitan!

K a p i t a n. Bu gün burda rristavda şübhəli adamlar görmüşəm. Onlar deyəsən, Həştərxandan gələn gəmini qarşılayırlar. Demək, bu gəmi ilə kim isə gəlir.

C a s u s. Doğru buyurursunuz, cənab kapitan, gəmi boş gəlməyəcək ki?

K a p i t a n. Bu gələn adam bizi çox maraqlandırır, on üç nömrəli!



C a s u s. Gözümdən qaçmaz, cənab kapitan, məni ki, tanıyırsınız, sərçəni dimdiyindən vururam.

K a p i t a n. Bu sərçəni vurmaq yox, tutmaq lazımdır.

C a s u s. Bir suala icazə verin.

R o z a səhnədən keçib gedir.

K a p i t a n. Dayan, diqqətlə bax, bu qızı gördünmü?

C a s u s. Gördüm, cənab kapitan, bu mələyi kim isə hürküdüb, salıb Bakının cəhənnəminə.

K a p i t a n. Bu nə söhbətdir eləyirsən? Farağat, iki addım qabağa, gözlərinlə məni ye!

C a s u s. Yeyirəm, cənab kapitan!

K a p i t a n. Sən əlahəzrət padşahın xidmətində dayanmış bir qarışqasan. Səndə heç bir insani hiss olmamalıdır.

C a s u s. Onsuz da yoxdur, cənab kapitan.

K a p i t a n. O bizimçün qadın deyil, obyektdir. Yanında bir oğlan da var, bura ikisi bir yerdə gəliblər. Onları gözdən qoyma, gör kimi qarşılayırlar, kiminlə danışırlar, nə barədə danışırlar? Qızın əlindəki çantadan gözüm su içmir. Çalış o çanta ilə yaxından tanış ol, gör içində nə var. Hamısını öyrənib mənə xəbər ver.

C a s u s. Baş üstə, cənab kapitan!

K a p i t a n. İndi sualını ver!

C a s u s. Lazım olsanız, sizi haradan tapım?

K a p i t a n. Cəhənnəmin dibindən.

C a s u s. Birbaş ora gedirsiniz?

K a p i t a n. Mənimlə zarafat eləyirsən, haramzadə? Farağat, iki addım qabağa. Sən nəsən?

C a s u s. Qarışqayam, cənab kapitan!

K a p i t a n. Qarışqa lal olmalıdır. Biz danışmırıq, danışdırırıq, gülmürük, güldürürük. Diqqətlə qulaq as, heyvan, insan ol, çaşdırma! Mən saat yeddiyə kimi idarədə olacağam. Yeddidən sonra Parapetin yanındakı mehmanxanada...

C a s u s. Başa düşürəm, cənab kapitan.

K a p i t a n. Qaş-gözünü mənasız-mənasız oynatma. Bu gün cənab general-qubernator preferans buyuracaqlar, qapısında növbə çəkməliyəm. Məni orada tapa bilərsən. Əgər orda yoxamsa, bilirsən haradayam?

C a s u s. Xeyr, sizin olduğunuz yer böyük dövlət sirridir, heç kəs bilməməlidir.

K a p i t a n. Sənə demək olar. Orada tapılmasam, Kəblə Muxtargildə olacağam. Bu gün onun qızına mənim dostum nişan gətirir. Get, tapşırığa əməl elə. Dayan! (*Yavaşdan, qulağına*) Bizi bir yerdə gördülər, şübhələnə bilərlər. Ehtiyatlı gəlmisən?

C a s u s. Bığ, saqqal, yapışqan yanımdadır.

K a p i t a n. Çəkil bir tərəfə, sifətini, yerişini dəyiş. İkimiz də gözdən itirik.

Gedirlər. R o z a çıxıb, səhnə arxasına işarə eləyir. X o s r o v ilə Ə y y u b əmi gəlirlər.

R o z a. Jandarma kapitanı buralarda hərlənir, bir nəfərlə pıçıldaşırdı, deyəsən məni nişan verirdi.

Ə y y u b ə m i. O adamı yaxşı-yaxşı görə bildin?

R o z a. Ötəri. Daz kişidir, bığ-saqqalı da yoxdur.

X o s r o v. Burnu toxumluq xiyar boyda?

R o z a. Bilmirəm. Mən kişilərin burnuna baxmıram.

Ə y y u b ə m i. Sən dediyin adamı mən tanıyıram. Molla əmi şəklini də çəkmişdi. Yox, onu bura göndərməzlər, hamı tanıyır.

R o z a. Ağac kimi dayanmışdı, elə bil oxlov udmuşdu.

X o s r o v. Yəqin təzə adamdır.

Ə y y u b ə m i. Ehtiyatlı olun, quyruğunuz var.

X o s r o v. Bizim quyruqsuz vaxtımız olur ki?.. (*Rozaya*) Yanındadır?

R o z a. Budur, çantada.

X o s r o v. Birdən bir bəhanə ilə bizi axtara bilərlər. Əyyub əmi, bir əmanətimiz var, onu qoyun cibinizə, sonra alarıq.

Ə y y u b ə m i. Belə getsə mənə də quyruq yapışdıracaqsınız. Verin bəri. (*Rozadan kağızları alıb gizlədir*) O kağızlardandır, qızım?

R o z a. Hansılardan?

Ə y y u b ə m i. Divarlara yapışdırdığınızdan?

X o s r o v. Çox elə dərinlərə getmə, Əyyub əmi, əmanətdir, ələ keçməsin.

Ə y y u b ə m i. Qorxmayın, keçməz.

X o s r o v. Hə, indi hərəmiz bir tərəfə.

Ə y y u b ə m i. Durun, bir xəbər eşitmişəm, indicə Kəblə Muxtarın hesabdarı dedi ki, bu axşam nişandır.



R o z a. Alagözün?

Ə y y u b ə m i. Alagözdür, Qaragözdür, xəbərim yoxdur. Kəblə Muxtarın qızına bu gün nişan gətirirlər.

R o z a. Xosrov, iş daha da çətinləşdi.

X o s r o v. Pərviz gəlib çıxsın, tədbir tökərik.

C a s u s içəri girir. Onun bığı və pariki var, yerişini dəyişmişdir.

C a s u s (*Rozanın üstünə qaçır*). Xanım, Həştərxan gəmisi gəlib?

X o s r o v (*qabağını saxlayır*). Ey, adını bilmədiyim cənab, məndən niyə soruşmursan, birbaş qadının üstünə cumursan?

C a s u s. Qadını yemədim ki! (*Rozaya*) Xanım, bu vəhşiyə sübut eləyin ki, siz mədəni bir Avropa qadınısınız.

X o s r o v. Səhər-səhər işə düşmədik.

R o z a. Cənab, biz də bu saat bu əmidən onu soruşurduq. (*Əyyub əmini göstərir*) Deyir ki, hələ gəlməyib.

Ə y y u b ə m i. Ancaq əli qulağındadır. Elə bu saat fitini çalacaq.

Gəminin fiti eşidilir.

R o z a. Gördünüz?

C a s u s. Sizin nə gözəl səsiniz var, xanım, oxumursunuz ki?

X o s r o v. Cavabını aldın, əkil, yoxsa vəhşilərin səbri olmur.

R o z a (*Xosrova*). Bircə dava salmağın qalıb.

C a s u s. Yaxşı, yaxşı, qazlı cayıl olma... (*Rozaya*) Sağ olun.

R o z a. Şübhəli adamdır.

X o s r o v. Mənə də şübhəli gəldi. Tatar cəncəli salmaq istəyirdim, qoymadın.

Ə y y u b ə m i. Yeri deyildi. Hə, uşaqlar, vəziyyət lap dəyişdi. İndi daha sizin Pərvizə yaxınlaşmağınız qorxuludur. Onu mən aradan çıxardaram. Siz qoşulun camaata, gələnlərə tamaşa eləyin.

Gedir.

R o z a (*Xosrova*). Gedək də.

X o s r o v (*pıçıltı ilə*). O tip bizi güdür.

R o z a. Gəl, özünü elə göstər, guya görməmisən.

Gedirlər. Körpüdə haray qalxır. N ə s r u l l a h b ə y, Ə h m ə d b ə y, K ə b l ə M u x t a r, Ə l i a b b a s, Ə l i b a b a, İ m a m q u l u və R ə c ə b səhnəyə gəlirlər. Rəcəbin iki əlində çamadan var.

N ə s r u l l a h b ə y (*ətrafı diqqətlə gözdən keçirir, nifrətlə*). Əhməd bəy, mən bu şəhərdə bir gündən artıq qala bilmərəm.

Əhməd bəy. Düz buyursunuz, dünyanın o gözəl şəhərlərindən sonra bu cür kənddə yaşamaq sizinçün ağır olacaq.

Nəsrullah bəy. Bu nədir? Hanı ağaclar, meşələr, şəlalələr, gül, çiçək, fəvvarə?

Kəblə Muxtar. Onlar hamısı Mərdəkandadır.

Nəsrullah bəy. Xub, gedək Mərdəkana!

Əhməd bəy (*yavaşdan*). Xubun yeri deyil.

Nəsrullah bəy. Ol rayt. Kəbleyi, əgər Mərdəkan buradan böyük şəhərdirsə, ora gedək.

Kəblə Muxtar. Xeyr, şəhər deyil, kənddir.

Nəsrullah bəy. Əhməd bəy, bunlar necə məxluqdur? Mənim kənddə nə işim var? Sən mənə geniş fəzalar ver, mən uçmaq istəyirəm.

Əhməd bəy (*ətrafdakılara*). Nəsrullah bəyin xüsusi aeroplanı var.

Məşədi. Avtomobili də var?

Əhməd bəy. İyirmi beş dənə.

Nəsrullah bəy. Bu sualı verən kimdir? (*Məşədiyə*) Gəl, oğlum, yaxın gəl, necəsən, debitin-kreditin necədir?

Məşədi (*özünü itirir, Hacıya*). Necə deyim?

Hacı. Əla.

Məşədi. Əladır, çox əladır.

Nəsrullah bəy. Neçə bankın var?

Məşədi. Bankım yoxdur, bunlarınkı da yoxdur.

Kəblə Muxtar. Özündən danış, bizimlə işin olmasın.

Mirzə Əliabbas. Bunlar tacirdirlər, bankir deyillər.

Nəsrullah bəy. Aha, siz necəsiniz? Adınız İsgəndər deyil ki?

Mirzə Əliabbas. Xeyr, Mirzə Əlabbasdır...

Nəsrullah bəy. Ən çox hansından istemal eləyirsiniz?

Mirzə Əliabbas. Sualınızın fəlsəfi mənasını başa düşmədim.

Nəsrullah bəy. Əhməd bəy, dünyada nə avam insanlar varmış. Sən onu başa sal.

Əhməd bəy. Nəsrullah bəy demək istəyir ki, hansı şərabı, hansı markanı daha çox sevirsiniz, şampan, bordo, likyor, benediktin...

Əlibaba. O ən çox naxünək markasını sevir.

Nəsrullah bəy (*gülür*). Ol rayt, ol rayt. (Əlibabaya) Siz də tacirsiniz?

Kəblə Muxtar. Qulbeçənizdir.



Nəsrullah bəy. Maşallah, mister Kəblə Muxtar, oğlunuza söz ola bilməz, əli çörəyə çatıb?

İmamqulu. Xeyr, əli gətirmir.

Nəsrullah bəy. Bu tapançalı igid kimdir?

Kəblə Muxtar. İmamquludur, bizim məhəllənin qoçusudur.

Nəsrullah bəy. Mister Kəblə Muxtar!

Kəblə Muxtar (*öz-özünə*). Ə, bu mənə mastır niyə deyir?

Nəsrullah bəy. Qazancınız nə qədərdir?

Kəblə Muxtar. İllik qazancım yüz mini keçib.

Nəsrullah bəy. Nə qədər? Yüz min? Əhməd bəy, biz hara gəlib çıxmışıq? Bunlar lap dilənçidirlər.

İmamqulu. Nə dedi?

Kəblə Muxtar. Bizi dilənçiyə oxşatdı?

Əhməd bəy (*yavaşdan*). Şit eləmə də.

Nəsrullah bəy. Əhməd bəy, bunlar söz başa düşmürlər. İzah elə...

Əhməd bəy. Nəsrullah bəy demək istəyir ki, hanı bəs, qabağımıza dilənçi-zad çıxmır, pul paylamaq istəyir. O, dilənçiləri bilirsiniz nə qədər sevir?

Mirzə Əliabbas. Aman Allah, nə böyük sima, nə qüdrətli insan!

Kəblə Muxtar. Özgə vaxtda dilənçi əlindən buralarda ayaq atmaq olmur, bu gün bilmirəm niyə yoxa çıxıblar?

Nəsrullah bəy. Əhməd bəy, məni bu qədər ayaq üstə saxlamayın.

Əhməd bəy. Kəbleyi, sizlərdə qonağı küçədə qarşılayırlar?

Kəblə Muxtar. Xeyr, evdə, öz evimizdə. Buyurun, faytonlar gözləyir.

Əhməd bəy. Xeyr, xeyr, biz evə düşməyə adət eləməmişik.

Nəsrullah bəy. Bizi ən yaxşı, ən bahalı mehmanxanaya aparın.

Əlibaba. "Astoriya" hamısından yaxşıdır.

Kəblə Muxtar. Düzdür, sizə layiq deyil, ancaq yenə hamısından mərifətlisi "Astoriya"dır. (*Rəcəbə*) Adə, get, düz "Astoriya"ya.

Rəcəb. "Astoriya" hansıdır, ağa, ləzgi karvansarası?

Kəblə Muxtar. Tfu sənə, nanəcib oğlu, nanəcib.

Hacı. Bir hambal tuta bilmirdiniz?

Məşədi. Hamballar bütün mehmanxanaları tanıyırlar.

Mirzə Əliabbas. Bir ali təhsilli hambalımız da yoxdur.

Əlibaba. Bolşoy Morskoyun tinində mehmanxana var, ey, oranı deyirlər.

Rəcəb. Tanıdım, ağa, tanıdım. Bu saat apararam.

Əhməd bəy (*Rəcəbi çağırır*). Oğlan, bura gəl, sənə pul verim.

Kəblə Muxtar. Pul lazım deyil, öz itimizdir.

Əhməd bəy. Eybi yoxdur. Kasıb adamdır, pul həmişə lazım olan şeydir.

Rəcəbə bir qızıl verir.

Rəcəb. Ağa, o boyda pula məndə xırda haradandır?

Əhməd bəy. Bu özü xırdadır, qoy cibinə.

Nəsrullah bəy. O azdır, Əhməd bəy, bir qızıl azdır. Oğlan, gəl bura, iki qızıl da mən verim. (*Rəcəbə iki qızıl verir*) O sağ əlindəki çamadandan ehtiyatlı ol, oğlan, daşa-zada dəyməsin, ingilis padşahının əmisi oğlunun yadigarıdır.

Kəblə Muxtar. Arxayın olun, Rəcəb sınanmış nökərdir.

İmamqulu. Arxayın olun, cənablar, nə qədər ki, mən varam, bu şəhərdə sizin başınızdan bir tük də əskik olmaz.

Kəblə Muxtar. Faytonlar hazırdır, buyura bilərsiniz.

Gedirlər. İşıqlar sönür.

## DÖRDÜNCÜ ŞƏKİL

Mehmanxanada ikiotaqlı bir nömrə. Kəblə Muxtar, İmamqulu, Mirzə Əliabbas, Əlibaba, Nəsrullah bəy və Əhməd bəy buradadırlar. Hamı sükut içərisindədir. Nəsrullah bəy ətrafa diqqətlə baxır.

Nəsrullah bəy (*Əhməd bəyə müraciətlə*). Mən danışmaq istəyirəm.

Əhməd bəy. Cənablar, Nəsrullah bəy danışmaq istəyir. Sükut!

Nəsrullah bəy. Əgər məqsədim müqəddəs ticarət olmasaydı, əgər öz millətimə kömək eləmək arzusuyla ürəyim çırpınmasaydı, bu şəhərə qədəm basmaq mənə müyəssər olmayacaqdı.

Əhməd bəy. Nəsrullah bəy bərk millətpərəstdir.



Nəsrullah bəy. Bəşəriyyətin gələcəyi tacirlərin əlindədir. Ticarət hər şeyin əsasıdır. Dünyada hər tacir üçün yer var, ancaq hər tacir də öz yerini bilməlidir.

Kəblə Muxtar. Qızıl ilə yazılmalı sözlərdir.

Nəsrullah bəy. Al-ver deyirlər, al-vermə, ya da ki, alma-ver demirlər. Sən pullarını gətir ver mənə, birini beş eləyim, bir şərtlə ki, sözümüz söz, əhdimiz, əhd olsun. Tacir poladdan möhkəm olmalıdır. Ticarət sirri ər-arvad sirrindən möhkəm saxlanmalıdır. Hə, içərinizdə bu cür düşünməyən, mənim əleyhimə olan adam varsa, gəlsin qabağa, ona üç sual verim, üçü də bir-birindən dərin.

Kəblə Muxtar. Yoxdur, elə adam yoxdur.

Mirzə Əliabbas. Nə zəhmli adamdır!

Əlibaba. Mən qorxudan tir-tir əsirəm.

İmamqulu. Qorxmayın, əlim tapançadadır.

Nəsrullah bəy. Bir gün bir tacir bütün dünyanın dövlətinə, malına sahib olandan sonra deyib: gərək Allah ilə danışım, görüm, bu dünyanın axır qiyməti neçəyədir? Çıxıb Turi-sina dağına, ordan çığırıb ki, "Ya rəbb, ticarətə gəlmişəm, ancaq qarasına alver eləmək adətim deyil, camalını göstər mənə, sövdamızı eləyək". Allah cavab verib ki, ya tacir, sən mənim sifətimi görəndə davam gətirə bilməzsən, bu dağa bax, mən də bu dağa nəzər edərəm. Xudavəndi-aləm bir dəfə dağa gözucu baxıb, dağ dərhal iki parça olub, bir parçası düşüb Asiyanın ortasına, o biri parçası sıçrayıb düşüb Avropanın ortasına. Tacirin dövləti isə dağılıb iki dağın arasına, səpələnib daşın, torpağın içinə. İndi o vaxtdan bəri Asiya ilə Avropanın arasında əlini hara atırsansa puldur. Sizin şəhəriniz də bu iki dağın arasındadır.

Kəblə Muxtar. Nə qəribə işdir! O pulların yerini dürüst haradan bilək?

Nəsrullah bəy. Mən göstərərəm, ey Allahın quzu bəndələri!

İmamqulu. Bizə də göstərin.

Əlibaba. Bir azca yığa bilsəm, bəsimdir...

Nəsrullah bəy. Kəblə Muxtar, sənin oğlun da pulsuzluqdan şikayət eləyir?

Kəblə Muxtar. Nəsrullah bəy, ağrın ürəyimə, oğul cəhətdən mən heç yarımamışam.

Nəsrullah bəy (*qorxmuş*). Necə məgər? Yoxsa o da bəzi nadürüst ziyalılar kimi ağzına gələni danışır?

Kəblə Muxtar. Xeyr, bəy, o cəhətdən arxayınam. Danışan deyil. Ancaq bir nöqsanı var ki, qumara aludədir.

Əhməd bəy. Ol rayt, ol rayt.

Nəsrullah bəy. Qumar gözəl şeydir. Pul qazanmağın min bir üsulu var. Üç yüz otuz üçüncüsü qumardır. Fəqət gərək yədi beyzan olsun. (*Əlibabaya*) Yaxın gəl, başını sığallayım. Oyna, amma uduzma, çalış həmişə ud! Dünya bir qumarxanadır, Kəblə Muxtar, biz hamımız oyunçuyuq. Kimin əli gətirsə, o, cəmiyyətin yuxarı pilləsində dayanır, əli gətirməyən düşür ayaqlar altına.

Mirzə Əliabbas. Mənim kimi.

Nəsrullah bəy. Ticarət bir dəyənəkdir. Bu dəyənəyin bir başında dövlət yazılıb, o biri başında zillət. Zillət ucu birisinin başına dəydimi, göz açıb-yumunca müflis olur. Qorxun o dəyənəkdən, Kəblə Muxtar, o dəyənək bu saat mənim əlimdədir, sizi bir dəqiqədə zəngin də eləyə bilərəm, zəlil də.

Kəblə Muxtar. Allah, sən saxla!

Nəsrullah bəy. Bəs necə? Mən ticarət dünyasının Məmmədəli şahıyam, Allah onun taxt-tacını özünə qaytarsın. Mən ticarət dünyasının Soltan Əbdülhəmidiyəm, Allah onu yenə köhnə izzət-cəlalına qaytarsın, dörd yüz arvadı var, yazıqdır.

Əhməd bəy. Bəy dadaş, bəlkə bir azca...

Nəsrullah bəy (*onun sözünü kəsir*). Dayan, Əhməd bəy, haradadır, vəzir-vəkillər, haradadır Zəki paşa, İzzət paşa, İsmayıl paşa, Kənan paşa... gəlib dayansınlar dövrəmdə, mən hücuma keçmək istəyirəm.

İmamqulu. Hücumda mənim də əlim var, bir yerdə keçək.

Nəsrullah bəy. Bu nə deyir, Əhməd bəy, soruş gör, mayası nə qədərdir?

Kəblə Muxtar. Onun mayası yoxdur, böyründəki tapança ilə nə qədər istəsəniz qazana bilir.

İmamqulu. Adamların başını fındıq kimi sındırıram.

Nəsrullah bəy. Əcəb eləyirsən. Dünyada sındırılmalı baş çoxdur. Ancaq oğlum, İmamqulu bala, pul tapançadan da güclüdür. Mənim bilirsən nə qədər pulum var?

Əhməd bəy. Nəsrullah bəy, fikir sizi yordu, bəlkə bir az istirahət eləyəsiniz...

Nəsrullah bəy. Nə danışırsan, yorulmaq nədir, istirahət nədir, əgər dincəlmək istəsəydim, İsveçrənin, Fransanın yaylaqları



buradan daha yaxşıdır, orada dincələrdim. Mən bura pul ilə oynamağa gəlmişəm. Təkcə Fitilbörkün bankında bilirsiniz nə qədər ingilis pulum var?

İmamqulu. Bilmirik, bəy dadaş.

Kəblə Muxtar. Haradan bilə bilərik? Deyin.

Hamı diqqətlə qulaq asır.

Əhməd bəy. Nəsrullah bəy, çox xahiş edirik ki...

Nəsrullah bəy (*onun sözünü kəsir*). Sən də xahiş eləyirsən, dostum? Yox, deyə bilməyəcəyəm. Çünki sirdir. Yalnız onu deyə bilərəm ki, bircə çeklə mən sizin hamınızı, Əhməd bəy qarışıq, əmlakınızla, ev-eşiyinizlə, ailənizlə, ürəyiniz, ciyəriniz, bağırsaqlarınızla bir yerdə satın alaram. Bir gün ingilis padşahı məni çağırıb dedi: mister Nəsrullah!

Qapı taybatay açılır, Rəşid Məğrur əlində qəzet, içəri atılır.

Rəşid Məğrur. Hanı onlar, Kəbleyi, hanı dünyanın iki böyük insanı?

Kəblə Muxtar (*öz-özünə*). Bu gic haradan gəldi?

Rəşid Məğrur (*yaxınlaşıb, Əhməd bəyin əlini tutub buraxmır*). Mən sizi elə bu cür təsəvvür eləyirdim. Üzünüzdə dövlət nuru parıldayır. Adınız ən adi müsəlman adıdır, Nəsrullah, amma özünüz dahisiniz, sifətinizdən görünür.

Əhməd bəy. Mənim adım Əhməd bəydir.

Əlini dartıb onun əlindən çıxardır.

Əlibaba. Dayı, ünvanı çaşdırmısan, Nəsrullah bəy bu birisidir.

Rəşid Məğrur. Budur? (*Nəsrullah bəyin əlindən yapışır*) Mənim adım Rəşid Məğrurdur. Əssalam, ey ruzigarın-şəsüvari səfdəri!

Nəsrullah bəy. Əleykəssalam. Əlimi burax, özümə lazımdır. (*Əlini çəkir*) Necəsiniz, həkimlərin müalicəsi kömək eləyirmi?

Rəşid Məğrur. Allah vurmuşdu həkimləri, hamısına nifrət elan eləyib, indi "Məhəbbət" adlı qəzet çıxardıram.

Nəsrullah bəy. Kəblə Muxtar, bu şəxs kimdir, nəkarədir?

Kəblə Muxtar. Mənim qayınımdır. Yazıq şairdir.

Rəşid Məğrur. Kəbleyi, sus, xamuş, dünya ədəbiyyatına ləkə salırsan, şair yazıq ola bilməz. Deməli hər ikinizlə tanış oldum. (*Nəsrullah bəyə*) Siz şahsınız, Əhməd bəy də sizin şahzadəniz. Sizin təşrifiniz münasibətilə şeir demişəm, qulaq asın:

Şəhrimizə varid olub, şah və şahzadə,
Hər ikisinin ismi böyük əxlaqi-sadə,
Nəsrullah bəy Otaylinski, Əhməd bəy Butaylinski.
Dalı gəlmir, çünki qafiyə tapmıram!

Nəsrullah bəy. Qafiyə qıtlığı çəkirsiniz?

Rəşid Məğrur. Qətiyyən yox. Qafiyə itinə tök. Fəqət sizə layiq olanını tapa bilmirəm. Mənim qəzetimi oxumusunuz?

Kəblə Muxtar yanındakılara işarə edir ki, Rəşid Məğruru kənara çəksinlər.

Əlibaba. Dayı, ağaları yorma!

Mirzə Əliabbas. Nəsrullah bəy elə indicə yanını yerə qoyub...

İmamqulu. Qəzeti bekar adam oxuyar, bunların işləri çoxdur.

Rəşid Məğrur. Çəkilin bir tərəfə, həşəratlar! Bəs bilməsinlər ki, mən onların haqqında qəzetimdə nə yazmışam?

Əhməd bəy (*qorxmuş*). Bizim haqqımızda?

Rəşid Məğrur. Bəli, şahzadəm. Mənim qəzetim mizantərəzidir. Dünyada nə qədər hadisə varsa, orada öz əksini tapır. Düşmənlərə nifrət, dostlara məhəbbət. Dinləyin, nə yazmışam. Xronika: Bu gün ticarət dünyasının iki nəhəngi, müsəlmanların fəxri, milyoner Nəsrullah bəylə milyoner Əhməd bəy Həştərxan gəmisi vasitəsilə şəhərimizə daxil oldular. Təfsilatı gələn nömrəmizdə.

Nəsrullah bəy. Gələn nömrəniz nə vaxt çıxır?

Rəşid Məğrur. Sabah. Qəzetimin dörd səhifəsi var, dördünü də həsr eləyirəm sizə. Bu saat fotoqraf göndərəcəyəm, şəklinizi çəkəcək.

Əhməd bəy. Lazım deyil, biz şəkil çəkdirmirik.

Rəşid Məğrur. Niyə qorxursunuz?

Nəsrullah bəy. Nə üçün çəkdirmirik, Əhməd bəy, ingilis, firəng qəzetlərində bizim şəklimiz az çıxıb? (*Rəşid Məğrura*) Qəzetin vur-tut dördcə səhifədir?

Rəşid Məğrur. Bəli, Bakıda bütün qəzetlər dörd səhifə çıxır.

Nəsrullah bəy. Neçə nüsxə çap olunur?

Rəşid Məğrur. Beş yüz nüsxə.

Nəsrullah bəy. Çox kasıb şairsən, Rəşid Məğrur bəy, görürəm, təkcə qafiyədən yox, puldan da korluq çəkirsən. Sənin qəzetin gərək əlli səhifə olsun. Nüsxəsi də yarım milyon.



Rəşid Məğrur. Nə danışırsınız, o qədər qəzeti kim oxuyacaq?

Nəsrullah bəy. Bütün Şərq, Qərb, Şimal, Cənub. Sənin qəzetin dünyanın ən böyük, ən məşhur qəzeti olmalıdır. Mənə bax, qulağını bəri gətir. Hələlik əlli min versəm çatar?

Rəşid Məğrur. Aman Allah... Əlli min... başım fırlanır, gözlərim qaralır!

İmamqulu. Adə, tut onun qolundan, təpəsi üstə dəyər yerə.

Əlibaba. Dayı, özünə gəl, dayı!

Mirzə Əliabbas. Nə böyük insan, nə geniş ürək!

Kəblə Muxtar. Çox qəribədir, çox qəribədir. Pulunu Bilgəh qumu kimi ora-bura səpələyir.

Nəsrullah bəy. Susun, görməmişlər! Pul adı çəkilən kimi özünüzdən getməyin. Məgər bilmirsinizmi ki, bu qəzetdən ayda on nömrə çıxsa, beş milyon nüsxə eləyir? Ölüsü on qəpikdən satsaq xərci-xəsarəti çıxandan sonra görün ayda neçə milyon qazanc olur. Pul qoy, pul götür, buna deyirlər, Kəblə Muxtar. Ticarətin təzə üsulu bu cürdür. Altı aydan sonra Rotşild, Nobel, bu lüt şairin qabağında əlibağlı dayanmasalar bu bığları qırxdıraram, ingilislər kimi təkcə saqqal ilə gəzərəm. Ol rayt, Finkelşteyn... Rəşid Məğrur bəy, tez altmış nəfər işçi tutmalısan. Otuzu şair, otuzu yaxşı yazmağı bacaran. Taparsan?

Rəşid Məğrur. Şair nə qədər istəsəniz var, yaxşı yazmağı bacaran tapmaq bir az çətindir.

Nəsrullah bəy. Pul olandan sonra hamı yaxşı yazacaq. Beş gün vaxt verirəm. Əlli səhifəlik qəzet çıxardarsan...

Rəşid Məğrur. Beş gün azdır, çatdırmaram, bir az da möhlət verin.

Nəsrullah bəy. Yaxşı, on gün... Bir gün də artıq istəmə, verməyəcəyəm.

Rəşid Məğrur. Baş üstə. (*Əhməd bəyə*) Avans lazımdır. Mən qorxuram, siz ona deyin ki, avanssız işə başlamaq mümkün deyil.

Əhməd bəy. Ol rayt, Finkelşteyn...

Nəsrullah bəy. Əhməd bəy, sabah tezdən Fitilbörkə tel vur, şairin pulunu göndərsinlər. Hələlik borc eləyib xərcləsin. Şair, qorxma, dalında dağ kimi durmuşam.

Rəşid Məğrur. Tapdım, qafiyənin ardını tapdım:

Ürəkləri geniş, uca, lap dağlar kimi,
Pulları çox, daim axan bulaqlar kimi,
Nəsrullah bəy Otaylinski, Əhməd bəy Butaylinski.

Sizi görüm pul yağışına düşəsiniz, Allah başınızdan aşağı o qədər töksün ki, daldalanmağa yer tapa bilməyəsiniz. İcazə verin, gedim işə başlayım. Rəşid Məğrur, qəzetin yarım milyon tirajla çıxır, başını dik tut, həyat səni gör haralara qaldırmışdır. Qapı haradadır, mənə qapını göstərin!

Əhməd bəy. İmamqulu bəy, Əlibaba bəy, aparın bu bədbəxti, qorxuram ürəyi davam gətirməyə.

İmamqulu ilə Əlibaba Rəşid Məğruru səhnədən çıxardırlar.

Nəsrullah bəy. Əhməd bəy, Mirzə Əliabbasa de, qapını bağlasın, sonra gəlsin yanıma. Ona iki kəlmə sözüm var.

Əhməd bəy. Mirzə Əliabbas!

Mirzə Əliabbas. Eşitdim, bu saat. (*Qapını bağlayıb gəlir*) Buyurun, bəy dadaş!

Nəsrullah bəy. Mirzə Əliabbas, sən hesabdarsan, xəbərdar olarsan, ingilis pulunun Bakı qiyməti neçəyədir?

Əhməd bəy. Funt-sterlinqin...

Mirzə Əliabbas. Doqquz manat səksən qəpik. Bank rəsmi olaraq bu qiymətə dəyişir.

Nəsrullah bəy. Xırda-xuruş xərc-məxaric üçün mənə yüz min Nikolay pulu lazımdır. Gör tacirlərdən kim ingilis pulu almağa müştaqdır. Mən doqquz manat səksən qəpikdən yox, beş manatdan verirəm.

Mirzə Əliabbas. Beş manatdan? Nəsrullah bəy, o qiymətə hamı alar. Papaqlarını satıb alarlar.

Nəsrullah bəy. Papaq satanla mən alış-veriş eləmərəm. Dövlətli adam tap, doxsan səkkiz min manat, duru yerindən qazancı olacaq.

Mirzə Əliabbas. Dövlətli adam – Kəblə Muxtar.

Nəsrullah bəy. Kəblə Muxtar, istəyirsən?

Kəblə Muxtar. İstəyirəm.

Nəsrullah bəy. Yüz min nağd taparsan?

Kəblə Muxtar. Taparam.

Əhməd bəy. Ol rayt...

Nəsrullah bəy. Fitilbörk bankına iyirmi min funtluq çek sənin ovcunda, yüz min manat Nikolay pulu da mənim ovcumda... Razısan?

Mirzə Əliabbas. Kəbleyinin nəinki özü, papağı da razıdır.



Nəsrullah bəy. Dayanın, bir şərikimlə razılaşım. (*Əhməd bəyin qulağına nə isə pıçıldayır*)

Əhməd bəy. Bəy, sən kəsən başa sorğu-sual yoxdur, amma fikirləş, çox ucuz olmadı ki?..

Nəsrullah bəy. Özümüzünküdür, eybi yoxdur. Kəbleyi, elə fikirləşmə ki, Nəsrullah bəy dəli olub, on manatlıq şeyi beş manata satır, xeyr, dəli olmamışam. Dövlətin çoxluğundandır. Əlli min o yana, əlli min bu yana, bizimçün fərqi yoxdur. Əgər ürəyində şübhə varsa, girişmə, sənin kimi fəqirə yüz min də puldur.

Kəblə Muxtar. Nəsrullah bəy, məni niyə utandırırsınız? Mirzə Əliabbas, gücüm çatar, çatmaz?

Mirzə Əliabbas. Kəbleyinin pulunu balta kəsmir.

Nəsrullah bəy. Əlini ver, Kəbleyi, Əhməd bəy, gəl üstünü peçatla. (*Kəblə Muxtarın əlini tutur, Əhməd bəy əlini onların əllərinin üstünə qoyur*) Axşam pulu gətir, çeki apar.

Kəblə Muxtar. Axşam onsuz da bizə buyurmalısınız, qızın nişanıdır. Orada hesablaşarıq. (*Rəcəb yemək gətirir*) Nökər sizə xörək gətirib, meyl eləyəcəksiniz?

Əhməd bəy. Gətirsin, gətirsin.

Nəsrullah bəy. Daha gəlib, qapıdan qaytarmaq olmaz. (*Rəcəbə*) Oğlum, qoy orada bir tərəfə, vaxt tapa bilsək, bir-iki tikə alarıq.

Rəcəb xörəyi bir tərəfə qoyur. Kəblə Muxtar, Əliabbas və Rəcəb gedirlər.

Əhməd bəy. Qapını bağlayıram.

Nəsrullah bəy. Gör tamam getdilər?

Əhməd bəy. Getdilər. O qəzet yazanı yaxşı başdan elədin.

Nəsrullah bəy. Əbləh oğlu əbləh. Bugünkü nömrədə yazıb, ürəyimizə vəlvələ salıb. Hələ gələn nömrədə də yazmaq istəyir. Qərəz bunlar xırda şeylərdir, sən yeməyi gətir.

Əhməd bəy. Yaxşı ki, yemək gətirdilər, yoxsa, axşamkı qonaqlığa qədər ac qalacaqdıq. Cibimizdə bir qara quruş da yoxdur.

Nəsrullah bəy. Sən tez çek hazırla.

Əhməd bəy. Axırda məni işə salacaqsan, ay Nəsrullah, bir də tutulsam, gurup-guppaz gedərəm.

Nəsrullah bəy. Mənim yanımda sənə heç nə olmaz. Bir neçə il bundan qabaq Kərbəlada daş satırdım...

Əhməd bəy (*onun sözünü kəsir*). Nə satırdın?

Nəsrullah bəy. Daş. Çaydan daşları yığıb camaata satırdım ki, guya, bu daşlar özləri öz ayaqları ilə ziyarətə gəliblər. Axund deyirdi, Nəsrullah, üzündə şeytan tükü var, daşdan da pul çıxardırsan. Çeki düzəlt, hazır elə. Həştərxanda bir manata teatrdan aldığımız brilyantı qoy cibinə, axşam Kəbleyinin qızına verərik. İndi isə xörəyi gətir. (*Əhməd bəy xörəyi gətirir*) Pəh, pəh, pəh, gəl, kefimin günortası... Əhməd, çırma qollarını, giriş yeməyə... Bismillahir rəhmanirrəhim.

Yeməyə başlayırlar.

## İKİNCİ PƏRDƏ

### BEŞİNCİ ŞƏKİL

Kəblə Muxtarın evi. Axşama hazırlıq gedir, otaqları yığışdırırlar. Firuzə xanım əli belində ortada hərlənir. Kəblə Muxtar qan-tər içində evə girir.

Firuzə. Bəs tək niyə gəldin, qonaqlar hanı?

Kəblə Muxtar. Gəlmədilər.

Firuzə. Dünyanın o cür dövlətliləri əlinə keçib, evə gətirə bilmədin?

Kəblə Muxtar. O cür adamlar evə düşməzlər, mehmanxanada yaşamağa adət eləyiblər. Rəcəbi göndərdim, restorandan onlar üçün xörək gətirdi.

Firuzə. Londonda, Parisdə yemək yemiş adamlar sənin o qotur restoranının yeməklərini ağızlarına alacaqlar? Ac oturacaqlar, bir yandan da söyəcəklər ki, Kəblə Muxtar nə itdir ki, onun qonaqlığı nə ola?

Kəblə Muxtar. Ey, ey, arvad, danışanda bir az qabiliyyətli danış.

Firuzə. Mənə qabiliyyət öyrətmə, çəkil bir tərəfə, qulluqçular döşək düzəcəklər. (*Qulluqçuya*) Ağız, o cür döşək salarlar? Korsan, a dilənçinin qızı? (*Ərinə*) Qonaqlar qurdların caynaqlarına keçsin, sən də bax.

Kəblə Muxtar. Qurd hardandır, ay Firuzə, onlar Nardarana getməyiblər ki? "Astoriya"ya düşüblər ey!

Firuzə. O qurddan demirəm, Bakının milyonçu canavarlarını deyirəm. Onların əllərinə keçsələr, sən üzlərini də görə bilməzsən.



O qədər qazanc da barmaqlarının arasından süzülüb tökülər onunbunun cibinə. Kül sənin tacir başına.

Kəblə Muxtar. Qulluqçulardan ayıbdır, Firuzə, heç olmasa saqqalıma hörmət elə.

Firuzə. Sənin saqqalın, ya da ki, o qulluqçunun əlindəki süpürgə, mənimçün fərqi yoxdur.

Kəblə Muxtar. Daha lap ağ elədin ha!..

Firuzə. Tutaq ki, lap ağ eləmişəm, neyləyəcəksən? Hünərin var, yaxın gəl, əl qaldır.

Kəblə Muxtar. Mənciyəz qələt eləyərəm.

Firuzə. Hə, özündən iyirmi yaş cavan qız alanda bəs qocalığı fikirləşmirdin? Yumruğunu qaldırarsan, qolunu qopardaram.

Kəblə Muxtar. Heç yumruq yox, barmağımı da qaldırmaram. Mən səni çox istəyirəm, Firuzə!

Firuzə. Yalan danışma! Çox istəməyini nədən bilim? Mənim kimi arvadı sən gərək qızıl, mirvari içində saxlayasan. Özgə arvadların qapılarında dördatlı fayton dayanır. Hamama elə bəzənib gəlirlər ki, parıltıdan adamın gözü qamaşır. Amma mən... Yazıq canım, utandığımdan evdə çimirəm. Bizim bəxtimiz belədir. Anam qoca kişiyə getmişdi, mən sənə qismət oldum, hələ qızımı da qocaya verirəm. Dedilər ağız, naz eləmə, cavana gedən yumruq yeyər, qocaya gedən quyruq... Qurban olum cavanın yumruğuna...

Kəblə Muxtar. Ürəyini sıxma, elə bu gün, siftə bismillah doxsan səkkiz min qazanmışam.

Firuzə. Buruq satmısan?

Kəblə Muxtar. Yox, iyirmi min ingilis pulu almışam, yarıbayarı ucuz satıblar.

Firuzə. Çox ala bilmirdin?

Kəblə Muxtar. Nağd istəyirlər. Heç bilmirəm haradan düzəldəcəyəm? Bəlkə sən öz pulundan bir az verəsən?!

Firuzə. Mənim pulumla işin olmasın, özüm bilərəm neyləyərəm, hara xərcləyərəm. Çəkil bu tərəfə, özünü qulluqçuya sürtmə.

Kəblə Muxtar. Əstəğfürullah... Mən gedə bilərəm? İşim var ey...

Firuzə. Dayan, bilirəm işini sənin! (*Səhnə arxasına tərəf*) Ə, Rəcəb! (*Üz-gözü bağlı, Rəcəb içəri girir*) Gəl bu stulları çıxart buradan.

Rəcəb. Hansı stulları deyirsiniz, xanım?!

Firuzə. Bunları.

Kəblə Muxtar. Sir-sifətinə nə olub, ə?

Rəcəb. Xanım döydü, qonaqların verdiyi qızılları əlimdən aldı, ağa!

Firuzə. Hələ şikayət də eləyirsən, yetim? İtil gözümdən.

Rəcəb stulları götürüb çıxır. Əlibaba içəri girir.

Əlibaba. Məmə!

Firuzə. Ay sənin boyuna qurban olum. Necə də dayısına oxşayır. Gəl bura, məmən səni öpsün.

Əlibaba. Sonra... Axotum yoxdur.

Kəblə Muxtar. Nə var, yenə uduzmuş qumarbazlara oxşayırsan?

Əlibaba. Canım üçün, Kəbleyi, lap pis günə düşmüsən. Əlim heç gətirmir. Mirzə Əliabbas sarıdan da başın sağ olsun.

Firuzə. Öldü?

Əlbaba. Ölsə ondan min qat yaxşıdır.

Firuzə. Qovmusan?

Əlibaba. Qovmamışam, qumarda qoçu İmamquluya uduzmuşam.

Kəblə Muxtar. Bişüur oğlu, bişüur!

Firuzə (*qəhqəhə ilə gülür*). Ha, ha, ha... Adamdan oynayırsınız?

Əlibaba. Neyləyim, ay məmə, səkkizimə doqquz çıxartdı.

Kəblə Muxtar. Axırda mənim özümü də uduzacaqsan. Min dəfə deyirəm, əl çək bu zəhrimardan...

Firuzə. Əşi, cəhənnəmə... yaxamız qurtardı. Kefli oğlu keflinin maaşını verməkdən zara gəlmişdik.

Əlibaba. Maaşını yenə biz verəcəyik, amma İmamquluya qulluq eləyəcək. Bəs mən niyə uduzmuşam ki?

Kəblə Muxtar. Tfu sənə, nankor övlad!

Çıxır.

Əlibaba. Məmə, mənə pul lazımdır.

Firuzə. Sonra gəl verim. Bura bax, atan pristində özgə arvadlarına baxmırdı ki?

Əlibaba. Arvadlara baxmırdı, amma dayımı söyürdü.

Firuzə. Yaxşı, kəkö Məhəmmədin oğlu, mən mən olum, sən də sən. Əlibaba bəyin oğlu Rəşidi pulsuz-parasız görmüsən, üstünə hürürsən?



Əlibaba. Bilirsən nə oldu, məmə? Nəsrullah bəy dayıma əlli min manat pul bağışladı.

Firuzə. Rəşidə əlli min? Ola bilməz!

Əlibaba. Babamın goru haqqı. Dedi: Rəşid Məğrur, elə eləyəcəyəm ki, altı aydan sonra Nobel qapında qarovulçu dayansın.

Firuzə. Bunlar dövlət quşlarıdır. Allah insan sifətində bizə qonaq göndərib. Bircə, Alagözün nişanı qurtarsın, gör onlara nə hörmət eləyəcəyəm.

Əlibaba. Alagöz haradadır, heç gözümə dəymir?!

Firuzə. Sevindiyindən şitlik eləyir, bütün günü gözünün yaşını tökür. Düzdür, qız ərə gedəndə gərək ağlasın. Amma daha nişandan başlamazlar ki. Yaxşı yadıma düşdü, gedim tapşırım, geyinməyə başlasın, bir azdan qudalar gələcəklər.

Gedir.

Əlibaba (*tək, cibindən qumar kağızı çıxardır*). Nəsrullah bəy dedi ki, həyat qumarxanadır, biz hamımız qumar oynayırıq. Bircə onun özüylə oynaya bilsəydim, nə yaxşı olardı!

İşıqlar sönür.

## ALTINCI ŞƏKİL

Alagözün otağı. Alagöz məktub yazır. Rəcəb qapının qabağında gözləyir.

Alagöz (*məktubu qurtarıb zərfə qoyur*). Rəcəb! Mənim xətrimi istəyirsən?

Rəcəb. Bu evdə mən bircə sənin xətrini istəyirəm. Sözün düzü budur. İstəyirsən məni öldür, istəyirsən qov. Sən gedəndən sonra mən bircə gün bu evdə qalsam əbad-əcdadım tünbətün olsun. Hə, bu sözü də dedim... mən əgər...

Alagöz (*onun sözünü kəsir*). Dayan, dayan, a Rəcəb, bir suala yüz cavab verirsən.

Rəcəb. Verəcəyəm, yüz cavab verəcəyəm. Bəylər üç qızıl vermişdilər, anan saldı məni ayağının altına, elə vurdu ki, əngim dönüb oldu batman tərəzi...

Alagöz. Rəcəb, vaxt yoxdur, iş tələsikdir, sən sözümə yaxşı-yaxşı qulaq as! Əgər mənim xətrimi istəyirsənsə...

R ə c ə b. İstəyirəm, niyə istəmirəm. Həzrət Abbas haqqı əgər sən bu evdə olmasan...

A l a g ö z. Dayan, bir dəqiqə... Sözümə qulaq as, bu kağızı...

R ə c ə b (*onun sözünü kəsir*). Kağızı gizlət, Firuzə xanım bura gəlir... (*Alagöz tez məktubu gizlədir*) Ağla, bayaq mən ona demişdim ki, Alagöz xanım otağında oturub ağlayır. Sıx gözünü, bircə damcı yaş çıxsın. Amanın günüdür.

Firuzə xanım içəri girir. Rəcəb Alagözün ağlamadığını görüb, özü birdən-birə ağlamağa başlayır.

F i r u z ə. Bu nə yasxanadır, niyə ağlayırsan, köpək oğlu, deməmişəm bu otağa ayağın dəyməsin? (*Rəcəbin yaxasından yapışır*) Bu saat mən səni...

R ə c ə b. Xanım, vurma, sən balalarının canı vurma, əlin ağırdır, bir də vursan nəfəsim gedər, qayıtmaz, yazığam...

A l a g ö z. Ay ana, onunla işin olmasın, mən acıqlanmışam, ağlayır.

F i r u z ə (*Rəcəbin yaxasını buraxır*). Əcəb eləmisən! Acıqlanmaq nədir? Acığın tutdu, yapışdır şilləni üzünə. İtil gözümdən! (*Rəcəb çıxır*) İndi de görək, niyə ağlamısan?

A l a g ö z. Anacan, məni o kişiyə vermə, səndən ayrılmaq istəmirəm.

F i r u z ə. Niyə ayrılırıq ki, axmağın qızı, bir şəhərdə olacağıq. Sən Persidskidə, biz Azyatskidə... Bir-birimizə qonaq gələcəyik. Qohum, quda... Hünərləri var, səni incitsinlər. Firuzə ölməyib ki, onun qızını incidələr? Jandarmeriyada işlədiyinə nə baxırsan? Əlibabanın canı üçün, kişilərini qataram arvadlarına, arvadlarını kişilərinə!

A l a g ö z. İstəmirəm, anacan, heç kəsi heç kəsə qatma... Məni ərə vermə, vəssalam.

F i r u z ə. Olmaz. Bu gün nişan gətirirlər... ayıbdır...

A l a g ö z. Axı, şəhərdə adam tapılmır ki, məni evli kişiyə ərə verirsiniz?

F i r u z ə. A... evlənməyib ki... matişgə saxlayır... Tapşırmışam, qovacaq köpək qızını... Ağlama, gicin balası, pis olar, boşanarsan... Gedim görüm cücələri yoldularmı?

Firuzə çıxmaq istədikdə tələsik içəri girən R ə c ə b l ə toqquşur. O saat onun yaxasından yapışır.

F i r u z ə. Ə, sən yenə gəldin? İmam Hüseyn haqqı, bir gün mənim əlimdə öləcəksən.



R ə c ə b. Xanım, aman ver! Alagöz xanımı bir qız görmək istəyir, qapıda dayanıb.

F i r u z ə. Bəs qapıda niyə saxlamısan?! Yəqin təzə qohumlardandır.

R ə c ə b. Yox ey, ay xanım, matişgədir, amma bizim dildə bülbül kimi danışır.

F i r u z ə. Matişgədir? Deyir, Alagöz xanımı istəyirəm?

R ə c ə b. Hə də...

A l a g ö z. Kimdir, görəsən?

F i r u z ə. Bildim kimdir! Yəqin o başıbatmışın saxladığı arvaddır.

A l a g ö z. Başıbatmış kimdir?

F i r u z ə. Sənin nişanlını deyirəm də.

R ə c ə b. İndidən o da mənim kökümə düşdü?

F i r u z ə. Nə donquldanırsan, ə, get çağır gəlsin. (*Rəcəb çıxır*) Əgər odursa, o ləçərin ölüsünü bu evdən çıxartmasam, atamın qızı deyiləm.

A l a g ö z. Ana, ancaq burada yox, bu otaqda yox...

F i r u z ə. Sən dayan, mən özüm yaxşı bilirəm harda neyliyəcəyəm. Həyasızlığa bax, nişan günü mənim evimə gəlir...

A l a g ö z. Uf... ay Allah, mən nə qədər bədbəxt qızam!

Rəcəb ilə R o z a içəri girirlər.

R o z a. Alagöz, bacım, xoş gördük. (*Alagözlə görüşür, Firuzə xanıma*) Salam, Firuzə xanım, mən Alagözlə bir yerdə gimnaziyada oxumuşam. Rəfiqəmdir.

F i r u z ə. Nişanlısı ilə bir tanışlığın, qohumluğun yoxdur ki?

R o z a. Nişanlanmısan, Alagöz? Təbrik eləyirəm, heç xəbərim olmayıb... yoxsa çoxdan gəlib təbrik eləyərdim. (*Onu təzədən qucaqlayıb öpür*)

F i r u z ə. Hələ bu gün nişanlanır. Vaxtında gəlmisən. Səhərdən gözünün yaşı kəsilmir. (*Rəcəb ağlamağa başlayır. Firuzə xanım onu öldürücü nəzərlərlə süzür*) Biz gedək, iki rəfiqə söhbət eləyin. Ona bir az nəsihət elə.

R o z a. O elə əvvəldən də sentimental qız idi. Sinifdə həmişə qəmgin oturardı. Eybi yoxdur. Mən başına ağıl qoyaram, arxayın olun!

F i r u z ə (*Rəcəbə*). Çıx görək... Hələ bunun ağlamağına bax, elə bil bədəninə şiş batırırlar.

Rəcəb ilə Firuzə xanım çıxırlar.

A l a g ö z. Bağışlayın, siz kimsiniz? Mən sizi həyatımda birinci dəfədir görürəm.

R o z a. Susun, yavaş danışın! (*Qapını bağlayır*) Məni sizin yanınıza Pərviz göndərib.

A l a g ö z (*sevincək*). Pərviz şəhərdədir?

R o z a. Bu gün gəlib.

A l a g ö z. Bəs siz onu haradan tanıyırsınız?

R o z a. Pərvizin bir dostu var, Xosrov.

A l a g ö z. Eşitmişəm.

R o z a. Mən Xosrovun nişanlısıyam.

A l a g ö z. Rozasınız? Pərviz mənə sizdən o qədər danışıb! Bəs, o necə olub Bakıya gəlib?

R o z a. Biz teleqram vurmuşuq, Xosrovla mən. O sizi çox istəyir. Əgər nişanlandığınızı eşitsəydi dəli olardı.

A l a g ö z. Deməli, Pərviz buradadır. Necə də ürəyimə dammışdı. Səhərdən gözümün yaşını saxlaya bilmirdim. Heç özüm də bilmirdim, bədbəxtlikdən ağlayıram, ya xoşbəxtlikdən. Haradadır?

R o z a. Biz onu gizlətməyə məcbur olduq. Ancaq gizləndiyi yerdə çox qala bilməz. Gərək tez Bakıdan çıxsın.

A l a g ö z. Əlbəttə. Allah eləməsin, yenə ələ keçə bilər. Tez getsin, şəhərdə qalmasın.

R o z a. Sizdən asılıdır.

A l a g ö z. Məndən asılıdır? Nə cür? Başa düşmürəm.

R o z a. Pərviz sizsiz buradan getmək istəmir.

A l a g ö z. Mən onunla hara gedə bilərəm?

R o z a. Hər yana!.. Dünya böyük, üfüqlər geniş.

A l a g ö z. O böyük dünya, o geniş üfüqlər mənimçün deyil, Roza.

R o z a. Nə üçün belə danışırsınız, Alagöz, bəlkə daha Pərvizi sevmirsiniz?

A l a g ö z. Sevmirəm? Mən sevmirəm? Budur, siz gəlməmişdən qabaq nökəri poçta göndərirdim ki, Pərvizə məktub salsın, alın, oxuyun!

R o z a. Məktub ayrı, sevgi ayrı, sözdə biz hər nə olsa deyirik, işə gələndə...

A l a g ö z. Elə siz də sözdən işə keçin, oxuyun!

R o z a (*məktubu oxuyur, dəhşətlə*). Bu məktubu siz yazmısınız?

A l a g ö z. Mən yazmışam.



R o z a. Sizin kimi gənc, ağıllı, ziyalı bir qıza ölüm yaraşarmı?

A l a g ö z. Taleyimiz belədir, hər il Bakıda yüzlərlə mənim kimi gənc qız özünü həlak eləyir. Ayrı çıxış yolu yoxdur. Biz dustağıq. Pəncərələrimizdə barmaqlıq, qapımızda qarovulçu, başımızın üstündə ağır yumruq. Dustaqxanada ölümdən başqa ayrı nə barədə düşünmək olar?

R o z a. Dustaqxanadan qaçmaq da mümkündür.

A l a g ö z. Hara?.. Bu kameradan o biri kameraya? Ya da ki, pozğun, alçaq bir adamın ağuşuna?

R o z a. Yox, azadlığa.

A l a g ö z. O heç mümkün deyil...

R o z a. Əgər sizdə cəsarət yoxdursa...

A l a g ö z. Necə? Məndə cəsarət yoxdur? Ölümə qərar vermək, bu gözəl dünyanı, insanları, arzunu, ümidi, günəşi qoyub dəhşətli bir boşluğa atılmaq cəsarət deyil?

R o z a. Yox, acizlikdir. Yalnız həyatla üz-üzə gəlməkdən qorxan adamlar intihar eləyərlər.

A l a g ö z. Dənizdə boğulan bir adama kömək eləməkdənsə sahildə dayanıb, "vuruş, mübarizə apar" deyə çığırmağın nə mənası var?

R o z a. Mən dənizdə boğulanın yanına köməyə gəlmişəm, əlimi uzadıram.

A l a g ö z. Sizin əliniz də aciz qadın əli deyilmi?

R o z a. Nə danışırsınız, Alagöz, qadının əli aciz niyə olur ki, qələm də tuta bilirik, silah da. Adam gərək taleyə boyun əyib dayanmasın, xoşbəxtliyi üçün özü mübarizə aparsın.

A l a g ö z. Nə cür? Mənə də öyrədin!

R o z a. Bu saat öyrədim. Bu gecə burada nişan məclisidir, eləmi? Yəqin ki, Həştərxandan gələn o tacirlər də məclisdə olacaqlar. Baş qarışacaq, nişan alver bazarına çevriləcək. Siz də bundan istifadə eləyib Pərvizə qoşulub qaçarsınız.

A l a g ö z. Pərvizlə qaçaram?

R o z a. Hə, onunla gedərsinizmi?

A l a g ö z. Pərvizlə mən cəhənnəmə də getməyə hazıram.

R o z a. Pərviz sevdiyi qızı cəhənnəmə aparan oğlanlardan deyil. Qulaq asın, görün nə deyirəm. Polis bizim arxamızdan əl çəkmir, ona görə də Pərvizlə əlaqəni tamam üzməli olmuşuq. Siz inandığınız bir adam vasitəsilə ona bir kəlmə xəbər göndərməlisiniz: "Mən hazıram".

Axşam isə gecədən keçmiş bir bəhanə ilə qapınızın qarşısına çıxın. Faytonçu yanınızdan keçəndə "At deyil, qanadlı quşdur!" deyib çığırsa həmən faytona minin. Vəssalam.

A l a g ö z. Sonra?

R o z a. Sonra görüş, səadət. Alagöz adlı bir qızın bizim dəstəmizdə mübarizəsi. Bu, ölümdən bir az yaxşıdır, elə deyilmi?

A l a g ö z. Elədir.

R o z a. Bəs niyə sevinmirsiniz?

A l a g ö z. Mən ölüm dünyasına getməkdənsə Pərviz dünyasına, həyat dünyasına getməli oldum. Buna sevinməmək olar?

Rozanı öpür. Qucaqlaşıb otaqda hərlənirlər. Firuzə xanım içəri girir.

F i r u z ə. Bismillah... (*Rozaya*) Ay qız, sən ovsunçusan, nəsən?

R o z a. Nə olub ki?

F i r u z ə. Səhərdən Alagözün ağlamağından evi sel aparırdı. İndi, sən ona neylədin ki, dişlərini yığa bilmir?

R o z a. Mən onu başa saldım ki, bu gün yeni bir dünyaya daxil olur. Belə bir gündə sevinməyən qız olar?

F i r u z ə. Sevinirsən, az?

A l a g ö z. Sevinirəm, ana can, qoy səni öpüm, söysən də, acıqlansan da, yenə anasan, anadan ayrılmaq çətindir.

F i r u z ə. Az, niyə ayrılırıq? Oyan-buyan olar, kürəkənimi də gətirərəm yanıma, bir yerdə yaşayarıq. Atanın dövlətini bütün Bakı yesə qurtarmaz.

A l a g ö z. Çox sağ ol, anacan, de görüm, mənim ərimi çox istəyəcəksən?

F i r u z ə. Az, bəsdi, a, a, biabır olduq! Urusa qoşulmaq belədir də, bir dəqiqənin içində qızın üzü sırtıldı.

R o z a. Niyə elə deyirsiniz, Firuzə xanım, mən ona pislik eləyirəm?

F i r u z ə. Zarafat elədim, ey!.. Axşama qalarsan ha, nişana...

R o z a. Xeyr, evə getməliyəm. Bir dəqiqə gecikəndə anam döyür.

F i r u z ə. Əcəb eləyir. Qızını döyməyən dizini döyər. Yaxşı, sağ ol. Tez-tez gəl bizə, səndən xoşum gəldi.

Gedir.

R o z a. Tez Pərvizə xəbər göndərmək lazımdır. Bu evdə inandığınız bir adam varmı?



A l a g ö z. Var. Nökərimiz Rəcəb. Pərvizi tanıyır. Ondan mənə neçə dəfə məktub gətirib.

R o z a. Elə isə çağırın o Rəcəbi, tez olun. Gecikmək olmaz.

Alagöz çıxır. Rəcəblə qayıdır.

A l a g ö z. Rəcəb, mənim xətrimi çox istəyirsən?

R ə c ə b. Yenə soruşdu. Əlbəttə çox istəyirəm, matişgənin yanında açıq danışa bilərəm?

A l a g ö z. Matişgə nədir? Ayıb deyil? De ki, Roza xanım.

R ə c ə b. Roza xanım, and olsun Kərbəladakı ağalarımızın qəbrinə, bu evdə bir adam varsa o da mənim bu xanımımdır. Desə öl, ölməsəm Quran belimdən vursun.

R o z a. Nə istəyirsiniz? Bu da onun proqramı.

A l a g ö z. Bu saat Roza xanım sənə bir ünvan deyəcək, ora gedə bilərsən?

R ə c ə b. Səndən ötrü dünyanın o başına gedərəm.

R o z a. Dünyanın o başı lazım deyil. Dağlı məhəlləsinə get. Orada bir baqqal dükanı var, tanıyırsan?

R ə c ə b. Tanıyıram, niyə tanımıram? Bir dəfə o dükandan meyvə almışdım, qurdlu çıxdı, Firuzə xanım belimə təpiyi elə vurdu ki...

A l a g ö z. Yaxşı, yaxşı, səndən tarix soruşan yoxdur.

R o z a. Həmən baqqal dükanının üstündə, ikinci mərtəbədə bir adam yaşayır, adı Kazımdır.

R ə c ə b. Kazım.

R o z a. O Kazımı taparsan, yavaşdan deyərsən ki, mən Pərvizi görmək istəyirəm.

R ə c ə b (*hırıldayır*). Pərviz dadaş gəlib?

A l a g ö z. Sus... yavaş danışa bilmirsən?

R o z a. O səni aparacaq Pərvizin yanına. Pərvizin qulağına pıçıldayarsan: Alagöz xanım deyir, bu gecə...

R ə c ə b. Dalını deməyim?

R o z a. Ayrı heç bir söz lazım deyil. Yalnız bunu deyərsən: "Bu gecə".

R ə c ə b. Alagöz xanım deyir ki, bu gecə, bu gecə nəmənə?..

A l a g öz. Daha orası sənə borc deyil.

R ə c ə b. Necə borc deyil? Bə mən?

A l a g ö z. Necə yəni "bə mən?"

Rəcəb. Pərviz dadaşa deyim "Bu gecə". Sonra evimizdə gözəl bir quş var, pırr eləyib uçsun, onda bə mən?

Alagöz. Sən də qalarsan ağanın, xanımın yanında.

Rəcəb (*birdən papağını yerə çırpıb hönkürür*). Xanım, fırfıra kimi başına dolanım, ayağının altını yalayım, məni burada qoyub getmə, dərimə saman təpərlər, yazığam.

Alagöz. Dur ayağa, axmaq, səs salma!

Roza. Səni də aparsa, gedərsən?

Rəcəb. Gedərəm, niyə getmirəm?

Roza. Bəs heç soruşmursan hara?

Rəcəb. Hara aparsalar bu evdən yaxşı olar.

Alagöz. Di tez ol.

Rəcəb. Söz verirsən ki, məni də aparacaqsan?

Alagöz. Söz verirəm.

Rəcəb. Onda gedim. Yaxşı, birdən canavar rast gəlsə, soruşsa, hara gedirsən, nə deyim?

Alagöz. Gözünə görünmə, xəlvətcə aradan çıx. Deyilənlər yadından çıxmayıb ki?

Rəcəb. Deməli, baqqal dükanı, üstündə Kazımın evi. Pərviz dadaşa deyirəm: "Bu gecə". Çalışım, canavara rast gəlməyim.

Gedir.

Roza. Mən də gedirəm. Gecə görüşəcəyik. Ehtiyatlı ol, yoxsa bütün planlar pozular.

Alagöz. Sağ ol, bacım!

İşıqlar sönür.

## YEDDİNCİ ŞƏKİL

Kəblə Muxtarın evi. Bəzəkli otaq. Buradan qonaq otağına və yan otağa qapılar var. Kəblə Muxtar həyəcanla pəncərədən boylanır. Firuzə xanım içəri girir.

Firuzə. Oğlan evindən xəbər yoxdur?

Kəblə Muxtar. Yox. Sənin burada nə işin var? Çıx, çıx!

Firuzə. Yaxşı, yaxşı, arvadını yemədilər. Qoy bu açar yerindən baxım. (*Baxır*) Qonaqların da özün kimi qoca-mocadır.



Kəblə Muxtar. Məni abırdan salma, çıx otaqdan.

Firuzə. Dayan görüm, sən Allah, o Parisdən gələn tacirləri görmək istəyirəm.

Kəblə Muxtar. Hələ gəlməyiblər.

Firuzə. Hələ gəlməyiblərsə deməli heç gəlməyəcəklər. Sənin kimi taciri itirim, gecə-gündüz əlimdə çıraq, axtarım.

Kəblə Muxtar. Firuzə, heç olmasa belə şad gündə məni dilxor eləmə.

Firuzə. Yandırmısan məni, Muxtar, odsuz-alovsuz yanıram. Əşi, özgə tacirlərin arvadları...

Kəblə Muxtar. O barədə sonra danışarıq. İçəri keç, kişi gəlir.

Firuzə (*qapıdan baxır*). Kişi deyil, qardaşımdır.

Rəşid Məğrur içəri girir.

Rəşid Məğrur. Kəbleyi, hərarətli salamlar, mənalı kəlamlar, bu mənim ilk şeir kitabımdır. Alagözə hədiyyə gətirmişəm.

Kəblə Muxtar. Ay-hay...

Firuzə xanım. Alagöz üçün əzizdir, ver bura.

Rəşid Məğrur. Bacım, maşallah, günü-gündən gözəlləşirsən, elə bil sən də on səkkiz yaşındasan, Alagözdən seçilmirsən.

Kəblə Muxtar. Qardaşın bacıya eşqnamə oxumağını birinci dəfədir görürəm.

Rəşid Məğrur. Kəbleyi, ilhamım gəlib, şerin qabağında dayanma, bacım, hələ saçların... saçlarınla fəxr edirəm, burax onlar dalğalansın, Xəzər kimi, xar olmasın xəzəl kimi.

Kəblə Muxtar. Bəh, bəh, bəh... Əhsən bu kəlama.

Firuzə. Boyuna bacın qurban, deyirlər, Nəsrullah bəy sənə əlli min manat pul verir?

Rəşid Məğrur. Bacım, axır ki, şerin sərrafı tapıldı. Qəzetim, dünyanın ən böyük qəzeti olacaq. Rəşid Məğrurun qabağında hamı diz çökəcək, iki günə kimi Peterburqdan pullarımı alıram. Kəbleyi, o hesaba yüz manat ver.

Kəblə Muxtar. Pul vaxtı deyil, başım qarışıqdır.

Firuzə. Ondan niyə istəyirsən? Bacın ölməyib, al.

Sinəsindən pul çıxarıb verir.

Rəşid Məğrur (*pulu iyləyir*). Uf, nə gözəl qadın qoxusu verir.

Kəblə Muxtar. Əstəğfürullah.

Rəşid Məğrur. Əlimə pul keçən kimi gözüm qaralır, başım fırlanır. Qapı haradadır, qapını mənə göstərin.

Firuzə. Bu otaqda Əlibaba qoçu İmamqulu ilə kart oynayır, get, sən də məşğulat elə.

Rəşid Məğrur. Gedirəm, gedirəm, gözəl bacım!..

Kəblə Muxtar. Firuzə, axırda sən məni müflis eləyəcəksən.

Firuzə. Kəs səsini, xəsis, mənim ora-bura pul səpələməkdən xoşum gəlir.

Hacı ilə Məşədi içəri girirlər. Firuzə xanımı görüb öskürməyə başlayırlar.

Kəblə Muxtar. Çıx get də... görmürsən kişiləri?

Firuzə. Onların kişi sifətlərinə torpaq ələyim. Gətirdikləri hədiyyəyə bax. Çırpasan başlarına.

Gedir.

Hacı. Kəblə Muxtar, oğullu, qızlı olsun, inşallah...

Məşədi. Hədiyyələrimizi qəbul elə. Bax, bu böyüyü mənimkidir, çaşbaş salmayasan.

Kəblə Muxtar. Payınız artıq olsun!

Hacı. Nəsrullah bəylə Əhməd bəy buradadırlarmı?

Kəblə Muxtar. Dallarınca fayton göndərmişəm. Bir azdan buyurarlar. Siz keçin qonaqların yanına, mən o biri otaqlara baş çəkməliyəm.

Gedir.

Hacı (*onun arxasınca*). Qoca tülkü. O, qızını verdiyi adama mən itimi vermərəm.

Məşədi. Öz övladını pula, mənsəbə satır.

Hacı. Nə olsun ki, jandarmadır. Ətə qatsan, it yeməz, ota qatsan, at.

Kapitan içəri girir.

Məşədi. Yavaş, dostu gəldi.

Hacı. Kapitan, yallah, yallah...

Kapitan. Aha, burada baş-başa verib nə barədə danışırsınız?

Məşədi. Kəblə Muxtar barəsində.

Kapitan. Şübhəli adamlara oxşayırsınız. Kəblə Muxtar hökumətin nəzərində yüksək mövqedədir. Siz onun əleyhinə niyə danışırsınız?



Hacı. Əleyhinə yox, lehinə deyirik, qızı üçün deyirik, nə yaxşı adam seçib, jandarmeriyada işləyir.

Məşədi. Ay Hacı, qar qar üstə yağar da...

Kapitan. Bura baxın, Hacı, Məşədi, mən qoca qurdam... Tükü tükdən seçirəm. Padşaha xülusi-qəlb ilə xidmət eləmək lazımdır. Dünyaya hərc-mərclik salan elə sizin kimi tacirlərdir.

Məşədi. İşə düşmədik! Hərc-mərclik salanın atasına lənət, a kişi!

Hacı. Kapitan, sabah zəhmət çəkin mənim kantoruma, sizinçün bir hədiyyə hazırlamışam.

Məşədi. Mənim də kantoruma gəl, əliboş getməzsən.

Kapitan. O ayrı məsələ. Bax, bu cür, açıq danışmaq lazımdır.

Kəblə Muxtar içəri girir.

Kəblə Muxtar. A kişilər, burada niyə dayanmısınız? Kapitan, xoş gəlmisən, gözüm üstə yerin var. Buyurun, qonaqların yanına.

O biri otağa keçirlər. Bu halda Rəşid Məğrur çıxır. Tələsik getmək istədikdə Əlibaba və İmamqulu dalınca qaçıb onu saxlayırlar.

Əlibaba. Dayı, dayı, hara gedirsən?

İmamqulu. Dayan, yarımçıq qoyub getmək olmaz, qayıt geri...

Rəşid Məğrur. Qumarın zinəti puldur. Sizin cibiniz boşalıb, boşu doluya vurmağın nə mənası?

Əlibaba. Mənim pulum var, dayı, budur, bax!

Cibindən pul çıxardıb göstərir.

İmamqulu. Pul əvəzinə banka qoçu Əlabbası qoyuram.

Rəşid Məğrur. Mənə qoçu lazım deyil, qəzetçi lazımdır.

İmamqulu. Onu da bacarar. Əlindən nə köpəkoğluluq desən gəlir. Dayan, bu saat çağırım, özün mala bax.

Çıxır. Mirzə Əlabbası darta-darta gətirir. Onun bir əlində şərab şüşəsi, bir əlində də cücə budu var.

Mirzə Əlabbas. Ay İmamqulu, qoy çörəyimi yeyim, gecənin bu vaxtı nə qoçuluq?

İmamqulu. Yaxın gəl, mala baxmaq istəyirlər.

Mirzə Əlabbas. Tapançanı çıxardım?

İmamqulu. Yox, qabiliyyətli dayan! (*Rəşidə*) Nə qədər qiymət qoyursan?

Rəşid Məğrur. Mirzə Əlabbasın qiyməti litrlədir. İçinə neçə litr şərab yerləşsə o qədər də qiyməti var.

Mirzə Əlabbas. Bəy əfəndi, təhqirinizi təcili geri götürün. Mənim əlim dinc dayanan deyil.

Tapançasını çıxardır.

Əlbaba. Yaman əzazil qoçudur, dayı.

Rəşid Məğrur. Mirzə Əlabbas, vallah, sözümü geri götürərəm, tapançanı o yana tut, qəfildən açıla bilər.

İmamqulu. Qorxma ey, boşdur, patronu yoxdur.

Mirzə Əlabbas. Boşdur? Tfu, belə qoçuluğa!

İmamqulu (*Mirzə Əlabbasın qolundan tutur*). Tüpürmə, dadı qaçar. (*Rəşidə*) Beş yüz manat qiymət eləyirəm, necədir?

Rəşid Məğrur. Üç yüzdən bir qəpik artıq vermərəm.

Mirzə Əlabbas. Burax məni, canım, inək satmırsan ki?

İmamqulu. Mənim tapançamın patronu var, ha!.. (*Rəşidə*) Yaxşı, üç yüz olsun, gedək, oynayaq.

İmamqulu Mirzə Əlabbası darta-darta aparır. Rəşid və Əlibaba onların arxasınca gedirlər. Rəcəb səhnəyə çıxır. Pəncərədən küçəyə baxır. Alagöz gəlir.

Alagöz. Rəcəb, Rəcəb!

Rəcəb. Buradayam, xanım!

Alagöz. Fayton görünmür?

Rəcəb. Küçə bomboşdur.

Alagöz. Bəlkə kənarda saxlayıb, buradan görünmür, düş aşağı, tez mənə xəbər gətir.

Rəcəb. Baş üstə! (*Casus içəri girir, Alagözə diqqətlə baxır*) Xanım, gizlən, yad adam gəldi.

Alagöz (*üzünü gizlədir, pıçıltı ilə*). Tanımırsan?

Rəcəb. Xeyr, gördüyüm adam deyil.

Alagöz. Bəlkə faytonçudur?

Rəcəb. Bu saat öyrənim. (*Casusa*) A kişi, sənin faytonun var, atları qanadlı quş kimi?

Casus. Faytonum yoxdur, ancaq mən özüm gözəllik görəndə qanadlı quş kimi oluram.

Rəcəb (*Alagözə*). Baş-ayaq vurur, o deyil, sən get, mən bu iti yola salıb gəlirəm.

Alagöz gedir.



Casus (*Rəcəbə*). Bəri gəl, sənə söz deyəcəyəm.

Rəcəb. Sözün var, sən bəri gəl...

Casus. Dövlət sirridir, tək sən bilməlisən...

Rəcəb. Yumala gəlsin.

Casus. Sən bu evin nökəri Rəcəbsən.

Rəcəb. Gözünü dağlayım. Bütün Bakı bilir ki, mən bu evin nökəri Rəcəbəm. Bunun harası sirr oldu?

Casus. Az danış, qulaq as! Jandarma kapitanı sizin evdə qonaqdır.

Rəcəb. Tutaq ki, qonaqdır. Ondan sənə nə?

Casus. Sualı mən verirəm, cavabı müxtəsər elə: hə, yox?

Rəcəb. Hə...

Casus. Onu xəlvət bura çağır.

Rəcəb. Yox.

Casus. Niyə yox?

Rəcəb. Saqqal tərpədib söz danışdın, kapitan boyda adam, bir dılğır Rəcəbin sözüylə yerindən durar?

Casus. Denən on üç nömrəli çağırır?

Rəcəb. Dustaqsan ki, nömrən var?

Casus. Get, əmrimi yerinə yetir. Əgər bu sözü kapitandan başqa bir adama desən, dilini burub boynuna sarıyaram.

Rəcəb. Elə bu cür acıqlı olmusan ki, ad tapa bilməyib sənə nömrə qoyublar da!

Gedir, kapitanla qayıdır.

Kapitan. Kimdir məni çağıran?

Rəcəb. Bax, bu acıqlı kişi.

Kapitan. Mən bu adamı tanımıram.

Rəcəb (*Casusa*). Hə, indi sənin öz dilini burub boynuna sarıyacaqlar.

Gedir.

Kapitan (*pıçıltı ilə*). Tez ol, sözünü de!

Casus. Oğlanın və qızın izindəyəm, adamlarım onları bir dəqiqə gözdən qoymurlar.

Kapitan. Kimi qarşılayırdılar?

Casus. Məlum olmadı, gəmi yaxınlaşanda bir qarışıqlıq düşdü ki, it yiyəsini tanımadı.

Kapitan. Bəs çanta, qızın əlindəki çanta?..

C a s u s. Budur, çırpışdırmışam, ancaq içi boşdur.

K a p i t a n. Yenə səni aldatdılar. (*Öz-özünə*) Sən bir bunun sirsifətinə bax!

C a s u s. Xoşunuza gəlmir, dəyişim.

K a p i t a n. Dəyiş, nömrən də oldu otuz doqquz. Onu da bil ki, nömrən artdıqca maaşın azalır.

C a s u s. Cənab kapitan, axı insaf deyil.

K a p i t a n. Sus! Sən bütün dünyadakı casusların ən kütbeyinisən. Qulaq as. Onları bir dəqiqə gözdən qoyma. Qazdan ayıq ol, qarğadan bic. Üzünü şəhərin bu başında sabunlat, o başında qırxdır. Mən hələlik bu evdə olacağam, sonra da... olacağam... qulağını gətir. (*Qulağına pıçıldayır, casus gülür*) Hırıldama, əmrim yerinə yetirilməlidir.

C a s u s. Baş üstə.

Casus gedir, kapitan içəri girir. K ə b l ə M u x t a r ilə rastlaşır.

K ə b l ə M u x t a r. Kapitan, burada tək neyləyirsiniz, narahat oldum.

K a p i t a n. Papiros çəkirdim.

K ə b l ə M u x t a r. Buyur içəri. Papirosu orada çəkə bilərsiniz, buyurun!

Kapitan gedir. Kəblə Muxtar tək qalır. Ə l i b a b a qəhqəhə ilə gülərək yan otaqdan çıxır.

Ə l i b a b a. Dədə, kefdir, qoçu İmamqulu Mirzə Əlabbası dayıma uduzdu.

K ə b l ə M u x t a r. Lənət olsun əbavü-əcdadınıza! Mənim hesabdarımı bu ona uduzur, o buna.

Gedir. İ m a m q u l u, R ə ş i d M ə ğ r u r və M i r z ə Ə l a b b a s içəri gəlirlər.

İ m a m q u l u. Mirzə Əlabbas, sən daha qoçu deyilsən, tapançanı bəri ver.

M i r z ə Ə l a b b a s. Götür bu zəhrimarı. Elə bil od olmuşdu, böyrümü yandırırdı.

İ m a m q u l u (*tapançanı alır, Əlibabaya*). Gedək, xırda-xırda oynayaq.

Ə l i b a b a. Sənin heç nəyin qalmayıb axı. Gül kimi qoçunu da uduzdun.

İ m a m q u l u. Bu tapançanı qiymət eləyərsən, oynayarıq, gəl!..



Çıxırlar. Səhnədə Əlabbas və Rəşid Məğrur qalır.

R ə ş i d M ə ğ r u r. Mirzə Əlabbas bəy!

M i r z ə Ə l a b b a s. Buyurun, təzə ağa.

R ə ş i d M ə ğ r u r. Sənin nə pis adın var?

M i r z ə Ə l a b b a s. Allah verən addır da!..

R ə ş i d M ə ğ r u r. Qəzetçi adı deyil. Sən indi mühərrirsən, gərək özünə ləqəb tapasan. Mənim adım Rəşid Məğrurdur, sənin də adın olsun Əli Məsrur...

M i r z ə Ə l a b b a s. Abbası yedin?

R ə ş i d M ə ğ r u r. Abbas getdi. Əli Məsrur! Denən bəli.

M i r z ə Ə l a b b a s. Bəli, bəy əfəndi!

R ə ş i d M ə ğ r u r. Evə gedən kimi alarsan qələmi əlinə, bir səhifə padşahı tərifləyərsən, bir aydan sonra onun baldızının ad günüdür.

M i r z ə Ə l a b b a s. Axı, mən ömrümdə haqq-hesabdan başqa heç nə yazmamışam.

R ə ş i d M ə ğ r u r. Şərabı vur, özü gələcək. Şərab pulu məndən.

M i r z ə Ə l a b b a s. Şərab içəndən sonra mən yaxşı söyüş söyürəm.

R ə ş i d M ə ğ r u r. Çox gözəl, padşahı özüm tərifləyərəm, sən bir yaxşı söyüş məqaləsi yaz.

M i r z ə Ə l a b b a s. Mənim gözlərim üstə. Kimin barəsində?

R ə ş i d M ə ğ r u r. "Molla Nəsrəddin" məcmuəsini çıxardan bir Cəlil Məmmədquluzadə var, onu gərək yer ilə yeksan eləyək! Dişinin dibindən çıxanı yaz.

M i r z ə Ə l a b b a s. O cür adamı söyməyə heyfin gəlmir?

R ə ş i d M ə ğ r u r. Kəs səsini, ey qəzetçilərin ən cavanı və ən təcrübəsizi! Sən balaca uşaqlar kimi nə danışdığını özün də bilmirsən. Bizim məsləkimizə müğayir olan bu cümlə bütün Bakını titrədə bilər.

Kəblə Muxtar qaçaraq içəri girir.

K ə b l ə M u x t a r. Tez olun, çıxın qabağa. Bəylər gəlir.

Gedir.

R ə ş i d M ə ğ r u r. Əli Məsrur! Özünü qaydaya sal, papağını yaxşı qoy. Qibləgahımız təşrif gətirir.

Əlibaba ilə İmamqulu çıxırlar.

İ m a m q u l u. Nə olub, adə?!

Rəşid Məğrur. Bəylər gəlir. Əlibaba, kartı gizlət, çıxaq qabaqlarına.

Hamı səhnədən çıxır. Otaq bir anlığa boş qalır. Rəcəb çadraya bürünmüş Alagözlə içəri girir.

Rəcəb. Gəl, xanım, fayton bizi gözləyir. Yaxşı ki, ara qarışdı, bizi görən olmaz.

Gedirlər. Nəsrullah bəylə Əhməd bəyi qollarından tutub təntənə ilə içəri gətirirlər. Hacı ilə Məşədi yan otaqdan çıxıb gəlirlər. Kəblə Muxtar iki kreslo gətirib səhnənin ortasına qoyur. Nəsrullah bəylə Əhməd bəyi bu kreslolarda oturdurlar.

Nəsrullah bəy. Kəblə Muxtar, xeyir işin mübarək. Hanı qızın, kürəkənin, çağır, bizi tanış elə!

Kəblə Muxtar. Bizlərdə adət deyil, bəy dadaş, qızı heç kəsə göstərmək olmaz, oğlanın da ayağı gərək toya qədər bu evə dəyməyə.

Nəsrullah bəy. Ştrissen fayt.

Kəblə Muxtar. Qadan alım, Əhməd bəy, nə deyir?

Əhməd bəy. Deyir ki, vəhşilikdir!

Mirzə Əlabbas. Bizim milləti yalnız bu adam qabağa aparacaq. Fikri çox iti işləyir.

Rəşid Məğrur (*Mirzə Əlabbasa*). Götür bir kağız, onun ağzından çıxanı qeyd elə. Qəzetimizdə çap eləyəcəyik.

Nəsrullah bəy. Şair, vəziyyət necədir, altmış işçini tapa bildinmi?

Rəşid Məğrur. Birini tapmışam. Budur, Əli Məsrur, qalıb əlli doqquzu.

Nəsrullah bəy. Tələsmə, diqqətlə seç, sən böyük tarixi iş görürsən. Tarixi iş görəndə tələsməzlər.

Rəşid Məğrur. Haqqınızda yazdığım şerin üçüncü bəndi də hazırdır.

Nəsrullah bəy. Şair, yüz bənd hazır olandan sonra hamısını bir yerdə oxuyarsan. İndi dinləməyə vaxtım yoxdur.

Rəşid Məğrur. Baş üstə. (*Mirzə Əlabbasa*) Yüz bəndi yüz günə qurtara bilmərəm.

Mirzə Əlabbas. Ölməmişəm. Kömək eləyərəm.

Kəblə Muxtar (*işarə ilə Əlibabanı yanına çağırır. Yavaşdan*). Bunları bir bəhanə ilə çək apar, bizim xəlvət söhbətimiz olacaq.

Əlibaba. Yaman quyruq bulayırsan ha, saqqal, deyəsən, gəlirimiz yaxşı olacaq.



Kəblə Muxtar. Yaxşı, yaxşı, məni biabır eləmə.

Əlibaba (*Rəşid Məğrura*). Dayı, gedək dalını davam eləyək, İmamqulu, gəl!..

Rəşid Məğrur. Əli Məsrur, düş qabağıma.

Rəşid Məğrur, Əlabbas, İmamqulu və Əlibaba çıxırlar.

Nəsrullah bəy. Hacı, tel vurub sənə quru meyvə sifariş eləmişdik. Hazır olub-olmadığı haqqında bir söz demirsən?

Hacı. Bəy dadaş, sizdən asılıdır. Sabahdan dəniz qırağındakı bütün dükanlarımı boşaldıb bir gəmi mal hazır eləyərəm. Ancaq qiyməti məlum deyil, o məni bir az darıxdırır.

Nəsrullah bəy. O barədə nigaran qalma, sövdələşərik. Məni pulu yox, vaxtı maraqlandırır.

Hacı. On günə tamam eləyərəm.

Nəsrullah bəy. Uzaqbaşı bir həftə.

Hacı. Doqquz gün...

Əhməd bəy. Çəkil bu yana, kişi, hirsləndirmə. Bir həftə dedilər, denən baş üstə.

Nəsrullah bəy. O qədər mərhəmətsiz olma, Əhməd bəy, Hacı səkkiz gün deyir, səkkiz günə razı olaq.

Hacı. Baş üstə. Səkkiz günə hazır eliyərəm.

Nəsrullah bəy. Məşədi, ipək hazırdırmı?

Məşədi. Hələlik yüz pud hazırlamışam.

Nəsrullah bəy. Yüz pud da lazımdır.

Məşədi. Düzəldərəm, ancaq qiymətini gərək müəyyən eləyək.

Əhməd bəy. Sən de, biz eşidək.

Məşədi. Getdiyim Məşhəd haqqı...

Əhməd bəy. Məşədi, ticarətdə anda inanmazlar. İki kəlmə sözünü de!

Məşədi. Yüz iyirmi.

Əhməd bəy (*Nəsrullah bəyə*). Ərziniz?

Nəsrullah bəy. Yüz...

Məşədi. Uşaqlarım ölsün yüz mayasıdır.

Nəsrullah bəy (*Əhməd bəyə, yavaşdan*). Doxsanda tacirik, çərçi deyilik. Yüzə razısan, de, deyilsən, çəkil dur bir kənarda, bazar açma.

Əhməd bəy. Sən baqqalsanmış.

Məşədi. Acığınız niyə tutur, alverdə sövdələşərlər də... Yüz on...

Nəsrullah bəy (*Əhməd bəyə yavaşdan*). Doxsan.

Əhməd bəy. Məşədi, biz ipəyin puduna doxsandan artıq verə bilmərik.

Məşədi. Bəs özünüz yüz deyirdiniz.

Əhməd bəy. Doxsan, artıq olmaz.

Məşədi. Mən yüzə razıyam.

Əhməd bəy. Doxsan.

Nəsrullah bəy. O qədər mərhəmətsiz olma, Əhməd bəy, yüz deyir, qoy yüz olsun. Eybi yoxdur, qoy ziyan çəkək.

Əhməd bəy. Yaxşı, yüz olsun. Bir həftəyə hazır elə.

Məşədi. Baş üstə, baş üstə.

Kəblə Muxtar (*Hacının qulağına*). Dinsizin öhdəsindən imansız gələr.

Nəsrullah bəy. Nə pıç-pıç eləyirsiniz, mister Kəblə Muxtar?

Kəblə Muxtar (*öz-özünə*). Yenə mənə mastır dedi. (*Nəsrullah bəyə*) Heç...

Nəsrullah bəy. Əhməd bəy, Kəblə Muxtar ilə məsələni bitirdin?

Əhməd bəy. Xeyr, Kəbleyi hələ bir hərəkət göstərmir.

Kəblə Muxtar. Mən bu barədə sizinlə təkbətək danışmaq istəyirəm.

Nəsrullah bəy. Yox, Kəblə Muxtar, mənim bu tacirlərdən gizlin heç bir sözüm yoxdur. Qəlp pul satmıram ki, başqalarından gizlədim? Sözünü de, qurtarsın getsin.

Kəblə Muxtar. Sözüm yoxdur ki... Əlli nağd, əlli də çek... Özünüz gedib bankdan alın.

Əhməd bəy. Ştrissen.

Nəsrullah bəy. Əlbəttə, ştrissen, tut qolumdan, məni qaldır, bu evdə bir dəqiqə dayanmaram, gündə iki dəfə sözünü dəyişən adam tacir deyil, nakişidir!

Kəblə Muxtar. Nəsrullah bəy, qızımın nişanını yasa çevirməyin. Getsəniz, bütün məclis pozular.

Əhməd bəy. Beş dəqiqə səbir eləyin, Nəsrullah bəy, bu cür əsəbi vəziyyətdə küçəyə çıxmağı həkim sizə qadağan eləyib.

Nəsrullah bəy. A kişilər, mən bu adama hörmət eləyib beş manatdan ingilis pulu verirəm, bir gündə yüz min manat qazanc eləyir, bu isə əvəzində gör nə hoqqa çıxardır!



Hacı. Məşədi ilə mən funt-sterlinqi altı manatdan alırıq, pulun da hamısını nağd veririk.

Məşədi. Hacı nə deyir, qol qoyuram, bə şərtə ki, bankın təsdiqi ola.

Hacı. Nəsrullah bəyin çekini banka sabah səhər tezdən mən özüm apararam.

Kəblə Muxtar. Hacı, mənim qabağıma keçmə, sonra sənin-çün pis olar...

Hacı. Neyləyəcəksən? Qoçu bizdə də var. Əlindən gələni beş qaba çək.

Kəblə Muxtar. Qoyduraram kəllənə, ağzını balıq kimi açarsan, yuma bilməzsən. Bəy dadaş, yüz min nağd bu saat verirəm.

Hacı. Kəs səsini bihəya! Pullar bizimdir.

Kəblə Muxtar. Bihəya sənsən, əclaf! Əvvəlcə mənimlə söv-dələşiblər!

Məşədi. Cibgir!

Hacı. Soyğunçu!

Nəsrullah bəy. Sükut, əzzəmtü əleyküm, ya əhləlqübur.

Əhməd bəy. İngiliscə de, ingiliscə de!

Nəsrullah bəy. Rayt şpansen. Ştrissen, vələdüzzinalar! And olsun Allaha, bütün Qırmaniyanın qoşununu tökərəm bu məmləkətə!

Kəblə Muxtar. Bağışlayın, bəy dadaş, hüzurunuzda biədəblik elədik.

Nəsrullah bəy. Hacı, Məşədi, saxtan nixten, de sallan deyl, meyl.

Hacı (*Əhməd bəyə*). Nə deyir, qadan alım?

Əhməd bəy. Hirsindən ingilis dili ilə alman dilini qarışdırıb bir-birinə.

Məşədi. Allah, sən saxla!

Hacı. Bağışlayın, cənab, biz də üzr istəyirik.

Nəsrullah bəy. Əhməd bəy, sən məni buraya gətirdin ki, müsəlmandırlar, gedək, ticarətlərini rövnəq eləyək. Halbuki mən bu cür hərcmərclik heç... o yerin adı nədir, birtəhərdir ey... orada da görməmişəm. Hacı, sizə ingilis pulu lazımdır, sabah gəlin, nə qədər istəyirsiniz, aparın. Kəblə Muxtarın tikəsini ağzından niyə çıxartmaq istəyirsiniz? Əhməd bəy, ver çeki, halal xoşu olsun.

Əhməd bəy. Baş üstə. (*Cibindən çek çıxardır*) Kəbleyi, al bu iyirmi min funt-sterlinqin çeki. Möhkəm yerə qoy, itirsən, cavabdeh deyilik.

Kəblə Muxtar. Arxayın olun, can cibimə qoyacağam.

Nəsrullah bəy. Nağd pul hamısı bu gecə bizə çatmalıdır.

Kəblə Muxtar. Arxayın olun. Qulbeçənizlə göndərərəm.

Nəsrullah bəy. İndi üçünüz də bir-birinizlə öpüşün...

Kəblə Muxtar, Hacı və Məşədi öpüşürlər. Nəsrullah bəy yaylıq çıxardıb göz yaşını silir.

Əhməd bəy. Bu qədər dövlətli adamın elə nazik ürəyi var!

Nəsrullah bəy. Əhməd bəy, o gətirdiyimiz brilyant boyunbağını ver Kəbleyiyə, salsın qızımızın boynuna.

Əhməd bəy (*cibindən boyunbağı çıxardır*). Kəblə Muxtar, buyurun, Nəsrullah bəyin şəxsi hədiyyəsidir. Soltan Əbdülhəmidin qırxıncı zövcəsi üçün almışdı, o xəl olunandan sonra qaldı özümüzdə.

Nəsrullah bəy. Ştrissen söz danışma, Əhməd bəy, sən dediyin qolbaq idi, bunu mən yaponlardan almadım? Yadından çıxıb?

Əhməd bəy. Düzdür. Tamam yadımdan çıxıb! (*Boyunbağını Kəblə Muxtara verir*) Kəbleyi, gör necə gün kimi şölə saçır.

Kəblə Muxtar. Çox sağ olun, başımı uca elədiniz.

Məşədi (*Hacıya*). Tülkü, burada da qazandı.

Bu halda musiqi çalınır. "Oğlan evi gəldi" – deyə səslər eşidilir. Hamı səhnəyə çıxır. İmamqulu bir əlində tapança, bir əlində kart kağızı oynayır. Sonra hamı o biri otağa keçir. Hacı ilə Məşədi Nəsrullah bəyin və Əhməd bəyin qolundan tutub aparırlar. Onlarla bərabər səhnəyə gəlmiş jandarma kapitanı lap axırda o biri otağa keçmək istədikdə molla paltarında, gözüçeşməkli birisi səhnəyə gəlir və kapitanı səsləyir.

Kapitan qayıdır.

Kapitan. Buyurun, molla əmi, mənə dair qulluğunuz!

Casus. Mənəm, cənab kapitan, tanımadınız? Otuz doqquz nömrəli.

Kapitan. Əhsən, özünü elə dəyişmisən ki, tanıya bilmədim. Nə sözün var?

Casus. Qız ilə nökər bizim göz altında saxladığımız Roza xanımın yanına getdilər.

Kapitan. Nə qız, nə nökər? Başa düşmürəm.



Casus. Kəblə Muxtarın qızı ilə nökəri. Bir fayton gəlib dayandı, onlar tələsik mindilər, mən atıldım faytonun dalına. Saxladılar bizim izlədiyimiz evin qabağında... Düşüb evə girdilər.

Kapitan. Nə bildin ki, qız Kəblə Muxtarındır?

Casus. O cür canlar alan gözəl Bakıda bir dənədir, tanımamaq olar?

Kapitan. Bu nə danışıqdır? İki addım irəli! Əlahəzrət padşahın keşiyində dayanmış məmur gözəlliyə qarşı küt olmalıdır. Bəs niyə iki addım irəli gəlmirsən? Əmr vermirəm?

Casus. İki addım irəli gəlsəm məni o biri otaqdan görə bilərlər.

Kapitan. O da düzdür. Ayıqsan, əhsən!

Casus. Əmriniz nə olacaq?

Kapitan. İşlər yaman dolaşığa düşüb. Sən get, o evi gözdən qoyma. Mən bu saat gəlirəm.

Casus. Sifətimi dəyişim?

Kapitan. Yox, elə bu cür yaxşıdır.

Casus. İstəyirsiniz keşiş şəklinə düşüm. Mollanın keşiş olmağı bir dəqiqəlik işdir.

Kapitan. Dedim yox. Geriyə dön, marş, qapıdan çıx!

Casus gedir. Kəblə Muxtar gəlir.

Kəblə Muxtar. Kapitan? Gəlin, baxın, görün, oğlan mənim qızımçün nələr göndərib.

Kapitan. Heç bilmirəm bu ağır xəbəri sizə necə verim.

Kəblə Muxtar. Nə olub, kapitan, açıq danışın!

Oyankı otaqdan Firuzə xanımın səsi gəlir. "Kəbleyi, Kəbleyi"!

Kapitan. Odur, haray qopdu, indi nə olduğunu bilərsiniz.

Firuzə (*içəri girir*). Muxtar! Başın batsın! Evimiz yıxıldı!

Kəblə Muxtar. Ay arvad, başıaçıq hara gəlirsən? Kişi var.

Firuzə. Kül sizin kişi başınıza! Alagöz yoxdur!

Kəblə Muxtar. Necə yoxdur?

Firuzə. Yoxdur da... qaçırdıblar.

Kəblə Muxtar. Hara qaçırdıblar?

Firuzə. Axmaq suallar vermə, kəkö Məhəmmədin oğlu! Tez gör neyləyirsən? Evimiz yıxıldı... Ay!.. Ay!.. (*Çığırmağa başlayır, o biri*

*otaqdan qonaqlar tökülüşürlər, "Nə olub? Nə olub? Nə var?" deyə hərə bir sual verir*)

N ə s r u l l a h b ə y (*yavaşdan Əhməd bəyə*). Kəbleyinin arvadı hürkmüş marala oxşayır.

Ə h m ə d b ə y. Bu haray nə pis vaxtda qopdu!

K ə b l ə M u x t a r. Camaat, mənim namusuma toxunublar, qızımı qaçırdıblar, nə durmusunuz?

İ m a m q u l u. Əlim gicişir, adam öldürmək istəyirəm. Bu saat mən o qaçırdan adamı tapıb bu tapançadakı güllələrin hamısını çaxacağam başına.

F i r u z ə. İmamqulu qardaş, əgər tapıb onu öldürə bilməsən, onda gəl bu Kəblə Muxtarı öldür. Bu namussuzluqdan sonra başında papaq saxlamağa onun ixtiyarı yoxdur.

İ m a m q u l u. Baş üstə, bacı, arxayın ol! Camaat, gəlin dalımca!

Ə l i b a b a. Gəlin dalımızca.

R ə ş i d M ə ğ r u r. Əli Məsrur, gəl.

K ə b l ə M u x t a r. Hara gedək? Bu boyda şəhərdə onu harada axtaraq?

K a p i t a n. Mən yerini bilirəm, gəlin!

Gedirlər. İşıq sönür.

## ÜÇÜNCÜ PƏRDƏ

### SƏKKİZİNCİ ŞƏKİL

Bakının küçələrindən biri. Ə l i b a b a ilə İ m a m q u l u K ə b l ə M u x t a r ı gətirib güclə bir daşın üstündə oturdurlar.

Ə l i b a b a. Dədə, bir balaca özünə gəl!

K ə b l ə M u x t a r. Gecəni səhərə kimi gəzmədiyimiz yer qalmadı, tapılmadılar. Mən yıxıldım, mən biabır oldum. İndi bütün şəhər duuuu... zurna götürüb çalacaq.

İ m a m q u l u. Alagöz xanımı qaçırdan adam girimə keçsin, boğazını üzəcəyəm. Yaman əlim gicişir, adam öldürmək istəyirəm.

Ə l i b a b a. Yazıq bacım indi görəsən haradadır?



K ə b l ə M u x t a r. Onun adını mənim yanımda çəkmə, dəli olaram. Bivec oğlu bivec! Qurşandın qumara, mən qazandım, sən uduzdun, mən qazandım, sən uduzdun.

Ə l i b a b a. Bir də əlimi qumara vurmayacağam.

İ m a m q u l u. Mən də daha oynamayacağam, Kəbleyi!

K ə b l ə M u x t a r. And için!

İ m a m q u l u. Kəbleyinin əziz canı üçün!

Ə l i b a b a. Dədəm ölsün, daha oynamaram!

K ə b l ə M u x t a r. Başım qarışdı, bəylər yaddan çıxdı. Heç bilmirəm evlərinə necə getdilər? Çək hanı, dayan, deyəsən, itirmişəm.

İ m a m q u l u. Nə çəkidir, Kəbleyi?

K ə b l ə M u x t a r. İngilis pulunun çəki. Qız cəhənnəmə, pulu itirərəm. Hə, buradadır, tapıldı, şükür Allaha cibimdə imiş. İmamqulu, Əlibabanı tək göndərməyə qorxuram, səndən təvəqqəm var: gedin bizə, mənim otağımda, şkafın içində iki sarı çamadan var, Əlibaba yerini bilir, götürüb aparın mehmanxanaya...

Ə l i b a b a. Çamadanların içində pul var, dədə?

K ə b l ə M u x t a r. Yüz min manat. Firuzənin canı üçün manat-manat oradan-buradan yığmışam. Çamadanları verin Nəsrullah bəyə, ondan bir qəbzəlvüsul alın.

Ə l i b a b a. O qədər nağd pulu Nəsrullah bəyə verirsən?

K ə b l ə M u x t a r. Əvəzində onlar da mənə ingilis pulunun çekini veriblər, qazanclı işdir, tez aparın, tacir gərək sözündə möhkəm olsun.

İ m a m q u l u. Arxayın ol, Kəbleyi! Əlibaba, gəl.

K ə b l ə M u x t a r. Tapançanı çıxart, ha...

İ m a m q u l u. Yanımda ikisi var.

Gedirlər. Sürətlə qayıdırlar.

K ə b l ə M u x t a r. Niyə gəldiniz?

Ə l i b a b a. Çadralı bir qız, yanında da bir oğlan, burada, yan küçədə dayanıblar. Oğlan üzünü yaylıqla tutub ki, tanınmasın.

K ə b l ə M u x t a r. Yəqin onlardır.

İ m a m q u l u. Onlardır, Kəbleyi... Bu tərəfdə də tində bir molla dayanıb.

Ə l i b a b a. Mən mollanı görmədim.

İ m a m q u l u. Mən gördüm, yəqin kəbin kəsdirməyə gedirlər.

Kəblə Muxtar. O hansı köpək oğlu molladır ki, ata-ananın icazəsi olmadan kəbin kəsir?

İmamqulu. Mollaya nə var? Pul ver, atasının yanındaca öz anasını ərə versin.

Rəşid Məğrur gəlir.

Rəşid Məğrur. Alagözlə oğlanı pusa-pusa bura qədər gətirmişik.

Kəblə Muxtar. Qeyrətli dayısan, vallah, qeyrətli dayısan. Sonra qaçarlar, ha!

Rəşid Məğrur. Oradan yol yoxdur. Gəlib buradan keçməlidirlər. Əli Məsrur pusqudadır.

Kəblə Muxtar. Əli Məsrur kimdir?

Rəşid Məğrur. Məşhur mühərrir, tanımırsınız?

Əlibaba. A... Mirzə Əlabbas dönüb Əli Məsrur oldu? Ha, ha, ha!..

Kəblə Muxtar. Gülmə, köpəkoğlu, belə vaxtda adam gülər?

Mirzə Əlabbas gəlir.

Mirzə Əlabbas. Rəşid Məğrur bəy, molla kimi isə axtara-axtara bu yana gəlir.

Rəşid Məğrur. Əli Məsrur bəy, sənin molla ilə işin olmasın, gözünü qızdan çəkmə.

Mirzə Əlabbas. Gör axırın hara gəlib çıxdı, Əlabbas!

Gedir.

İmamqulu. Gizlənin, bu saat mollanın duasını oxuyum.

Gizlənir. Casus molla paltarında o yan-bu yana baxa-baxa gəlir.

İmamqulu (*onun qabağına çıxır*). Salam, axund əmi, səhər-səhər hara belə?

Casus. Sus... çəkil bu yana, iş var.

İmamqulu. Adə, mənə çəkil deyirsən? Mənə, qoçu İmamquluya, çəkil deyirsən?!

Casus. İşə düşmədik?

Geri dönüb getmək istədikdə qabağına Kəblə Muxtar çıxır.

Kəblə Muxtar. Hara gedirsən, xəlvəti kəbin kəsən köpəkoğlu!



Rəşid Məğrur və Əlibaba onun qabağını kəsirlər.

Rəşid Məğrur (*Əlibabaya*). Bacıoğlu, tut, qolunu bağlayıb aparaq uçastoka.

Casus. Əl vurmayın, çığıraram.

İmamqulu. Çığır, ağzından atacağam.

Casusu döyəndə kapitan içəri girir.

Kapitan. Bu nə səs-küydür! Quşları güclə tələyə salmışıq, qaçırda bilərsiniz.

Casus. Cənab kapitan, məni bunların əlindən qurtarın.

İmamqulu. Sənin saqqalını yolacağam. (*Əlini atır, saqqal bütövlüklə qopub əlində qalır*)

Əlibaba. Mollanın üzünü quru-quru qırxdın ki?..

Kəblə Muxtar. Allah, sən saxla, mən bu cür şey görməmişəm.

Rəşid Məğrur. Burada təəccüblü bir şey yoxdur. Casusdur. Kapitan, tutun onu, yəqin alman casusudur.

Kapitan. Ona əl vurmayın. (*Casusa*) Keç, bu tərəfdə dayan. Ağalar! Bu, öz itimizdir, əsas fikrimiz qızla oğlanda olmalıdır. Siz gedin, onları elə mühasirəyə alın ki, bir yana tərpənə bilməsinlər, mən indicə gəlirəm.

Kəblə Muxtar. Gedək. Bədbəxt Kəblə Muxtar, qızını mühasirəyə alırlar.

Çıxırlar. Səhnədə kapitanla casus qalır.

Kapitan. Sən bilirsən, nəsən?

Casus. Əlbəttə, bilirəm, cənab kapitan, deyəcəksiniz axmağam.

Kapitan. Yox, dahisən?

Casus. İki gündür yuxu yuxulamıram, cənab kapitan, neyləyim, nə qədər əlləşib vuruşuramsa axırı yumruq, söyüşlə qurtarır. Görəsən mənim kimi bədbəxt casus dünyada varmı?

Kapitan. Adə, o saqqalı yaxşı-yaxşı yapışdıra bilmirdin? Yapışqana heyfin gəlirdi?

Casus. Qoçu İmamqulu adamın öz anadangəlmə tükünü başından qopardar, onun gücünə yapışqan davam gətirər?

Kapitan. Bu nə sözlərdir? Farağat! Marş, iki addım irəli! Gözlərinlə məni ye!..

C a s u s. Yeyirəm, cənab kapitan!

K a p i t a n. Sən əlahəzrət padşahın keşiyində dayanmış gizli məmursan. Saqqalı elə yapışdırmalısan ki, bir qoşun dartsa, qopmasın.

C a s u s. Baş üstə, cənab kapitan, paltarımı yenə dəyişim?

K a p i t a n. Yox, öz paltarını gey, get düz həbsxanaya. De ki, mən sənə on gün həbs cəzası vermişəm.

C a s u s. Mənə yazığınız gəlsin, cənab kapitan!..

K a p i t a n. Əmrimi yerinə yetir, heç olmasa səni on gün gözüm görməsin. Səni gördükcə özüm öz sənətimə nifrət eləyirəm.

C a s u s. Tapşırıq verin, məni qırmızılarla bir kameraya salsınlar. Orada da sizə xidmət göstərmək istəyirəm.

K a p i t a n. Xidmətin başına dəysin!

C a s u s. İcazə verin, rədd olum.

K a p i t a n. Ol!

Casus gedir. Bu halda İ m a m q u l u, Ə l i b a b a, K ə b l ə M u x t a r, R ə ş i d və Ə l a b b a s səhnəyə gəlirlər.

İ m a m q u l u. Kapitan, onlar bu tərəfə gəlirlər.

K a p i t a n. Hazır olun! Kəblə Muxtar, siz burada, sağ cinahda durun! İmamqulu, qabaqda, hücum planında dayan! Əmrimi gözləyin.

Çadralı bir qadın və üzünü yaylıqla tutmuş bir kişi içəri girirlər. Hərə bir tərəfdən onları əhatə edirlər.

K a p i t a n. Yerinizdən tərpənməyin.

İ m a m q u l u. Qımıldansanız, atacağam.

K a p i t a n (*kişiyə*). Üzünü niyə tutmusan, aç!

K i ş i. Dişim ağrıyır.

K a p i t a n. Yaylığı üzündən götür!

Kişi yaylığı üzündən götürür. Bu, Xosrovdur.

İ m a m q u l u. Malay oğlandır.

K ə b l ə M u x t a r. Adə, tutmayın məni, tutmayın məni...

R ə ş i d M ə ğ r u r. Kəbleyi, küçədə yaxşı deyil. Gör siz kimin bacısının ərisiniz?

K a p i t a n. Bu oğlanı mən yaxşı tanıyıram. Onun əlindən hər nə desən gələr. Tez qızın çadrasını açın.

R o z a (*çadranın arxasından*). Siz necə müsəlmansınız ki, küçədə qızın çadrasını açırsınız?



Ə l i b a b a. Alagözün səsinə oxşayır, odur, özüdür!

K ə b l ə M u x t a r. O namussuz qızın çadrasını aç, hamı üzünə tüpürsün.

X o s r o v. Sizin zor eləməyə ixtiyarınız yoxdur.

İ m a m q u l u. Az danış, ə... açın deyirlər, açın.

X o s r o v (*Rozaya*). Üzünü göstər. Daha bizimki keçib.

R o z a (*çadranı açır*). Hə, buyurun, bu da mənim sifətim.

Ə l i b a b a. A... çadranın altındakı matişgədir ki!

K a p i t a n. Nə üçün rus qadını çadraya bürünüb?

X o s r o v. Nə olar? Döndərib müsəlman eləmişəm.

R o z a. İmam Hüseyn haqqı!

K a p i t a n. Yaxşı, bəs Kəblə Muxtarın qızı ilə nökəri haradadır?

X o s r o v. Kəblə Muxtar kimdir?

K ə b l ə M u x t a r. Mənəm, mən bədbəxtəm.

R o z a. Əmi, biz nə sizi tanıyırıq, nə də sizin qızınızı.

İ m a m q u l u. Bu nə şirin danışır, ə!..

Ə l i b a b a. Zalım oğlu, bu bülbülü haradan tutub salıb çadraya?

K a p i t a n. Sizin bəxtiniz gətirdi ki, evinizi axtardım, şübhəli bir şey tapılmadı. Amma fərqi yoxdur, əvvəl-axır quyruğunuz keçəcək əlimə.

X o s r o v. Quyruğu siz bizə qoşmusunuz, kölgə kimi izlədiyinizdən xəbərimiz var.

R o z a. Kapitan, doğrudan, hanı bizim kölgəmiz? O olmayanda darıxırıq.

X o s r o v. Darıxma, kapitan bizi çox istəyir, quyruqsuz qoymaz. Dayan, qabaqca mən gedim, müsəlman arvadı gərək kişinin dalınca gəlsin...

Gedirlər.

K ə b l ə M u x t a r. Bu ümidimiz də heçə çıxdı.

K a p i t a n. Qəm yemə, Kəbleyi, axtaran tapar.

K ə b l ə M u x t a r. Gedək, yenə axtaraq, qazandığın pul burnundan töküldü, Kəblə Muxtar!

Gedirlər. Səhnə boşalan kimi X o s r o v və R o z a tez qayıdırlar.

X o s r o v. Gəl, bizim yolumuz buradandır, onlar o tərəfə getdilər.

R o z a. Gör dalımızca kölgə sürünmür ki?

X o s r o v. Heç kəs yoxdur, hara gedək?

R o z a. Gərək, tez Alagözgili tapaq.

X o s r o v. Hə, onları yerbəyer eləsək, rahat gedib işimizi işləyərik, dünəndən mətbəəyə getməmişik.

R o z a. Yenə kim isə gəlir. Gör nə əyilə-əyilə divardibi yeriyir?

X o s r o v. Hanı? Hə... Deyəsən, yenə həmən tipdir, qrim eləyib, sifətini dəyişib.

R ə c ə b ora-bura baxa-baxa içəri girir. Onları görüb geri qaçmaq istəyir, birdən tanıyıb dayanır.

R ə c ə b. Axır ki, sizi haqladım.

X o s r o v. Çox axtarmısan? O qoçu sənin saqqalını qopartdı, mən də bu saat bığını yerindən çıxardacağam.

R ə c ə b. Yavaş, Xosrov dadaş, bığım anadangəlmədir.

X o s r o v. A... bu Rəcəbdir ki...

R o z a. Rəcəb, sənsən? Bəs, Alagöz haradadır?

R ə c ə b. Burada, döngədə gizlətmişəm.

R o z a. Xosrov, çadramı ver, gedib onu bura gətirim?

Bürünüb çıxır.

R ə c ə b. Qiyamət qızlar tapmısınız, dadaş. Pərviz qardaş da, sən də... Təmiz fikirlə deyirəm ey. Ürəyinə şeytan girməsin.

X o s r o v. Şeytanın mənim ürəyimdə nə işi var? Bura bax, Rəcəb, nökərçilikdən nə çıxar? Gəl səni düzəldim, neft mədənlərindən birində fəhləlik elə.

R ə c ə b. Bacararam?

X o s r o v. Bacaranlar səndən artıq adamlardır? Əlaltından bizim işimizə də kömək eləyərsən, razısan?

R ə c ə b. Hən da.

X o s r o v. Hən da nədir? De, razısan, ya yox?

R ə c ə b. Allah səndən razı olsun.

Roza ilə A l a g ö z gəlirlər. Hər ikisi çadranı açır.

R o z a. Bilmirəm siz bu qara kəfəndə necə gəzirsiniz?

A l a g ö z. Xosrov qardaş, Pərviz bizi Yasamal altında gözləyəcək.

X o s r o v. Özü ayaqla getdi?

R ə c ə b. Pay-piyada.



R o z a. Biz sizinçün fayton danışmışıq, indi bu saat yəqin Şamaxı yolunda gözləyir.

A l a g ö z. Faytonla hara gedəcəyik?

X o s r o v. Pərvizi Yasamal altından götürüb birbaş Biləcəriyə, oradan da gecə qatarı ilə Mahaç-Qalaya.

A l a g ö z. Biləcəri, Mahaç-Qala... Təzə yerlər, təzə həyat... həm maraqlıdır, həm də qorxulu. Uf...

R o z a. Nə var, indidən yorulmusan?

A l a g ö z. Mübarizə nə çətin iş imiş.

R o z a. Bərkə-boşa düşəndən sonra öyrəşərsən.

X o s r o v. Koroğlunun Nigarı, Qaçaq Nəbinin Həcəri bu cür yaranıb.

A l a g ö z. Əgər, Nigar, Həcər oluncaya qədər tutulmasam...

R o z a. Qorxma, quş qəfəsdən uçandan sonra onu təzədən ora qaytarmaq çətindir.

R ə c ə b. Bura Alagöz xanımın evinə çox yaxındır, uzaqlaşsaq yaxşıdır.

A l a g ö z. Rəcəb düz deyir.

X o s r o v. Gedək.

R o z a. Gedək, Alagöz, nə dayanmısan?

A l a g ö z. Bakı ilə vidalaşıram. Görəsən, bu küçələri, bu evləri bir də görəcəyəmmi?

X o s r o v. Pərvizlə siz ən xoşbəxt günlərinizi Bakıda keçirəcəksiniz. Bizim həyatımız əsl həyatımız gələcəkdədir. Alagöz bacı, gedək! Rəcəb, düş qabağa, şübhəli adam görəndə işarə elə.

R ə c ə b. Gəlin dalımca, mən bu dərsi dünəndən yaxşı əzbərləmişəm.

Gedirlər. İ m a m q u l u ilə Ə l i b a b a əllərində iki çamadan içəri girirlər.

Ə l i b a b a. Bir az dincələk, nəfəsim kəsildi.

İ m a m q u l u. Dayan, bir ətrafa baxım görüm, şübhəli adam yoxdur ki? (*Ətrafı gözdən keçirir*) Qorxulu bir şey yoxdur, oturmaq olar.

Ə l i b a b a. Oturaq bu çamadanların üstündə.

İ m a m q u l u. Ehtiyatlı ol, yüz min manat pulun üstündə oturursan.

Ə l i b a b a. Allahın altında bu yüz minin mincə manatı mənim olaydı.

İ m a m q u l u. Əlibaba, başıma bir fikir gəlib.

Ə l i b a b a. Nə fikir?

İ m a m q u l u. Bəlkə çamadanları dəyişək.

Ə l i b a b a. Doğru deyirlər ki, qoçunun ağlı tapançasında olur, dəyişək, bəs o biri çamadanların içinə nə qoyaq? Açıb təhvil götürəcəklər, axı.

İ m a m q u l u. Məndə bu cür iki çamadan var, ikisinin də içi pul ilə dolu.

Ə l i b a b a. O bəylər qurddur, onlara qəlp pul yeritmək çətindir.

İ m a m q u l u. Başa düşməzlər. Elə məharətlə kəsiblər ki, ancaq bankda seçə bilərlər. Hərdənbir paçkanın içində yeridirəm, bilən olmur.

Ə l i b a b a. Bəlkə aparıb banka qoydular. Onda bir mərəkə qopar ki, Kəblə Muxtar dərimizə saman təpər.

İ m a m q u l u. Kəblə Muxtar bizi nə cür tapacaq? Biz bilirsən harada olacağıq?

Ə l i b a b a. Harada olacağıq?

İ m a m q u l u. Monte Karloda. Əsl qumar oradadır, hə?

Ə l i b a b a. Hə.

İ m a m q u l u. Dur, tez ol, yubanmaq olmaz, cəsarətli olmaq lazımdır.

Ə l i b a b a. Hərçi badəbad. Olan olsun, torba dolsun, gedək.

Gedirlər. İşıqlar sönür.

## DOQQUZUNCU ŞƏKİL

Mehmanxana. Nəsrullah bəygilin mənzili. Otaqda heç kəs yoxdur. Qapı döyülür, bir azdan Məşədinin başı görünür, o ətrafa baxır, ayağının ucunda içəri girir.

M ə ş ə d i (*pıçıltı ilə, qapıdan çölə*). Gəl içəri, Hacı, gəl.

H a c ı (*ehtiyatla otağa girir*). İcazəsiz otağa girmək bunlarda böyük biədəblik hesab olunur.

M ə ş ə d i. Açıq qapıya girərlər. Bəs haradadırlar?

H a c ı. Yəqin o biri otaqdadırlar hələ yatırlar.

M ə ş ə d i. Gün günortadır, bu vaxta kimi yatmaq olar?



H a c ı. Deyir o tərəflərdə adətdir, adamlar hamısı gündüzlər yatırlar, gecələr səhərə kimi işləyirlər.

M ə ş ə d i. Əcəb tərs adətləri var.

Qapı döyülür.

H a c ı. Cavab verək, verməyək?

M ə ş ə d i. Səsini çıxartma, bizə nə!

Kəblə Muxtar qapıdan boylanır, tacirləri görüb içəri girir.

K ə b l ə M u x t a r. Nəsrullah bəy hələ yatır?

M ə ş ə d i. Yatırlar.

K ə b l ə M u x t a r. Onda bəs niyə buranı kəsdirmisiniz? Gedin işinizə, kişilərin istirahətinə mane olmayın.

H a c ı. Səni onlara görəsən kim vəkil təyin eləyib?

K ə b l ə M u x t a r. Hacı, dünən axşam evimdəydin, sənə ağır söz demədim.

H a c ı. Deyərdin, payını da alardın.

K ə b l ə M u x t a r. Ay nəməkbəharam! Qarnını yarsalar, bir pud mənim duzum çıxar!

M ə ş ə d i. Yavaş danışın, dalaşmağa yer tapmısınız? Tacirlərin adını batırmayın, ayıbdır.

K ə b l ə M u x t a r. Sən də çəkil bu yana, kasəlisin biri kasəlis.

M ə ş ə d i. Kasəlis özünsən... ağzımı açır ey...

K ə b l ə M u x t a r. Hamınız mənim çörəyimi yeyib qudurmusunuz.

H a c ı. Çörəyin çox idi, qızına verəydin, qoşulub qaçmayaydı...

K ə b l ə M u x t a r. Ailəmin adını çəkmə, mən sən deyiləm ki, dörd yerdə arvad saxlayım, dördünü də acından öldürüm!

M ə ş ə d i. Sus... Səs gəlir, deyəsən, yuxudan oyandılar.

Üçü də susub, qulaq asırlar. Bu halda qapı taybatay açılır. Mirzə Əlabbas hövlnak içəri girir.

M i r z ə Ə l a b b a s. Kəbleyi, fəlakət!

K ə b l ə M u x t a r. Nə olub, qızın meyidi tapılıb?

M i r z ə Ə l a b b a s. Yox canım, bankdan...

K ə b l ə M u x t a r (*onun sözünü kəsir*). Bir az yavaş danış. Kişiləri yuxudan oyadarsan.

Mirzə Əlabbas. Bankdan gəlirəm. Verdikləri çek qəbul olunmadı.

Kəblə Muxtar. Nə ixtiyarları var, qəbul eləməsinlər, gərək təcili Fitilbörkə göndərsinlər.

Mirzə Əlabbas. Yalandan yazıblar, nömrə də yalandır, familiya da yalandır, hamısı yalandır.

Hacı. Mirzə Əlabbas, bir az yavaş danış, o biri otaqdadırlar, eşidərlər.

Məşədi. Vallah, çıxıb tükümüzü yolarlar.

Kəblə Muxtar. Qoy dursunlar, yüz min manatı geri alacağam. İstəmədim ingilis pulunu, bədbəxt Kəblə Muxtar!..

Mirzə Əlabbas. Nə yüz min manat?

Kəblə Muxtar. Bəs xəbərin yoxdur? Yüz min nağd göndərmişəm! Əlibaba və İmamqulu vasitəsilə.

Mirzə Əlabbas. Veriblər?

Kəblə Muxtar. Bəs, necə? Bu da qəbzləri. (*Cibindən qəbz çıxardıb Mirzə Əlabbasa verir*)

Mirzə Əlabbas (*oxuyur*). Qəbzəlvüsul. Sonra, dalını oxuya bilmirəm. Bunu hansı dildə yazıblar, Kəbleyi?

Kəblə Muxtar. Bilmirəm, bizim dildə deyil?

Məşədi. Yəqin firəngcədir.

Hacı. İngilis dilində olar.

Mirzə Əlabbas. Bir kəlmə də oxumaq olmur. Təkcə "Qəbzəlvüsul" bizim əlifbayladır. Bir də altdan yazılıb Nəsrullah bəy Otaylinski, Əhməd bəy Butaylinski. Qalanı kim bilir hansı millətin dilindədir?

Kəblə Muxtar. Mirzə Əlabbas, qolumdan tut, dizlərim əsir, başım fırlanır.

Mirzə Əlabbas. A yekə kişi, adam da adama yüz min manat nağd pul verər?

Kəblə Muxtar. Nə bilim, mən nə bilim? Ay Hacı, düşmənçiliyimiz qalsın bir tərəfdə, bir kəlmə ağıllı söz de, partlayıram.

Hacı. Ürəyini sıxma, Kəbleyi, bu saat özləri durub bizi arxayın eləyərlər.

Məşədi. Bəlkə zarafat eləyiblər.

Kəblə Muxtar. Bu boyda zarafat olar?



Rəşid Məğrur içəri girir.

Rəşid Məğrur. Əli Məsrur, səni redaksiyada gözlədim, gözlədim, axırda bura gəldim.

Mirzə Əlabbas. Bankda idim.

Rəşid Məğrur. Bizim pulumuz gəlib?

Mirzə Əlabbas. Xəbər tuta bilmədim, başım qarışıq oldu.

Kəblə Muxtar. Gətirib küçəyə töküblər, yığışdırmadın?

Rəşid Məğrur. Kəbleyi, min ton kağız sifariş eləmişəm, xirtdəyə kimi borca girmişəm, o cür sözlərin yeri deyil. Əli Məsrur, tez banka get, öyrən.

Mirzə Əlabbas. Mən qələt eləyərəm, bir də banka ayaq basaram. Saxta çek gətirmisən deyə polisə xəbər verirdilər, güclə yaxamı qurtardım.

Rəşid Məğrur. Saxta çek?

Kəblə Muxtar. Deyəsən dəli olmağa başlayıram. Əlim-ayağım əsir.

Hönkürüb ağlayır. Bu halda açıq qapıda Mirzə Cəlil, Hüseyn, Ağa və Əyyub əmi görünür.

Əyyub əmi. Nə olub burada? Kəblə Muxtar, niyə belə ağlayırsan?

Kəblə Muxtar. Ölmüşəm, a kişilər, basdıranım yoxdur.

Hacı (*Məşədiyə*). Kaş ki, ölsün, basdıran tapılar.

Mirzə Cəlil. Bu həmən Kəblə Muxtardır?

Əyyub əmi. Bəli.

Mirzə Cəlil. Qızın istədiyi adamla gedib, ölməyib ki, ağlayırsan?

Kəblə Muxtar. Əşi, qız nədir, oğul nədir, hamısı qırılsınlar, gözümdən bir gilə yaş çıxmaz. Pulum gedib, qazancım gedib. Buna div ürəyi dözə bilməz. Siz savadlı adamlara oxşayırsınız, Mirzə, qadan alım, gör bu qəbz hansı dildə yazılıb?

Qəbzi Mirzə Cəlilə verir.

Mirzə Cəlil (*qəbzə baxır*). Nəsrullah bəy Otaylinski, Əhməd bəy Butaylinski.

Kəblə Muxtar. Bəli, qadan alım, məşhur milyoner tacirlərdir, bu da yüz min nağd əsginasın qəbzidir.

M i r z ə  C ə l i l. Hə, yavaş-yavaş məsələ aydınlaşır. Mən bu adamları yaxşı tanıyıram.

K ə b l ə  M u x t a r. Tanışlarındır? Şükür Allaha. Oxu, qadan alım, onların dilini sən yaxşı bilərsən.

M i r z ə  C ə l i l. Özləri haradadırlar?

K ə b l ə  M u x t a r. Bu biri otaqda yatırlar.

M i r z ə  C ə l i l. Açın, o qapını.

H a c ı. Olmaz.

M ə ş ə d i. Qəzəblənərlər.

M i r z ə  C ə l i l. Açın deyirəm, qorxmayın, orada heç kəs yoxdur.

Yan otağın qapısını açır. Kəblə Muxtar, Rəşid Məğrur, Mirzə Əlabbas, Hacı və Məşədi ora gedir, təəccüblə geri qayıdırlar.

M i r z ə  Ə l a b b a s. Nə bildiniz ki, orda heç kəs yoxdur?

M i r z ə  C ə l i l. Mən öz "dostlarımı" yaxşı tanıyıram, onlar məşhur lotulardır, şəhər-şəhər gəzib avam insanları talayırlar. Bir şəhərdə dindən, şəriətdən, mövhumatdan istifadə eləyib ölü dirildirlər, o biri şəhərdə acgözlükdən, tamahkarlıqdan, pula ibadət eləməkdən istifadə eləyib saxta çek işə salırlar.

R ə ş i d  M ə ğ r u r. Mən onların şərəfinə şeir yazmışam. Əlli min manat pul vəd eləyiblər, deyirsiniz, yəni, o da yalandır? Ola bilməz!

H ü s e y n. Nə üçün olmur? Yalan şerin yalan da haqqı olar.

K ə b l ə  M u x t a r. Mən Kərbəlaya getmişəm, bu kişi Məşhədə, bu Həccə, nə təhər oldu ki, üçümüzü də aldatdılar, xəbərimiz olmadı?

M i r z ə  C ə l i l. Ona görə ki, siz üçünüz də heçə bərabərsiniz. Ürəyinizdə pul məhəbbətindən başqa heç bir şey yoxdur. Savadınız yox, mədəniyyətiniz yox, insaf və mürvətiniz yox... Pul hissindən başqa bütün hisləriniz iflic olub. Qurdlar, çaqqallar, qarğalar belə çürük bədən axtarırlar ki, dağıdıb parçalasınlar.

R ə ş i d  M ə ğ r u r. Demək hamımız can üstündəyik.

M i r z ə  C ə l i l. Siz çoxdan ölmüsünüz. Xalq isə diridir. Bir gün gələcək, bu dirilər bədəninizə müsəllət olan bütün qurdları məhv eləyəcəklər.

K ə b l ə  M u x t a r. O vaxtı gözləyə bilmərəm. Bu saat polisi qatacağam jandarmaya, jandarmanı polisə... Onları tutmaq lazımdır. Tez olun, gəlin!

M i r z ə  C ə l i l. Artıq gecdir!



K ə b l ə  M u x t a r. Gec deyil, haradadır İmamqulu, haradadır Əlibaba?

Kapitan içəri girir.

K a p i t a n. Nə olub, Kəbleyi? Tapıldı?

K ə b l ə  M u x t a r. Yox, bunlar da qaçdı. Mənim yüz minimi götürüb qaçdılar. Kapitan, onları tut, pulumu qaytar. İyirmi mini nağd sənindir.

K a p i t a n. Bu saat. Quş olub göyə də uçsalar, əlimdən qurtara bilməzlər!

Fit çalır. Hər tərəfdən cavab fitləri eşidilir. İşıqlar sönür.

## ONUNCU ŞƏKİL

İkinci şəklin dekorasiyası. N ə s r u l l a h ilə Ə h m ə d çiyinlərində çamadan gəlirlər.

N ə s r u l l a h. Uf, bir az oturaq, ayaqlarım hərəkət eləmir. Güman eləyirəm ki, daha bizi burada tapa bilməzlər.

Ə h m ə d. Bura heç şeytanın da ağlına gəlməz. Yaxşı qurtardıq. Az qala tutacaqdılar. Ora bax, Nəsrullah, bir bax!

N ə s r u l l a h. Haranı göstərirsən?

Ə h m ə d. Qurbanı olduğum İranı.

N ə s r u l l a h. Buradan görünür?

Ə h m ə d. Odur bax, bu Araz çayı, sərhəd, o da İran kəndləri.

N ə s r u l l a h. Gördüm, gördüm.

Ə h m ə d. Bilirsən nə var, şeyxəna, bəsdir bu tayda avaraçılıq eləmişik, keçək o taya, əmmaməmizi taxıb sənətimizlə məşğul olaq.

N ə s r u l l a h. Hələ bir neçə il mən heç bir işlə məşğul olmayacağam. Əlimizdə bu qədər pul var, nəyin dərdini çəkirik? Üç və ya dörd arvad alıb oturacağam Tehranda. Bu pulları bir ucdan yeyəcəyəm.

Ə h m ə d. Allah Kəblə Muxtara o dünyada behişt qismət eləsin. Onun yüz mini olmasaydı, işi bu qədər tez qurtara bilməyəcəkdik. Amma ikicə gün də dayansaydıq, bir bu qədər də varımız idi.

N ə s r u l l a h. Tamahkar olma, yaxşı aradan çıxdıq.

Ə h m ə d (*çamadanı qucaqlayır*). Ay sənə qurban olum, pul! Canımsan, ciyərimsən, namusumsan, qeyrətimsən!

N ə s r u l l a h. Yaxşı, Əhməd, bəs İranda bizdən urus pulunu götürəcəklər?

Ə h m ə d. Dünyanın harasında olsan, bank götürəcək. Urus pulu möhkəm puldur, qızıldan bahadır.

N ə s r u l l a h. Elə isə kefimizdir. Otuz minlə sən otuz il dolanarsan.

Ə h m ə d. Otuz niyə? Çamadanlarda yüz mindir.

N ə s r u l l a h. Yetmiş mini mənimdir, otuz mini sənin.

Ə h m ə d. Ay özün öləsən.

N ə s r u l l a h. Mən qazanmışam, sən ortada vagirlik eləmisən.

Ə h m ə d. Sən özünü dartıb oturmusan, bütün əməliyyat mənim əlimdən gəlib keçib.

N ə s r u l l a h. Əhməd, sən heç o otuz minə də layiq deyilsən. Mənim yerimdə özgəsi olsaydı, bir tulapayı verib səni yola salardı.

Ə h m ə d. Nəsrullah, səni bu qayaların üstündən ataram, qurdaquşa yem olarsan.

N ə s r u l l a h. Sən məni atarsan, dılğır?

Ə h m ə d. Dılğır özünsən, bambılı!

N ə s r u l l a h. Kəs səsini!..

Ə h m ə d. Sən kəs səsini!

Xirtdəkləşəndə birdən səs gəlir.

N ə s r u l l a h (*yavaşdan*). Yavaş, soyub-soyub quyruğunda murdarlama. Yaxşı, qırx olsun.

Ə h m ə d. Əllidən bir qəpik düşən köpək oğludur.

N ə s r u l l a h. Mən ölüm, qırx beşə razı ol!

Ə h m ə d. Ay sənin başın batsın! Nə pis yerdə mən ölüm çəkdin!

N ə s r u l l a h. Əlli beşi mənim, qırx beşi sənin.

Ə h m ə d. Yaxşı, dilənçi oğlu, dilənçi. Burada da öz zatıqırıqlığını göstərdin.

N ə s r u l l a h. Əlini, ver!

Ə h m ə d. Əlimi neyləyirsən? Qorxuram sonra bir barmağım əskik gələ.

N ə s r u l l a h. Barışaq.

Ə h m ə d. Yaxşı, gəl, barışaq.

Qucaqlaşıb öpüşürlər.



N ə s r u l l a h. Vaxtında yola düşək. Axşama qalmayaq.

Ə h m ə d. Yola düşək deyəndə, əlində başbiletin var ki, sərhəddə əsgərə göstərəsən, buraxa? Heç o tərəflərə hərlənmək olmaz.

N ə s r u l l a h. Bəs haradan keçək, göylə uçaq?

Ə h m ə d. Yol ancaq bu dağların üstündəndir. Orada, qayaların başında elə cığırlar var ki, ins-cins də bilmir.

N ə s r u l l a h. Bu ağır yüklə dağlara dırmaşmaq mənim qeyrətim deyil, şeyx Əhməd.

Ə h m ə d. Elə mənim də qeyrətim deyil.

N ə s r u l l a h. Bəs neyləyək?

Ə h m ə d. Yenə çamadanlar olmasaydı ayağımızla birtəhər gedərdik. Amma bu ağır yüklə o dağlara dırmaşmaq heç mümkün deyil.

N ə s r u l l a h. Əhməd, bu tərəfə iki atlı gəlir, gizlən, evin yıxılsın, yəqin bizi axtarırlar.

Ə h m ə d. Dayan, mən bir baxım, hə, birinin tüfəngi də var.

N ə s r u l l a h. Götür çamadanları, geri qaçaq.

Ə h m ə d. Heç yerə qaçmaq olmaz. Əgər bizi axtarırlarsa, deməli, hər tərəfi tutublar, yaman yerdə axşamladıq.

N ə s r u l l a h. Gizlən, bu kolların dalında.

Çinovnik gəlir.

Ç i n o v n i k (*səhnə arxasına*). Sən atların yanından çəkilmə, hürküb qaçarlar, mən baxım görüm, buralarda bulaqdan-zaddan varmı?

N ə s r u l l a h (*kolun dalında, Əhmədə*). Bizim dalımızca gəlməyiblər, yol ötəndirlər.

Ə h m ə d. Mən də elə görürəm. İçməli su axtarır.

N ə s r u l l a h. Onların atlarını pulla ala bilsək, nə yaxşı olar?!

Ə h m ə d. Ağıllı fikirdir. Üzə çıxaq?

N ə s r u l l a h. Çıxaq. Nə olacaq, olacaq...

Kolların dalından çıxırlar.

Ç i n o v n i k (*onları görüb dik atılır*). Bismillahirrəhmanirrəhim.

N ə s r u l l a h. Bismillah deməyindən məlum olur ki, müsəlmansan?

Ç i n o v n i k. Mə... mə... mə...

Ə h m ə d. Mələmə, sözünü de!

Ç i n o v n i k. Mənə toxunmayın, yol ötənəm... burada yoldaşım da var, qoyun onu çağırım.

N ə s r u l l a h. Yox, aşna, keçəl suya gedən deyil. Keç bu tərəfə. Yoldaşına xəbər versən, başını Ordubad qarpızı kimi yararıq. (*Əhmədə*) Tapança yanındadırmı?

Ə h m ə d. İkisi birdən. Guruldadım?

N ə s r u l l a h. Hazır ol!

Ç i n o v n i k. Mənə yazığınız gəlsin, vallah, səkkiz uşağım var, səkkizi də qız.

Ə h m ə d. Kimsən, hara gedirsən?

N ə s r u l l a h. Düz adamsan, yanında tüfəng niyə gəzdirirsən?

Ç i n o v n i k. Çinovnikəm, bankda işləyirəm, bax, bu aşağıda görünən kəndə gedirəm, vergi yığmağa. Bu yasavulu da mənə veriblər ki, qayıdanda hökumətin puluna toxunan olmasın.

Ə h m ə d. Düzünü deyirsən?

Ç i n o v n i k. Qurana and içirəm, çinovnik olmağıma baxma, mən bir müsəlman adamam...

N ə s r u l l a h. Onda qorxma. Biz müsəlmana əl qaldırmırıq! (*Əhmədə*) Tapançanı gizlət, əlində açılar.

Ə h m ə d. Gizlətmişəm, arxayın ol.

N ə s r u l l a h. Biz Culfaya gedirik, yolda atlarımız su içən kimi yıxılıb öldülər.

Ç i n o v n i k. Suda zəhər varmış ha...

Ə h m ə d. Yaxşı ki, o sudan özümüz içmədik.

N ə s r u l l a h. İndi pay-piyada qalmışıq bu dağların başında. Sizin yolunuz yaxındır, atlarınızı bizə satın.

Ç i n o v n i k. İndi ki, pulunuz var, düşək kəndə, sizə bir cüt yaxşı at alım.

Ə h m ə d. Kəndə düşə bilmərik, yolumuz uzaqdır, tələsirik.

N ə s r u l l a h. Atlarınızı burada bizə satın, kənddə özünüz üçün yaxşısını alarsınız.

Ç i n o v n i k. Dağın başında alver, mən birinci dəfədir eşidirəm.

N ə s r u l l a h. Dünya dəyişib. Hələ gör kənddə nələr eşidəcəksən.

Ç i n o v n i k. Vallah, heç bilmirəm nə cavab verim.

Ə h m ə d. Hə, satırsan, satmırsan?

N ə s r u l l a h. Yaxşı, bəsdir, hövsələni dər! (*Çinovnikə*) Mənim bu yoldaşım bir az qoçutəhərdir. Öldürməkdən başqa əlindən heç nə gəlmir. (*Əhmədə*) Yazığı niyə fələyin dəminə vermək istəyirsən? Şirin dil ilə danışa bilmirsən?



Ç i n o v n i k. Yaxşı, razıyam, satıram.

N ə s r u l l a h. Yoldaşın bir söz deməz ki?

Ç i n o v n i k. Yox, canım, atlar bizimdir. Burada sizə sataram, kənddən alaram.

Ə h m ə d. Qiymətini de!

Ç i n o v n i k. Vallah, heç ömrümdə at alveri eləməmişəm. Neçəyə desəm yaxşıdır, hə? Yüz manata.

Ə h m ə d. Axmağa bax ha... yüz manata beş at almaq olar.

N ə s r u l l a h. Yaxşı, çəkil bu yana, o saat qızışma, yüz deyir, yüz verərik. (*Əhmədə*) Çıxart yüz manat ver.

Ə h m ə d (*yavaşdan*). Onun yanında çamadanı açmaq olmaz. Pulları görər. (*Çinovnikə*) A kişi, üzünü o yana çevir, tərpənmə.

Ç i n o v n i k (*son dərəcə qorxmuş halda*). Atma, qadan alım, atma.

N ə s r u l l a h. Atıb eləyən yoxdur, arxayın ol. Üzünü çevir ki, pulumuzun yerini bilmə. Zəmanə pis zəmanədir, adamları tanımaq olmur.

Ç i n o v n i k. Mən düzgün adamam, arxayın olun.

Üzünü çevirir. Əhməd çamadanın birini açır, yüzlük çıxardıb, tez, yenə çamadanı bağlayır.

Ə h m ə d (*pulu çinovikə uzadır*). Al!

Ç i n o v n i k. Üzümü çevirə bilərəm?

N ə s r u l l a h. Çevir, götür yüz manatı.

Ç i n o v n i k. Bu saat yasavulu səsləyim, atları gətirsin. (*Pullara baxır, birdən təəccüblə səslənir*) Pah, evinəcən sənin!

Ə h m ə d. Nə olub?

Ç i n o v n i k. Bu yüzlük qəlpdir ki?!

N ə s r u l l a h. Necə yəni, qəlpdir?

Ç i n o v n i k. Qəlp puldur, saxta...

N ə s r u l l a h. Haradan bildin?

Ç i n o v n i k. Budur bax, bu kağızı... Bu nömrəsi... bu da ki rəngi... Bu yaxınlarda bütün banklara təlimat gəlib, bir dəstə fırıldaqçı çoxlu saxta pul buraxıb... İndi onları bərk axtarırlar... Sizə bu yüzlüyü kim verib?

Ə h m ə d. Yəqin paçkaya qarışdırıb veriblər, xəbərimiz olmayıb...

N ə s r u l l a h. Qaytar onu mənə! (*Pulu çinovnikdən alıb diqqətlə baxır*) Dünyada nə bacarıqsız adamlar var, əməlli-başlı qəlp pul kəsməyi də bacarmırlar. (*Əhmədə*) Yaxşı, bu yüzlüyü mən ayrıca qoyaram, sahibinə qaytararıq. Sən ayrı pul ver, kişini ləngitmə.

Ə h m ə d (*Çinovnikə*). Üzünü o yana çevir, tərpənmə.

Ç i n o v n i k. Sizin pul çıxarmağınız, lap arvadların soyunmağı kimi bir şey olub.

Ə h m ə d (*yenə çamadanı açır. İki dənə əllilik çıxardıb verir*). Al, daha bu pullara sözün ola bilməz.

Ç i n o v n i k (*pulları alıb baxır*). Necə ola bilməz? Qəlpdir. Özünüz baxın, o saat başa düşərsiniz.

N ə s r u l l a h. İşə düşmədik! (*Pulları alıb baxır*) Padşahın başı bir az əyri düşüb, onu deyirsən?

Ç i n o v n i k. Kağızına bax, kağızına! Əsl yüzlüyü, əlliliyi əlinə alanda adamın iştahı açılır, pulu çeynəyib yemək istəyir.

N ə s r u l l a h. O biri çamadanı aç.

Ə h m ə d. Yerini başa salma! (*Çinovnikə*) Üzünü o yana çevir, tərpənmə.

Ç i n o v n i k. Yəqin bu pulları alanda da belə eləmisiniz, ona görə də sizə qəlp pul basıblar.

Üzünü çevirir.

Ə h m ə d (*o biri çamadanı açır, baxır*). Deyəsən bunlar da o cürdür.

N ə s r u l l a h (*Çinovnikə*). A kişi, gəl bura, özün seç, yüz manat götür.

Ə h m ə d. Neyləyirsən? Pulların yerini özgə adama göstərmək olar?

N ə s r u l l a h. Daha ondan keçib, deyəsən, qazanc qudurub mayanı yeyib. (*Çinovnikə*) A kişi, gəl də.

Ç i n o v n i k. Yoldaşın atmaz ki?

Ə h m ə d. Yox, yox, gəl, icazə verirəm.

Çinovnik onlara yaxınlaşır.

Ç i n o v n i k. Bu iki çamadanın ikisi də doludur?

Ə h m ə d. Onun sənə borcu yoxdur.

N ə s r u l l a h. Səbirli ol, ay Allahın bəndəsi. Başımızın üstündə qara buludlar oynayır, xəbərin yoxdur. A kişi, gəl, bu pulların qəlpi ilə əslini ayır bir-birindən.

Ç i n o v n i k (*çamadanların içindəki pullara diqqətlə baxır*). Burada bir manat da əsl pul yoxdur, hamısı saxtadır.

N ə s r u l l a h. Diqqətlə bax.



Ç i n o v n i k. Mən bank işçisiyəm, gözümdən qaçmaz. Ağzımda deyirəm ki, bu pullar hamısı saxtadır. Ələ düşsəniz ikinizi də güllələyərlər.

Ə h m ə d. Elə sənin özünü bu saat güllələrəm.

Ç i n o v n i k. Özündən çıxma. Bu pulları alanda diqqətlə baxaydın, gərək. İndi mənim üstümə xoruzlanmaqdan nə çıxar?

N ə s r u l l a h. Deyirsən şəhərə aparsaq əngəli çıxar?

Ç i n o v n i k. Dayan... dayan... hələ bəzi paçkalarda üstdən bir-iki qəlp pul qoyub altını tamam ağ kağız eləyiblər. A kişilər, siz pul alanda sayıb eləməmisiniz, məgər?

Ə h m ə d. Saymağa, baxmağa, vaxt oldu ki?

N ə s r u l l a h. Bəs neyləyək?

Ç i n o v n i k. Mənim məsləhətim, bax, bunların hamısını tökün bir yerə, yandırın, izi-tozu da qalmasın. Mən əslində gərək sizi tutub aparaydım divanxanaya... amma görürəm bədbəxtsiniz, fırıldaqçı əlinə düşmüsünüz... Sağ olun, icazə versəniz, gedərəm.

N ə s r u l l a h. Sən o səkkiz qızının canı, bu barədə bir adama danışma.

Ç i n o v n i k. Qızlarımın canı üçün, arxayın olun.

Gedir. Xeyli sükutdan sonra.

Ə h m ə d. Bəlkə bu adam bizi aldatdı?

N ə s r u l l a h. Yox, bu adam aldatmadı, o adamlar aldatdılar. Sən çamadanı açan kimi mən gördüm ki, bu pullar ölü pullara oxşayır, parıltısı yoxdur.

Ə h m ə d. Demək, Kəblə Muxtar bizə kələk gəldi, hə? Getmişdik saqqal gətirməyə, bığı da qoyduq gəldik.

N ə s r u l l a h. Getmişdik ölü diriltməyə, diriləri öldürüb yola saldılar.

Ayağı ilə çamadanları vurur, pullar səpələnir.

Ə h m ə d. Heyf, qırx səkkiz qızılı havaya sovurduq!

N ə s r u l l a h. Lüt-madərzad qayıdırıq İrana.

Ə h m ə d. Özümüzlə aparaq, bəlkə orada yeritdik.

N ə s r u l l a h. Yox, onlara yaxın düşmək olmaz.

Ə h m ə d. Onda bu zəhrimarları yandıraq. Kişi birdən şeytanlayar, tutub dədəmizi yandırarlar.

N ə s r u l l a h. Bizim dədəmizi Bakıda yandırıblar. Cibimizdə kibrit almağa pulumuz yoxdur. Qoy bu pullar səpələnsin yollara, gəlib-gedən götürsün, xərcləyəndə tutulsun. Biz yandıq, qoy onlar da yanıb kül olsunlar. Gedək, başlayaq öz köhnə peşəmizə, min bərəkət, yenə əmmaməyə.

Gedirlər. Arxa işıqlar sönür, səhnənin qabaq tərəfi daha da işıqlanır. Mirzə Cəlil, Hüseyn və Ağa içəri girirlər.

A ğ a. Həriflər əliboş getdilər ki!..

H ü s e y n. Son sözləri də bu oldu: "Min bərəkət yenə əmmaməyə"... Demək, bələləri üçün avamlıq, cahillik, tamahkarlıq, paxıllıq, mövhumat və din pərdəsi ən sınanmış pərdədir.

M i r z ə C ə l i l. Bu pərdəni yırtıb dağıtmaq üçün, bu ölümə məhkum adamları yolumuzdan kənar eləmək üçün xalq özü vuruşmağa başlamışdır. Biz isə acı gülüşümüzlə bu vuruşa kömək etməliyik. (*Üzünü tamaşa salonuna çevirir*) İndi mən də sizi deyib gəlmişəm, ey mənim tamaşaçı qardaşlarım! Qoymayın, ölülər diriləri soysunlar.

*1966*



# Hekayələr

## ŞİRİN BÜLBÜL

### 1

Elə bir zamandan danışıram ki, böyüklərin xatirəsində çox yaxşı qalıb, kiçiklərin isə heç ağlına gəlməz.

O zamanlar Bakı belə deyildi. Küçələr, meydançalar dava meydanına bənzəyirdi; vuran vuranın, kəsən kəsənin idi. Güclülər gücsüzlərin başına yumruqlar yağdırırdı. Zorlular zorsuzlara qan uddururdu. Aləm bir-birinə qarışmışdı. İt yiyəsini tanımırdı. Müxtəsər, müsavat zamanı idi.

İndi boyu daha da balacalanmış, rəngi daha da saralmış, danışığını itirmiş yekəburun Cəlil Naim əfəndi o zamanlar Azərbaycanın şirin bülbülü idi.

Təzəpirdə "din və millət düşmənlərinə" qarşı tarixi söyüşlərə çıxan və camaatın ağzını heyrətdən yarım saat açıq qoyan yalnız və yalnız Cəlil Naim əfəndi olmuşdu.

İngilislər Azərbaycana dəvət olunmamışdan qabaq Quba meydanında, Kömürçü bazarında o, ingilislərin əleyhinə düz saat yarım çənə işlətmiş və bütün bazar camaatının qəlbində böyük bir həyəcan törətmişdi.

İngilislər gələndən sonra isə Cəlil Naim əfəndi tamam dəyişmiş, başqa havalar çalmağa başlamışdı. Bakı kommunarları güllələnənən gecə o, qumarda pul udmuş və sərxoş olub, general Tomsonun yaşadığı binanın qaravulçusu ilə öpüşmüşdü.

Osmanlılar Bakıya hücum edəndə Cəlil Naim əfəndi "Ay camaat, qoymayın, sünnülər gəldi şiələri öldürməyə" – deyə təbliğat aparmışdı.

Osmanlılar Bakıya girən kimi isə Cəlil Naim əfəndi dilini, qafiyəsini dəyişmiş və osmanlı dili ilə danışmağa, osmanlı yeməyi yeməyə, osmanlı qaşığı işlətməyə başlamışdı. Bakı camaatı bu dəfə də Cəlil Naim əfəndinin nitqini dinləməyə nail olmuşdu. Osmanlı çavuşlarının nəzərləri altında əriyərək "Ax, osmanlılar, osmanlılar" – deyə Cəlil Naim əfəndi tribunada ağlamış və onu oradan güclə dartıb düşürmüşdülər.